www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 19 avqust 2014-cü il Çərşənbə axşamı № 207 (5916) Qiyməti 40 qəpik

**Xəbər**

## Kriminal avtoritet "AF Hotel"də qətl törətdi

yazısı səh.14-də

**Gündəm**

### Bakıda amerikalıların ikinci "Arqo" əməliyyatı - Qaçırılan kimdir?




NATO-nun Bakı İnstitutunun rəhbəri nəyə işarə edirdi; Emin Hüseynov barədə 10 il sonra film çəkiləcəkmi?; Amerika kəşfiyyatının ən uğurlu proseslərindən birinin hekayəsi...

yazısı səh.9-da

### Həbsdəki hüquq müdafiəçilərinin Müdafiə Komitəsi elan edildi

yazısı səh.3-də

### Hakimiyyət müxalifətə adamlar yerləşdirmək istəyir?

yazısı səh.4-də

### "Hafka"ya cinayət işi açılması xəbəri yayıldı

yazısı səh.2-də

*İsgəndər Həmidov:*

### "200 nəfər versinlər, Kəlbəcəri azad edim..."

yazısı səh.6-da

### Naxçıvanda Qarabağ müzakirəsi...

yazısı səh.2-də

### Siyasi məhbuslardan xəbər var

yazısı səh.5-də

### Əhməd Oruc AXCP funksionerinin ittihamlarına sərt cavab verdi

yazısı səh.6-da

### Almaniya kəşfiyyatı 5 ildir Türkiyə iqtidarını niyə dinləyirmiş...

yazısı səh.9-da

### 102 erməni öldürən amasiyalı unudulmuş qəhrəman

yazısı səh.10-da

### Bakıda ana və qızın intiharında ailə başçısı suçlanır

yazısı səh.12-də

### Azərbaycanda su fəlakəti yaşanır

yazısı səh.15-də

## Nüfuzlu şirkət dörd hərflik sözün güdazına getdi

# "COCA-COLA"NIN NİDASI QOYULDU!

Azərbaycanda Amerikanın məşhur firmasının içkilərinin satışı qadağan edilir; Bakıdakı iri marketlərin vitrinlərindən "Coca-Cola", "Fanta", "Sprite" yığışdırılır, onların əvəzinə "Pepsi" məhsulları satılır; prosesin arxasında "NİDA"nın olduğu iddia edilir

yazısı səh.11-də




## Kəbirə Məmmədovanın erməni şərikinin olması haqda müdhiş məlumat

"Binə"nin sahibi barədə şok xəbər; türk iş adamları ticarət mərkəzinin rəhbərinin Dato adlı ortağının Moskvada oturduğunu deyirlər...

yazısı səh.5-də



### Anar Məmmədovun "Yeni Müsavat"la 4 min manat davası

yazısı səh.4-də



*Rəşid Hacılı:*

### "Media Hüququ İnstitutu donorlarını itirib"

yazısı səh.8-də



*İqbal Ağazadə:*

### "Siz marginalsınız..."

yazısı səh.7-də

## Prezident Nabran yoluna 1,7 milyon ayırdı



**Prezident İlham Əliyev Xaçmaz rayonu ərazisində Dalğalı-Nabran-Tel avtomobil yolunun tikintisinin maliyyələşdirilməsi haqqında sərəncam imzalayıb.**

"Qafqazinfo" xəbər verir ki, sərəncama əsasən üç min iki yüz nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Dalğalı-Nabran-Tel avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Xaçmaz Rayon İcra Hakimiyyətinə 1,7 milyon (bir milyon yeddi yüz min) manat ayrılması nəzərdə tutulub.

Maliyyə Nazirliyinə maliyyələşməni bu sərəncamın 1-ci hissəsində müəyyən olunmuş qaydada təmin etmək tapşırılıb.

## Ukraynada qaçqın karvanı Qrad raketlərlə vuruldu



**"BBC"-nin xəbərində deyilir ki, Luqanskdan maşınlarla gələn qaçqın karvanı Qrad raketləri və minomyotlar vasitəsi ilə intensiv atəşə tutulub. Bu barədə "BBC" radiosu Ukraynanın hərbi mənbələrindən məlumat əldə edib.**

Ukrayna bu insidentə görə separatçıları ittiham etsə də, onlar Novosvitilka kəndi yaxınlığında baş verən bu hücumdan xəbərsiz olduqlarını bildirirlər.

Separatistlərin xəbər portalı bildirib ki, həmin ərazidə onlarla Ukrayna hərbçiləri arasında qarşılıqlı və ağır artilleriya atışması olub.

Ukrayna hərbçiləri üsyançıların əlində olan Luqanska doğru hərəkət etməkdədir. Əsas bazaları orada yerləşən üsyançıların ərzaq və silah ehtiyatları tükənmək üzrədir.

Ukrayna hərbçiləri deyiblər ki, uşaqlar və qadınlar da daxil olmaqla çox sayda adam öldürülüb. Digər hərbçi isə bildirib ki, maşın karvanında olanların çoxu raket atəşindən sonra diri-diri yanıb.

Üsyançıların sözçüsü isə bildirib ki, Ukrayna hərbçiləri Qrad raketlərindən və qırıcılardan istifadə edirlər. Onlar özləri bu kimi hücumlar zamanı daha çox mülki insanların ölümünə səbəb olurlar.

"BBC" bildirir ki, Ukrayna qoşunları Luqanska yaxınlaşdıqca şəhəri qoyub qaçanların sayı sürətlə artır.

Bazar günü dövlət rəsmiləri bildiriblər ki, Luqanskın polis idarəsinin üzərində Ukrayna bayrağı asılıb. May ayından bəri ilk dəfədir ki, separatçıların əlində olmuş ərazidə belə bir fakt qeydə alınır.

## Polis rəisinin oğlu maşınla adam vurdu

**Avqustun 16-sı gecə saatlarında DİN Mühafizə Baş İdarəsinin Şabran bölməsinin əməkdaşı, polis serjantı Vahab Əlibəy oğlu Eynalov içkili vəziyyətdə yol qəzası törədib.**

Axar.az-ın yerli mənbədən əldə etdiyi məlumata görə, hadisə nəticəsində bir nəfər ölüb, biri yaralanıb. Ölən şəxs rayonun Sincanboyad kənd sakinidir.

Məlumatda deyilir ki, polis əməkdaşı artıq həbs edilərək istintaqa təhvil verilib. Onun Şabran Rayon İcra Hakimiyyətində mühafizə polisi işlədiyi qeyd edilir. V.Eynalovun artıq işindən azad edildiyi də qeyd olunur...

Polis serjantının atası Əlibəy Eynalov uzun müddət polis rəisi vəzifəsində çalışıb, hazırda isə Nəqliyyatda Polis Baş İdarəsinin Xudat dəmiryol stansiyasında polis rəisidir.

Baş Prokurorluğun mətbuat xidmətindən faktı təsdiqləyərək bildirdilər ki, hazırda araşdırma aparılır.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz,
biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

*«QAYA MƏTBUAT YAYIMI» MMC!*

*İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:*

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

*Ən başlıcası gündəlik*

*«Yeni Musavat » qəzetinə–0,40 man*

*və bundan əlavə 2000 adda yerli və xarici nəşrlər.*

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

Telefonla zəng etməyiniz kifayətdir:

Bakı şəh. 564-63-45 598-35-22

Respublikanın digər büyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41


## "Hafka"ya cinayət işi açılması xəbəri yayıldı

**"İş adamı Hafiz Məmmədov barəsində cinayət işi açılıb. Məşhur biznesmen korrupsiya və dələduzluqda ittiham olunur".**

Axar.az-ın əldə etdiyi məlumatda o da bildirilir ki, uzun zamandır iş adamının fəaliyyəti araşdırılır. Bu araşdırma gizli saxlanılsa da, ciddi faktların ortaya çıxdığı və buna görə də Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin radikal addım atdığı iddia olunur.

İddiada həmçinin Hafiz Məmmədova aid olan bütün biznes obyektlərində yoxlamalar aparıldığı və işçilərin şifahi şəkildə dindirildiyi qeyd olunur: "İş adamına aid "Bakı" Futbol Klubunun futbolçuları Əfran İsmayılov və Elvin Əliyevin klub prezidentləri Hafiz Məmmədova məxsus "Bank of Azerbaijan"da depozit kimi qoyduqları 750 min ABŞ dolları əmanətin bankda yoxa çıxması da araşdırılan məsələlər arasındadır".





Onu da deyək ki, adı çəkilən futbolçulardan Əfran İsmayılov faktı təsdiq edərək, 400 min ABŞ dolları dəyərində pulunun bankda yoxa çıxmasının Hafiz Məmmədovun düşdüyü çətin durumla əlaqəli olduğunu deyib:

**"Doğrudur, belə bir şey var. Biz pulumuzu bankdan götürə bilmirik. Öz adımdan danışsam, daha yaxşı olar. Banka müraciət etmişəm. Bilirik ki, Hafiz Məmmədovun maliyyə məsələləri ilə bağlı problemləri var. Bu problem bankdan da yan keçməyib. Gözləməyi məsləhət görüblər. İstənilən halda pulumu alacağam".**

Respublika Baş Prokurorluğunun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov Axar.az-a danışaraq, qeyd edilən məsələ ilə bağlı onlarda heç bir məlumatın olmadığını bildirib.

**Məsələni gündəmdə saxlayacağıq.**



## "Əmrahbank" susur...

"Qalatasaray" isə banka etiraz məktubu göndərərək "fankart" məsələsini hüquqi yolla çözəcək

**"Qalatasaray" klubu ilə "Amrahbank" arasındakı münaqişə davam edir. Türkiyədəki "GS kredit" kartı formatını Azərbaycanda "fankart" adı altında hazırlayan "Əmrahbank" qalmaqala üzləşib.**

Bakıda Türkiyənin sarı-qırmızı rəngli klubunun tərəfdarı olanların diqqətini çəkmək üçün bazara İstanbulun "Qalatasaray" və Bakının "Neftçi" klubları ilə birgə hazırlandığını iddia etdiyi bir kredit kartını çıxarıb.

Modern.az Türkiyə KİV-nə istinadən xəbər verir ki, təqdimatda kart sahiblərinə "GS Store" mağazalarından 10-20 faiz arasında güzəştlər, "Qalatasaray"ın matçlarına uçuş imkanları ifadə edilib. Bu kart mətbuat açıqlaması ilə bazara sürüldükdən sonra "Qalatasaray" klubu xəbərdar olub və hərəkətə keçib.

"Qalatasaray" klubu belə bir məsələdən xəbəri olmadığını bildirib və "Əmrahbank"a qarşı iddia qaldıracağını deyib.

"Qalatasaray" klubu Azərbaycan bankına etiraz göndərəcək və bu məsələ hüquqi çərçivədə həll ediləcək.

**Durumla bağlı detalları öyrənmək, eyni zamanda "Əmrahbank"ın rəsmi açıqlamasını əldə etmək üçün banka zəng vurduq. Şəhər telefonuna cavab verən operator xanım bizi dəfələrlə mətbuat şöbəsi ilə əlaqələndirməyə çalışsa da alınmadı. Bunun texniki problem olduğunu bildirərək, mətbuat işlərinə məsul Elmira Vəliyevanın e-mail ünvanını verdi. Bu ünvana məktub göndərdik. Lakin gün ərzində heç bir cavab məktubu gəlmədi.**

**Fəridə ABDIYEVA**

## Naxçıvanda Qarabağ müzakirəsi...



**Avqustun 18-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizə rəsmi səfərə gələn Gürcüstanın Müdafiə naziri cənab İrakli Alasaniyanı qəbul edib.**

İ.Alasaniyanın rəhbərlik etdiyi nümayəndə heyətinin Naxçıvanda yerləşən Əlahiddə Ümumqoşun Ordusunun Qərargahı qarşısında rəsmi qarşılanma mərasimi keçirilib.

Hər iki ölkənin dövlət bayrağının dalğalandığı meydanda Gürcüstan Müdafiə nazirinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Fəxri qarovulun rəisi raport verdikdən sonra Gürcüstanın və Azərbaycanın dövlət himnləri səsləndirilib.

Nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə Müdafiə naziri general-polkovnik Zakir Həsənov qonaqları Azərbaycanın qədim diyarı Naxçıvanda salamlayaraq, Gürcüstanla aparılan danışıqların və keçirilən görüşlərin strateji əhəmiyyət daşıdığını vurğulayıb, hərbi əməkdaşlığın yüksək templə inkişaf etdiyini və bu əlaqələrin daimi olacağını qeyd edib.

Öz növbəsində qonaq Naxçıvan şəhərinə ilk dəfə səfər etdiyindən məmnun olduğunu bildirib və yüksək qonaqpərvərliyə görə təşəkkürünü ifadə edib.

Sonra tərəflər regiondakı hərbi-siyasi vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

## Türkiyə səfirliyinə hücum edən erməninin görüntüləri yayıldı



**Avqustun 18-də səhər saatlarında Ermənistan vətəndaşı Mirzoyan Türkiyənin Moskvada yerləşən səfirliyinin binasına MSI ov tüfəngi ilə iki atəş açıb.**

Hadisə nəticəsində yaralanan olmayıb.

Bir neçə saat sonra səfirliyə hücum edən şəxsin kimliyi bəlli olub.

Axar.az xəbər verir ki, hücum edən şəxs Ermənistan vətəndaşı Artur Mirzoyandır.

Araşdırmalar nəticəsində məlum olub ki, Mirzoyan "Dobrıy Les" şirkətinin baş direktoru vəzifəsində çalışır.

Onu da bildirək ki, Mirzoyanın hücumu səbəbi də məlum olub. Moskva Milli Təhlükəsizlik idarəsinin əməkdaşının "İTAR-TASS"-a verdiyi məlumata görə, hücuma səbəb bir müddət öncə Qarabağda yaşanan gərginlik olub.

## Aydın Abbasov silahlı mühafizəçilərindən danışdı





**Baş nazirin keçmiş birinci müavini Abbas Abbasovun oğlu, deputat Aydın Abbasov nənəsinin yas mərasiminə silahlı mühafizəçilərlə gəlməsi haqda mətbuatda yer alan xəbərlərə aydınlıq gətirib.**

Millət vəkili AzVision.az-a açıqlamasında bildirib ki, bu məlumatlardan xəbərsizdir və onlar həqiqətə uyğun deyil: "Mən müxalifət saytlarını oxumuram, bilmirəm onlar nə yazır. Onların yazdıqlarına da inanmıram".

Qeyd edək ki, mətbuatda yayılan məlumatlara görə, A.Abbasov nənəsinin Gəncə şəhərində keçirilən yas mərasiminə silahlı çeçen mühafizəçiləri ilə qatılıb.



## İran sərhəd qoşunlarının komandanı Bakıya gəlib

**Avqustun 16-da İran Sərhəd Qoşunlarının komandanı general-mayor Qasım Rzai Azərbaycana iki günlük səfər edib. Səfər Azərbaycan Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin dəvəti ilə baş tutub. İranlı qonaq Bakıda Azərbaycan Sərhəd Mühafizəsinin yaranmasının 95-ci ildönümünə həsr olunmuş təntənəli mərasimdə iştirak edəcək. Bazar günü Bakıda Dövlət Sərhəd Xidmətinin Aparatında general-mayor Qasım Rzainin təntənəli qarşılanma mərasimi keçirilib. Rəsmi protokola uyğun olaraq, İran İslam Respublikası Sərhəd Qonşunnlanrının Komandanı şərəf kitabına ürək sözlərini yazıb.**

Hər iki ölkənin sərhəd xidmətləri nümayənndə heyətləri arasında geniş tərkibdə keçirilmiş görüşdə Azərbaycan-İran dövlət sərhədində və sərhəd keçid məntəqələrindəki vəziyyətlə bağlı fikir mübadiləsi aparılıb, hər iki qurum arasında əməkdaşlığın mövcud durumu və perspektivləri müzakirə olunub.

Daxili işlər naziri, general-polkovnik Ramil Usubov avqustun 18-də ölkəmizdə səfərdə olan İran İslam Respublikasının Sərhəd Qoşunlarının komandanı, general-mayor Qasım Rezayinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

DİN-in mətbuat xidmətinin məlumatına görə, R.Usubov belə görüşlərin transmilli mütəşəkkil cinayətkarlıq və beynəlxalq terrorizmlə mübarizədə səylərimizin birləşdirilməsi üçün geniş imkanlar yaratdığını, qlobal xarakter almış transmilli mütəşəkkil cinayətkarlığın təhlükəli növlərinə, xüsusən narkotiklərin qanunsuz dövriyyəsinə və qaçaqmalçılığına qarşı mübarizədə əməkdaşlığın böyük potensiala malik olduğunu, yeni istiqamətlərin müəyyənləşdirilməsinin zəruriliyini qeyd edib.

Prezident İlham Əliyevin İran İslam Respublikasına müxtəlif vaxtlarda etdiyi rəsmi səfərlərin əlaqələrin keyfiyyətcə yeni səviyyəyə yüksəlməyə imkan verdiyini nəzərə çatdıran general-polkovnik əməkdaşlığın genişləndirilməsində rəhbərlik etdiyi qurumun da maraqlı olduğunu vurğulayıb.

Daha sonra qonaqlara Azərbaycandakı mövcud ictimai-siyasi və kriminogen vəziyyət haqqında qısa məlumat verilib.

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə edilib.

**KƏNAN**

### Başsağlığı

**Müsavat Partiyasının başqanı İsa Qəmbər və partiyanın Divanı Nəsimi rayon təşkilatının Şura üzvü Rasim Zeynalova anası Ağca xanımın vəfatından kərdərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

YENİ MÜSAVAT
N 207 (5916) 19 avqust 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**



**Avqustun 18-də Ziyalılar Birliyinin qərargahında partiya sədrlərinin, funksionerlərinin, ictimaiyyət nümayəndələrinin və gənc fəalların iştirakı ilə həbs olunan hüquq müdafiəçilərinin Müdafiə Komitəsinin toplantısı keçirilib. Tədbir həbsdə olan hüquq müdafiəçilərinin müdafiəsi istiqamətində görüləcək işlərin müzakirəsinə həsr olunub.**

# Həbsdəki hüquq müdafiəçilərinin Müdafiə Komitəsi elan edildi

## Cəmil Həsənli və Vidadi Mirkamal qurumun həmsədri seçildilər

Tədbiri giriş sözü ilə açan **Cəmil Həsənli** həbs olunan ictimai xadimlərin hüquqlarını müdafiə etməyi hər kəs üçün vicdan borcu adlandırdı: "Biz bu qədər təmiz, dürüst adamların saxta ittihamlarla həbs olunması cəmiyyət üçün gözlənilməz oldu. Məqsədimiz onları müdafiə etməkdən ibarətdir. Leyla xanım başda olmaqla biz siyahıda olan bütün məhbusları müdafiə edirik. Ancaq Leyla xanıma xüsusi diqqət ayırmağımızın səbəbi odur ki, həbs kişilər üçün normal qəbul olunsada qadının həbsi ictimai rəydə qəbul edilmir. Leyla xanımın müdafiəsinə həm də ona görə üstünlük veririk ki, o, sıradan bir qadın deyil. O, mübariz bir qadındır, 30 ildən çoxdur ki, insan haqları uğrunda, siyasi məhbus problemi ilə bağlı mübarizə aparır. Bu cəmiyyətin Leyla xanımın qarşısında bir vicdan borcu var və biz bütün siyasi mənsubiyyətlərimizi bir kənara qoyub bu cəmiyyətin bir üzvü kimi vicdan borcumuzu yerinə yetirməliyik. Azərbaycan xalqı ilə də işləməliyik. Həmçinin mətbuatla və beynəlxalq hüquq müdafiə təşkilatları ilə də iş aparmalıyıq" .

**Jurnalist Şahvələd Çobanoğlu** burada səslənən təklifləri həyata keçirməyə hazır olduğunu bildirdi: "Kim arzu etsə işçi qrupuna daxil ola bilər. Siyahı hamı tərəfindən qəbul olunub. Sonradan bu siyahını hazırlayanların özü də o siyahıya salındı. Hazırda vahid siyahı ilə bağlı yekun rəy var".

**Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Mirəlioğlu** qeyd etdi ki, Azərbaycan hökumətinin gördüyü iş ötən əsrin 30-cu illərində aparılan repressiya siyasətinin eynidir: "Azərbaycan hökuməti hüquq və haqq anlamır. Bu hökumət maarifləndirmə nədir bilmir. Bəs belə bir hakimiyyətlə mübarizə aparan bizlər necəyik? Biz özümüz bir-birimizin hüquqlarını qəbul edirikmi, haqqını qoruyuruqmu? Bu münasibətlər dəyişməyənə qədər biz bu hakimiyyəti dəyişə bilməyəcəyik. Biz hamımız Azərbaycan adlı bir həbsxanadayıq. Bir-bizimizə olan ayrı-seçkiliyi və inamsızlığı aradan qaldırmalıyıq və bu istiqamətdə birgə iş görməliyik" .

**Müsavat Partiyasının Mərkəzi İcra Aparatının rəhbəri Arif Hacılı** çıxışında qeyd etdi ki, bu həbslərin səbəbi Azərbaycan hakimiyyətinin avtoritar xarakteri və normal cəmiyyət qurmaq istəməməsidir: "Hökumət Azərbaycanda hər hansı bir demokratik institutun olmamasını və burda da Türkmənistan tipli avtoritar bir cəmiyyətin qurulması xəttini götürüb. Hesab edirəm ki, Azərbaycan hökuməti demokratik siyasətin imitasiyası siyasətindən əl çəkib və aşkar şəkildə avtoritar bir rejim yaratmaq istiqamətində addımlar atır. Siyasi məhbusların sayına görə, Azərbaycanın dünyada lider dövlətə çevrilməsi də hökumətin apardığı bu siyasətin nəticəsidir. Biz buna qarşı hamılıqla müqavimət göstərməliyik, birgə mübarizə aparmalıyıq. Müsavat Partiyası adından deyə bilərəm ki, biz bu komitənin işində iştirak edirik, partiyanın başqanı İsa Qəmbər, mən və Gülağa Aslanlı bu komitənin üzvüyük. Komitə tərəfindən hansı təkliflər irəli sürüləcəksə, biz o prosesdə iştirak etməyə hazırıq. Biz Cəmil Həsənlinin bu komitəyə sədr seçilməsini və siyasi məhbusların siyahısını da dəstəkləyirik".





**Xalq Partiyasının qurucusu Pənah Hüseyn** sədrlik məsələsində Cəmil Həsənlini dəstəklədiyini bildirdi: "Leyla xanımın ailə üzvləri də müraciət edib, burada da ümumi bir razılıq var ki, müdafiə komitəsinə Cəmil Həsənli sədr seçilsin. Mən də bu məsələdə Cəmil bəyi dəstəkləyirəm. Biz bu məsələdə təkcə siyasi məhbuslara bəraət qazandırmaqla kifayətlənməməliyik, həm də hücum mövqeyində olmalıyıq.

Bu istiqamətdə təbliğat işinin aparılmasına böyük ehtiyac var. Bu sahədə artıq irəliləyişlər də əldə olunub. Vahid siyasi məhbus siyahısı haqda razılaşma əldə olunub. Xalq Partiyası adından deyə bilərəm ki, biz də aparılan işlərə dəstək verməyə hazırıq" .

**Hüquqşünas Vidadi Mirkamal** görülən işləri yüksək qiymətləndirdi və öz dəstəyini də əsirgəməyəcəyini bildirdi: "Bu günə qədər aparılan işlər öz nəticəsini verdi, vahid siyasi məhbus siyahısı qəbul olundu. Buna görə işçi qrupuna çox təşəkkür edirəm və bir hüquqşünas kimi rəsmi qaydada bəyan edirəm ki, mən də bu siyahının altında öz imzamı atıram. Burada bir müdafiə komitəsi olmalıdır, bütün çəkicləri bir zindana vurmalıyıq" .

**Publisist Mehriban Vəzir** hər kəsi birliyə və üzərlərinə düşən məsuliyyəti yerinə yetirməyə çağırdı: "Bu otaqda böyük məsuliyyət daşıyan insanlar oturub, küçədəki vətəndaşımız elə də böyük məsuliyyət daşımır. O bir tikə çörəyini qazanır. Biz isə böyük məsuliyyət götürmüşük üzərimizə. Böyük məsuliyyətdən qaçmağın günahları da böyükdür. Bunu cəmiyyət də bağışlamır, vicdanımız da bağışlamır. Ona görə də, bizi bir araya gətirən hədəflərə o məsuliyyət daşıyan adamlar daha çox istiqamətlənməlidirlər. Bütün narazılıqları, şəxsi münasibətləri bir kənara qoyub, birləşməliyik. Bir olmasaq bizi tək-tək məhv edəcəklər".

**AXCP sədri Əli Kərimli** çıxışında hökumətin ardıcıl şəkildə hüquq müdafiəçilərini həbs etməsinin səbəbini izah etdi: "Çox sevindirici haldır ki, vahid siyasi məhbus siyahısı ətrafında razılığa gəlinib. Ancaq bu iş hələ bitməyib. Müdafiə işləri ilə bağlı yeni ideyalar olduqca bunu fərdi şəkildə də həyata keçirməyə cəhd etməliyik. Belə səsli -küylü həbslərin ardıcıl şəkildə aparılmasında hakimiyyətin ciddi siyasi niyyətləri var: Azərbaycanda öz avtoritar hakimiyyətini alternativsiz qoysun, ölkədə vətəndaş cəmiyyəti fəallarını və həqiqi hüquq müdafiəçilərini tam sıradan çıxarıb, məhz hökumətyönümlü QHT-lər üçün meydanı boşaldıb onları irəli çəksin, Azərbaycanda siyasi proseslərə nəzarəti təmin etsin. Məqsəd elə bir vəziyyət yaratmaqdır ki, nə Azərbaycan cəmiyyəti, nə də beynəlxalq ictimaiyyət 2015-ci ilin parlament seçkilərinə ciddi hazırlaşa bilsin. Bu proses davam edəcək" .

**Müzakirələrin sonunda həbs olunan hüquq müdafiəçiləri Leyla Yunus, Arif Yunus, Rəsul Cəfərov və İntiqam Əliyevin Müdafiə Komitəsi yaradıldı, yekdil səsvermə ilə Cəmil Həsənli komitənin sədri seçildi. Cəmil Həsənli isə ona yardım edə biləcək bir şəxs kimi hüquqşünas Vidadi Mirkamalın namizədliyini irəli sürdü. Son qərar olaraq adı çəkilən ziyalılar müdafiə komitəsinin həmsədri seçildilər.**

❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar müəllifindir**




# Atası həbsdəki oğulları ilə görüşüb

## Raqif Kərimov övladlarının həbs olunan zaman zorakılığa məruz qaldığını iddia edir; Kərimli qardaşları vicdan məhbusu elan edilib

**Hazırda həbsdə olan Fərəc və Sirac Kərimlilərin atası Raqif Kərimov avqustun 18-də nəhayət ki, övladları ilə görüşüb. Görüşdən sonra musavat.com-a açıqlamasında Raqif Kərimov həbs edilərkən övladlarının mənəvi və fiziki işgəncələrə məruz qaldıqlarını söyləyib: "Fərəc və Sirac həbs edildikləri anı mənə danışdılar. Onların danışıqlarından anladım ki, hələ də ailəmə qarşı təhdid və təhlükələr davam edir. O, həbs edilərkən Baş Narkotiklərlə Mübarizə İdarəsinə aparılıb. Ondan internetdə nə yazmağını soruşublar. Sirac bildirib ki, internetlə məşğul olmur. Təkidlə şifrə istəyiblər. Ardınca oğluma qarşı işgəncə metodlarından istifadə ediblər. Onu qandalla döyüblər. Sonra Ağdamdan olan, adını xatırlamadığı bir əməkdaş başına yumruqla vurub. Sirac özündən gedib. Bu zaman onun halının pis olduğunu görüb həkim çağırıblar. Sirac özü mənə dedi ki, idarənin şöbə müdiri R. Novruzov ondan ifadə almağa çalışıb. Lakin mümkün olmadığını görüb, otaqdan çıxanda əməkdaşlara izahat alınmasını tələb edib. Bundan sonra dillə deyilməyəcək dərəcədə oğluma işgəncələr verilib. Hələ də bədənində verilən işgəncələrin yeri qalır. Qırmızı Xaç Komitəsinin nümayəndələri də işgəncələri qeydə alıblar".**

Raqif Kərimov digər həbs edilən oğlu Fərəcin psixoloji təzyiqlərə məruz qaldığını söyləyib: "Fərəc həbs edilən zaman Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə aparılıb. Ona daha çox psixoloji təzyiqlər ediblər. Eyni qaydada ondan da şifrə soruşublar. O, imtina etdikdə, açıq şəkildə deyiblər ki, əmin uşaqlarını düşünmürsən. Hətta bildiriblər ki, ifadə verməsən, evinizə 15 kiloqram heroin atıb, atanı tutacağıq".

**Həbs edilən qardaşların atası artıq hər şey gözlədiklərini söyləyib:** "Övladlarımın başına gətirilən bu cür müsibətləri görəndən sonra, artıq hər şey gözləyirəm. Deməli, ailəm, qohumlarım hələ də təhlükədədir. Açığı, bunlar üçün çox qorxuram. Hansı dövlət orqanına bununla bağlı şikayət ünvanlayıramsa, mənə deyirlər ki, övladların bu işlə məşğul olub. Məhkəmə olmamış kimisə ittiham etməyin özü ən böyük səhvdir. Prokurorluğa müraciət etmişəm, hələ də cavab verilməyib".

**Raqif Kərimov övladlarının təcridxanada havasızlıqdan əziyyət çəkdiklərini söyləyib:** "Təcridxanadakı münasibətdən elə də narazılıqları yoxdur. Amma saxlandıqları otaqda havasızlıqdan əziyyət çəkirlər. Siracın ürəyində problem yaranıb. Görünür, verilən işgəncələrin təsirindəndir".

**Qeyd edək ki, Fərəc Kərimli iyulun 23-də həbs edilib. Onun həbsindən bir həftə əvvəl qardaşı Sirac Kərimli həbs edilib. Hər iki qardaşa qarşı Cinayət Məcəlləsinin 234.4.3 maddələri ilə (kütləvi şəkildə narkotik maddələr əldə etmə, saxlama və satma) cinayət işi açılıb. Onları bu maddə üzrə 7 ildən 12 ilə qədər azadlıqdan məhrumetmə cəzası gözləyir. Fərəc Kərimli Müsavat Gənclər Təşkilatı MTK-nın sədridir. Sosial şəbəkələrdə aktiv fəaliyyəti ilə tanınıb. Yerli və beynəlxalq təşkilatlar qardaşların qanunsuz olaraq, həbs edildiyi barədə dəfələrlə bəyanatlar veriblər. "Amnesty İnternational" beynəlxalq hüquq-müdafiə təşkilatı Fərəc və Sirac Kərimovları "vicdan məhbusu" elan edib.**

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 207 (5916) 19 avqust 2014



# Total nəzarət tutqusu

Xalid KAZIMLI

**2007-ci ildə ölkəmizdə həbs edilən jurnalistlərin sayı 10-a çatmışdı. Dünya üzrə tərtib olunan uyğun cədvəlin ən ön sıralarında Çin, İran, Türkiyə, Rusiya ilə yanaşı ölkəmizin də adı vardı.**

Qüdrətli dövlətlərin, beynəlxalq təşkilatların hazırladığı hesabatlarda da Azərbaycanın adı başdan keçirdi və ölkə rəhbərliyi buna görə eyzən tənqidə məruz qalırdı.

Sonradan məhbus jurnalistləri iki bir - üç bir buraxdılar.

Amma bu həbslərin ölkə mediasında izi qaldı - 32 sağlam dişinin öndən ikisi-üçü çəkilmiş adam kimi. Bu gün də milli mediamız güləndə və ağlayanda dişinin mırıqları görünür.

O qədər jurnalistin bir neçə ayın içində tutulmasının əsas məqsədi də, belə çıxır ki, elə bu idi: jurnalistika dişsiz olsun, özünüsenzura rejiminə girsin, redaksiya daxilində toxunulmaz adların siyahısını hazırlasın, dərinliklərə varmasın, qəliz araşdırmalara baş qoşmasın, ordan-burdan yazsın, başını girləsin.

Hakimiyyət həyata keçirmək istədiyi bu planın böyük hissəsini reallaşdıra bildi. Hazırda jurnalistikamız, etiraf edək ki, bəlli bir çərçivədə fəaliyyət göstərə bilir.

Müxalif qüvvələrin, tənqidçi jurnalistlərin ram olunmasından sonra növbə müstəqil qeyri-hökumət təşkilatlarına da çatıb.

Bu kampaniya da ötən ilin bu vaxtlarından start götürüb.

O zamana qədər hamı hesab edirdi ki, aktiv müxalifətçiləri, ipə-sapa yatmayan jurnalistləri tutsalar da, hər halda hüquq müdafiəçilərini tutmazlar. Adları üstlərindədir - hüquq müdafiəçiləridir.

Ancaq həm hüquq müdafiəçisi, həm də tanınmış jurnalist olan Pərviz Həşimli həbs ediləndə, məhkəməsində işgəncələrə, fiziki və psixoloji təzyiqlərə məruz qaldığını ictimailəşdirəndə bu illüziya dağıldı. O da bəlli oldu ki, bu, adi həbslərdən deyil, davamı olacaq.

Ötən ilki seçkidən dərhal sonra seçkilərin monitorinqi ilə məşğul olan QHT-nin rəhbəri Anar Məmmədli və onun yardımçısı Başir Süleymanlı həbs olundu. Beləcə, "toxunulmaz sektor"un immuniteti aradan qalxdı.

Bu gün həbsdə artıq xeyli hüquq müdafiəçisi, QHT təmsilçisi var.

Yayılan informasiyaya görə, vətəndaş cəmiyyətinin təxminən 300 nəfər təmsilçisi bu və ya digər şəkildə nəzarət altındadır, istintaqa cəlb edilmək üzrədirlər. Bu kampaniya yuxarıdan gələn əmrlə durdurulmasa həbslər davam edəcək.

Məqsəd yenə aydındır: üçüncü sektoru ram etmək, müstəqil QHT-lərin mövcudluğuna son qoymaq, ən azı dişlərini çəkib mırıq qoymaq.

Bunun məhz belə olduğunu bilmək üçün dağa-daşa düşməyə ehtiyac yoxdur. Hədəfdə xaricdən maliyyələşən QHT-lərdir. QHT-lərə Dövlət Yardımı Şurasının xətti ilə maliyyələşən təşkilatlara güldən ağır söz deyən yoxdur. Nə işdirsə, Azərbaycan dövlətindən qrant alan QHT-lərin bütün işləri qaydasındadır, hamısı aydan arı, sudan durudur, amma xarici donorların maliyyələşdirdiyi QHT-lərin işində əyintilər, pozuntular var.

Bu, ona görə belədir ki, QHT Şurasının xətti ilə qrant alanlar artıq islah olunub, nəzarətə götürülüblər, heç bir problem yarada bilməzlər, amma xaricdən maliyyələşənlər müstəqillik davranışlar sərgiləyir, müxtəlif hesabatlar hazırlayır, siyasi məhbusların siyahısını tərtib edir, nüfuzlu beynəlxalq təşkilatlarla təmas qururlar və s.

Bu isə hakimiyyəti narahat edir. Qəbristanlıq sükutunun yaradılmaq üzrə olduğu bir ölkədə adda-budda gələn etirazçı səslər boğulmalıdır - plan, məqsəd budur.

Hakimiyyət hesab edir ki, repressiya dalğasına məruz qalan və boğulan QHT-lərdən sonra ölkədə "ictimai-siyasi sabitliyin" bərqərar olması daha sürəkli xarakter daşıyacaq. Ondan sonra at arğacı, vur qılıncı, dünya da sənindir, dövran da.

Bu niyyətin gerçəkləşməsinə mane olan yeganə faktor Azərbaycanın siyasi baxımdan Avropa ailəsinin üzvü olması və Avropa ölkələrinin, beynəlxalq təşkilatlarının bu cür həbsləri, repressiyanı təqdir etməməsidir. Yoxsa Azərbaycanın Özbəkistan və Türkmənistana çevrilməsinə çox qalmayıb.

**Yeri gəlmişkən, müxalifət qüvvələrinin son 20 ildə uğur adına qeyd edə bildikləri təkcə bu idi: "Öz mövcudluğumuzla ölkənin Özbəkistana dönməsinin qarşısını almışıq". Artıq bu nailiyyət də əldən çıxmaq üzrədir.**



# Anar Məmmədovun "Yeni Müsavat"la 4 min manat davası

## Hakim nümayəndə olmadan qərar çıxardı; qəzetimiz kassasiya şikayəti verəcək

**Avqustun 18-də Bakı Apellyasiya Məhkəməsində Nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovla "Yeni Müsavat" arasındakı məhkəmə çəkişməsi davam etdirilib. Bu dəfə "Yeni Müsavat" qəzetinin Nizami rayon Məhkəməsinin 20 iyun tarixli qərardadından şikayətinə baxılıb. Hakim Azad İmanovun sədrliyi ilə keçən prosesdə "Yeni Müsavat"ın nümayəndəsinin iştirakı olmadan şikayət müzakirə edilib və təmin edilməyib.**

Qeyd edək ki, əvvəlcədən "Yeni Müsavat"ın nümayəndəsi Vaqif Hüseyn üzrlü səbəbdən məhkəməyə gecikəcəyi ilə bağlı hakimə ərizə ilə müraciət edib. O, hakimdən xahiş edib ki, proses 1 günlüyə yaxud 1 saatlığa olsa belə, təxirə salınsın. Lakin vəkilin prosesə 10 dəqiqə gecikməsi, hakimin qanunsuz qərarına mane olmayıb. 11-12 dəqiqə çəkən məhkəmə əvvəlki qərarı qüvvədə saxlayıb.

**"Yeni Müsavat"ın prosesi müşahidə edən müxbiri olaraq, iştirak etdiyimiz məhkəmədə əvvəlcədən sifarişli qərar olacağını gözləyirdik. Hakim Azad İmanov tələsik qərar çıxarmaq üçün əlindən gələni etdi.** Nümayəndəmizin yolda olduğunu və prosesə yetişəcəyini hakimin nəzərinə çatdırsaq da, o, məhkəməni dərhal başladı. Şikayəti belə oxumadı. Tələbkarın nümayəndəsinin çıxışı da çox qısa çəkdi. Cəmi 10 dəqiqə davam edən prosesdən sonra hakim qərar vermək üçün müşavirə otağına yollandığını elan etdi. 1 dəqiqə keçməmiş müşavirə otağından qayıdan Azad İmanov "Yeni Müsavat"ın şikayətinin təmin edilmədiyini bildirdi.

**Qəzetin hüquqşünası Vaqif Hüseyn** məhkəmə qərarının qanunsuz və əsassız olduğunu bildirib: "Mən 3 gün əvvəl məhkəməyə yazılı şəkildə müraciət edərək xahiş etmişdim ki, şəxsi vacib işimlə bağlı iclası təxirə salsın. Habelə iclasa sədrlik edəcək hakim Azad İmanovla şəxsən telefonla əlaqə saxlayıb xahiş etdim ki, iclas heç olmasa bir saatlığa təxirə salınsın ki, mən yetişə bilim. Hakim demişdi ki, problem yoxdur. İclas saat 12- 30 -a təyin edilmişdi. Mən 12. 45- də iclas zalının qabağında olmuşam. İclas zalı bağlı idi. Məlum oldu ki, artıq iclas qurtarıb, müşavirə olub və qərardad da elan edilib. Hətta əks tərəfin nümayəndəsi Nihad Axundov hələ də iclas zalının qarşısında idi.



Vaqif Hüseyn

Məhkəmənin şikayətçi tərəfin rəsmi müraciətinə baxmadan belə tələm-tələsik qərar verməsi bir çox mətləblərdən xəbər verir. Biz bundan sonra Ali Məhkəməyə kassasiya şikayəti ilə müraciət edəcəyik və hüquqlarımızın müdafiəsi uğrunda mübarizəmizi davam etdirəcəyik.

İşin mahiyyətinə gəldikdə isə bugünkü məhkəmə iclası üçün hazırladığım çıxış mətnini əlavə edirəm ki, Azərbaycanda məhkəmələrin qanunla yox, necə qanunun ziddinə işlədiklərinə şahid olsunlar. Məhkəmələrin bəzi milyarderlərin əlində oyuncaq olduğunu görmək Azərbaycan vətəndaşı kimi ürəyimizi ağrıdır. Bircə məqamı əvvəlcədən deyim ki, bizimlə çəkişməyə aparan Anar Məmmədov istəmişdi, məhkəmə bizim mənafeyimizə uyğun qərar çıxarmışdı. Sonra Anar Məmmədov 5 ay sonra fikrini dəyişdi və yenə eyni hakim İmran Burcayev onun müraciətindən bir gün belə keçməmiş heç bir yeni hal olmadan, hətta tərəfləri məlumatlandırmadan özü - öz qərarını ləğv etdi. Hazırladığım çıxış mətnini də ona görə dərc edirik ki, məhkəmədə iştirakımızın işin ədalətli həlli üçün necə önəmli olduğunu və məhkəmələrin milyarderlərin əlində oyuncaq olduğunu hamı görsün. Hər kəs əmin olsun."

**Hüquqşünas Vaqif Hüseyn: "Məhkəmələrin milyarderlərin əlində oyuncaq olduğunu görmək Azərbaycan vətəndaşı kimi ürəyimizi ağrıdır"**

❑ Cavanşir ABBASLI

***P.S.** Hüquqşünasımız Vaqif Hüseynin hazırladığı məhkəmə çıxışının mətni musavat.com saytında ayrıca dərc olunacaq.*

# Hakimiyyət müxalifətə adamlar yerləşdirmək istəyir?

## Sərdar Cəlaloğlu: "Bu dəqiqə müxalifət öz canı ilə əlləşir; həbs olunan insanlara zərbəni elə o cür iddiaları irəli sürənlər vurur"

**Vahid siyasi məhbus siyahısının hazırlanması üçün formalaşdırılan İşçi Qrupun təqdim etdiyi 98 nəfərdən ibarət siyahıya imza atılması və Müdafiə Komitəsində təmsil olunmaq məsələsində ikili fikir yaranıb. Bəzi siyasi partiyaların təmsilçiləri iddia edirlər ki, hakimiyyət bir sıra şəxslərin Müdafiə Komitəsinə daxil olmasında və siyahıya imza atmasında maraqlı ola bilər. Məqsəd də həmin şəxslərə müxalifət libası geyindirməkdir ki, gələcək proseslərdə onlardan istifadə etsin. Bu iddiaların müəllifləri hakimiyyətin bu planının baş tutmaması üçün siyahını imzalamağı və Müdafiə Komitəsinə üzvlüyü heç də hamı üçün açıq saxlamamağı vacib sayırlar.**

**ADP sədri Sərdar Cəlaloğlu** isə "Yeni Müsavat"a açıqlamasında bu cür iddiaların əsassız və həbs olunanlar üçün zərərli olduğunu bildirdi. Onun sözlərinə görə, kimsə müxalifətə keçmək istəyirsə belə, müxalifət bunu alqışlamalıdır: "O iddiaları irəli sürənlərə deyilə bilər ki, bəs sən niyə vaxtilə hökumətdə olanlarla işbirliyində idin? Məsələn, onu Əli Kərimli deyirsə, ona da deyilə bilər ki, bəs sən nə əcəb Fərhad Əliyevi müdafiə edirdin? Nə əcəb Əli İnsanovun təşkilatınıza gəlməsi üçün yalvarırsınız? Əgər kimsə, müxalifətə keçmək istəyirsə, müxalifətin ortaya qoyduğu mövqeni dəstəkləyirsə, onu kənara itələmək yox, alqışlamaq lazımdır. Müxalifətdən isə iqtidara keçmək istəyənlərdən narahat olmamalıyıq. Əslində hakimiyyət müxalifətin sıralarını sıxlaşdırmaq yox, müxalifətdən qopmalar təşkil etməklə sıraları seyrəltmək marağında olur. Bunun özü yuxarıda qeyd olunan iddianın absurd olduğunu ortaya qoyur. Bu qədər qeyri-ciddi iddia olmaz. Kimisə süni şəkildə müxalifət etmək mümkün deyil. Vaxtı ilə Azərbaycanın Avropa Şurasına üzv qəbul olunması üçün Müsavat, AXCP, AMİP və ADP rəhbərləri Azərbaycan hakimiyyəti ilə birgə sənədə imza atdıq. Biz hakimiyyətə keçdik, yoxsa YAP rəhbərliyi müxalifətçi oldu? İkincisi, hazırda Azərbaycanda siyasi durum, müxalifətin vəziyyəti elədir ki, hakimiyyətin müxalifətin içinə adam daxil edib süni müxalifət yaratmaq ehtiyacı yoxdur. Belə şeylər hakimiyyətin nəyinə lazımdır?! Guya müxalifət bu gün hakimiyyət üçün təhlükə yaradan vəziyyətdədir ki, hakimiyyət o cür planları həyata keçirmək məcburiyyətində qalsın? Bu dəqiqə müxalifət öz canı ilə əlləşir. Kimdir belə müxalifətçilikdən ötrü ölən!"



Sərdar Cəlaloğlu

**S.Cəlaloğlu düşünür ki, bəzi qüvvələr həbs olunanların müdafiəsini zəiflətmək üçün bu cür iddialar irəli sürürlər:** "Belə iddialar ona görə irəli sürülür ki, bir sıra insanlar müdafiəyə qoşulmasınlar, müdafiə sənədinə imza atmaqdan çəkinsinlər. Deməli, həbs olunan insanlara zərbəni elə bu cür iddiaları irəli sürənlər vurur".

**AXP sədri Pənah Hüseyn** isə musavat.com-a müsahibəsində sözügedən iddiaları dedi-qodu adlandırıb və deyib ki, bu dedi-qodu müvəqqətidir ən yaxın zamanda keçəcək: "Mən ziddiyyətləri dərinləşdirməmək üçün keskin ifadələr işlətməkdən çəkinirəm. Hesab edək ki, bu siyasi təcrübəsizlikdən irəli gələn məsələdir. İndi tutaq ki, Qüdrət Həsənquliyev və ya Fəzail Ağamalı gəlib vahid məhbus siyahısına imza atsalar, biz deməliyik ki, atmayın, siz müxalifət barədə rəyi qarışdırmaq istəyirsiniz? Belə cahillik olmaz axı!"

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 207 (5916) 19 avqust 2014

# "Binə"nin sahibi barədə şok xəbər

**"Binə" Ticarət Mərkəzinin rəhbəri Kəbirə Məmmədova ilə bağlı sensasion məlumat əldə etmişik. Bu məlumat sırf təsadüf nəticəsində Türkiyədən olan iş adamları tərəfindən verilib. Sən demə, K.Məmmədovanın biznes imperiyasında erməni iş ortağı var imiş. Türk iş adamları əməkdaşımıza deyiblər ki, onlar uzun illər "Sədərək" və "Binə" ticarət mərkəzlərində fəaliyyət göstərən sahibkarlarla biznes tərəfdaşlığı edilər.**



## Kəbirə Məmmədovanın erməni şərikinin olması haqda müdhiş məlumat

### Türk iş adamları ticarət mərkəzinin rəhbərinin Dato adlı ortağının Moskvada oturduğunu deyirlər; qardaş ölkədən olan biznesmenlərin əməkdaşımızla təsadüfi söhbətləri sensasion məqamları ortaya çıxarıb; "Yeni Müsavat" Datonun kimliyini araşdırır




Bu əməkdaşlıq nəticəsində ortada qarşılıqlı inam yaranıb və türk iş adamları azərbaycanlı tərəfdaşlarına külli məbləğdə dəyəri olan nisyə mal veriblər. "Sədərək" və "Binə"də baş verən yanğınlardan sonra azərbaycanlı iş adamları Türkiyədən olan biznesmenlərdən götürdükləri nisyə malın pulunu ödəməkdən imtina ediblər. Onlar türk adamlarına bildiriblər ki, bu yanğınlarda bütün malları yanıb külə dönüb və buna görə də müflis olublar. Azərbaycanlı iş adamlarının bu hərəkətlərindən şikayətlənən türk biznesmenlər deyiblər ki, onların mal verdikləri adamlardan cəmi bir neçəsi götürdüyü malın pulunu ödəyib. Onlardan biri də K.Məmmədovanın erməni şərikidir. Türk iş adamları bu barədə bunları deyiblər: **"Azərbaycanda fəaliyyət göstərən onlarla biznesmenə mal vermişdik. "Binə" və "Sədərək"dəki yanğınlardan sonra pulumuzu vermədilər. Dedilər ki, bütün mallarımız yanıb, məhv olmuşuq. Cəmi bir-iki adamdan pulumuzu aldıq. Onlardan biri də "Binə" Ticarət Mərkəzinin sahibi Kəbirə Məmmədovanın erməni şəriki Datodur. Datodan pulumuzu ala bildik".**

Türk iş adamlarının sözlərinə görə, Dato K.Məmmədovanın biznes imperiyasının şərikidir və özü də Moskvada fəaliyyət göstərir. Türkiyədən olan biznesmenlər Datonun Bakı ermənisi olub-olmadığını və bura gəlib-getdiyi barədə hər hansı məlumata malik deyillər. Biz də araşdırmalarımız zamanı bu şəxslə bağlı hər hansı məlumat əldə edə bilmədik. Amma araşdırmalarımız davam edir və K.Məmmədovanın erməni şəriki haqda araşdırmalarımız davam edir.

Qeyd edək ki, son illərdə adıçəkilən ticarət mərkəzlərində bir neçə dəfə güclü yanğın baş verib və xeyli sahibkara böyük ziyan dəyib.

Bu yanğınların qısaqapanmadan baş verdiyi bildirilsə də, ortada qəsd ehtimalının olması barədə də məlumatlar var. Bu yanğınlardan sonra xeyli sayda sahibkar müflis oldu, əmlakını, var-dövlətini itirdi.

**Hazırda Azərbaycanda ermənilərlə əlaqədə suçlanan bir neçə tanınmış ictimai-siyasi xadim həbsdədir.** Bu ilin aprel ayında Türkiyədə saxlanılaraq Azərbaycana deportasiya edilən "Zerkalo" qəzetinin əməkdaşı Rauf Mirqədirov, Sülh və Demokratiya İnstitutunun direktoru Leyla Yunus, onun həyat yoldaşı Arif Yunus məhz ermənilərlə iş birliyində suçlanırlar. Onlar dövlətə xəyanət maddəsilə istintaq olunurlar. Xatırladaq ki, R.Mirqədirov aprel ayından, L.Yunus iyulun 30-dan, Arif Yunus isə avqustun 8-dən həbsdədirlər.

Digər QHT rəhbərləri də "xarici qüvvələrin dəyirmanına su tökməkdə" suçlu bilinərək neçə aydır ki, basqı altındadırlar. Məhz bu arqumentlə xeyli sayda Qeyri-Hökumət Təşkilatının hesabı bağlanıb, bir neçə QHT rəhbəri istintaq altındadır. Belə bir məqamda bu informasiyanın ortaya çıxması düşündürür ki, hüquq-mühafizə orqanlarının diqqətini cəlb edəcək və müvafiq araşdırmalara başlayacaqlar.

**Məsələ ilə bağlı K.Məmmədovanı dinləməyə və mövqeyini dərc etməyə hazırıq.**

**Teymur HƏSƏNLİ**

# Siyasi məhbuslardan xəbər var

### NİDA-çılar apelyasiya məhkəməsini gözləyir, İlqar Məmmədovun işinə sentyabrın 3-də baxılacaq; Yadigar Sadıqovun isə olduğu həbsxanada dözülməz hava şəraiti hökm sürür

**"Avqustun 16-da Üzeyir Məmmədli, Şahin Novruzov, Rəşad Həsənovla Bakı İstintaq Təcridxanasında görüşmüşəm. Onların saxlanma şəraiti ilə maraqlanmışam. Hər hansı şikayətləri yoxdur".**

Bu sözləri "Yeni Müsavat"a həbsdə olan adıçəkilən **NİDA üzvlərinin vəkili Əshabəli Mustafayev** məlumat verdi.

Vəkilin sözlərinə görə, apelyasiya məhkəməsinin ilkin baxışından Ali Məhkəməyə şikayət verilib. Ə.Mustafayev apelyasiya şikayətinə nə zaman baxılacağını bilinməldiyini dedi. Vəkil Ş.Novruzovun əfv ərizəsi yazmasından sonra azadlığa çıxmaq perspektivi zaman göstərəcəyini açıqladı.

**Həbs edilən İlkin Rüstəmzadə ilə Ş.Novruzlunun vəkili olan Nemət Kərimli isə bildirdi ki, ötən həftə Rüstəmzadə ilə görüşüb:** "Bu həftə hər ikisi ilə görüşəcəm. Hazırda saxlanma şəraitindən narazılıq etmirlər, valideynləri ilə görüşürlər. Yeganə narazılıq hökmdəndir. Apelyasiya məhkəməsindən isə ədalət gözləmirəm".



İlqar Məmmədov



Yadigar Sadıqov

**REAL sədri İlqar Məmmədovun vəkili Fuad Ağayev bildirdi ki, onunla keçən həftə görüşüb, saxlanma şəraitində hər hansı dəyişiklik müşahidə olunmayıb.** Vəkil sentyabrın 3-də Şəki apelyasiya məhkəməsində növbəti prosesi keçiriləcəyini söylədi. Onun sözlərinə görə, məhkəmənin nə qərar verəcəyini indidən proqnozlaşdırmaq olmur.

**F.Ağayev REAL sədrinə oxumağa tənqidçi qəzetlərin verilmədiyini də dedi. Müsavat başqanının müşaviri Yadigar Sadıqovdan da xəbər var.** Müsavatçının Hüquqlarını Müdafiə Komitəsinin rəhbəri Elman Fəttahın sözlərinə görə, ailəsi onunla görüşmək üçün üç günlük icazə alıb.

**Hazırda Qızıldaş qəsəbəsində yerləşən 134 saylı cəzaçəkmə müəssisəsində saxlanan Y.Sadıqov üçün şərait olduqca ağırdır.** Komitə rəhbəri qeyd etdi ki, ərazidə daş karxanaları istehsal olunan yer var və isti, bürkü, toz-duman əlindən həyatə çıxmaq belə olmur.

**E.Fəttah qəzetlərin abunəsi ilə bağlı problemin də həllini tapdığını qeyd etdi:** "Avqustun 3-dən, yeni 14 saylı CÇM-nə köçürüldükdən sonra müsavatçıya oxumağa qəzet verilməyib. Artıq məsələ həll olunub. Yadigar bəyin öz əhval-ruhiyyəsi mübarizdir. Ölkədə gedən repressiyaları izləyir, təəssüflənir. Xüsusilə, İntiqam Əliyevin həbsi onu məyus edib".

**E.SALAMOĞLU**

# Müxalifətin növbəti savaşı



**Azər RƏŞİDOĞLU**

**Müxalifət bu dəfə də siyasi məhbus siyahısında ortaq məxrəcə gələ bilmədi. Xatırladaq ki, bir qədər əvvəl indi həbsdə olan hüquq müdafiəçiləri Leyla Yunus və İnsan Hüquqları Klubunun rəhbəri Rəsul Cəfərov, habelə, bir sıra ekspertlər, hüquqçular, vəkillər, hüquq müdafiəçiləri və ictimai şəxslərin daxil olduğu işçi qrupunun iştirakı ilə "Azərbaycanda siyasi məhbusların vahid siyahısı" adlanan hesabat hazırlayıblar.**

Siyahıda 98 siyasi və vicdan məhbusunun adı və onların işləri üzrə məlumatlar əks olunub. Hazırda hər iki hüquq müdafiəçisi həbsdədir. Lakin onların hazırlayıb, yaydıqları siyasi məhbus siyahısı müxalif düşərgəni, QHT sektorunu dalğalandırmaqdadır.

Əlbəttə ki, siyahıya kiminsə adının salınması, kiminsə adının orada olmasının məqbul olmadığını dilə gətirmək tamamilə normaldır. Lakin bütün bu kimi hallar diskussiyalarla öz həllini tapmalıdır.

Kənar baxışla görünən budur ki, müxalifətin aparıcı təşkilatları daxili çəkişmələrə başlamaq üçün bəhanə axtarırlar. Siyasi məhbus siyahısı isə növbəti savaş üçün bir bəhanə oldu. Bu istiqamətdə aparılan diskussiyalar bütün əndazəni aşdı. Görünən bu idi ki, tərəflər kompromisə nail olmaq fikrində deyillər. Onlara yeni savaş lazımdır.

Yaranan təəssürat ondan ibarətdir ki, artıq aparıcı müxalifət təşkilatları nəinki bir araya gəlmək istəmirlər, hətta imzalarının eyni sənəddə olmalarını da arzulamırlar. Söhbət heç də siyasi blok formalaşdırmaq cəhdlərindən getmir. Adi bir bəyanata müxalifət imza atarkən orada öz əbədi rəqibinin imzasını görmək belə istəmir. Bu isə ciddi problemdir.

Son günlər ölkədə xeyli dərəcədə ciddi proseslər baş verdi. Leyla Yunus, İntiqam Əliyev və digərlərinin həbsi kifayət edirdi ki, müxalifət fasiləsiz etiraz aksiyalarına başlasın. Müxalifət üçün əks-hücuma keçmək üçün hər cür şərait yaranmışdı. Lakin başları bir-birinə əzələ nümayiş etdirməyə qarışan müxalifətçilər bu barədə düşünmək belə istəmədilər.

İllərin qıcığı və aqressiyası daxili çəkişmələrdə buxarlanıb, yoxa çıxır. Müxalifət hakimiyyətə qarşı deyil, öz siyasi həmfikirlərinə qarşı savaş açmağın tərəfdarı kimi görünür.

Bütün bunların təsadüfdən, yaxud şüurlu şəkildə həyata keçirilməsinin də bir önəmi yoxdur. Bu savaş protest elektoratının imkanlarının daha da daraldılması ilə sonuclanır.

Hakimiyyət qarşısında ifrat dərəcədə zəif görünən müxalifət bir-birinə qarşı savaşda amansızlıq nümayiş etdirir. Sanki müxalifət hakimiyyətə deyil, bir-birinə güclü olduğunu nümayiş etdirməyi qarşısına məqsəd qoyub. Hamı özünün güclü olmasını sübut etmək istəyir.

Lakin daxili çəkişmələr müxalifəti daha da zəiflədir.

Bu savaşda güclü tərəf yoxdur. Əslində, bu çəkişmələr elə zəifliyin nümunəsidir. Bu vəziyyətdə müxalifətin heç bir qanadı güclü görünə bilməz. Güclü olan 20 il öz hakimiyyətini qoruyub saxlamağı bacaran iqtidar düşərgəsidir.

Qarşıdan yeni parlament seçkiləri gəlir. Yeni müxalifət seçki blokunun yaradılacağı real görünmür. Lakin heç olmasa mənasız savaşlara son qoymaq olardı. Hər iki tərəfdə olan "təsir agentləri" buna imkan vermir, münasibətləri son dərəcə gərginləşdirir və iqtidarın siyasi kursunu radikallıq şüarı altında həyata keçirirlər. Baş verənlərin mahiyyətini anlamaq da mümkündür. Öncələr də qeyd etmişdik ki, bunun yalnız bir adı var - "çarəsizlikdən doğan aqressiya".

**Bu amilin nəticəsində çoxsaylı həbslər də gerçəkləşə bilər. Yeni həbs dalğasının miqyası olduqca böyük ola bilər. Odur ki, 2015-ci ilə qədər daxili savaşlardan qaçmaq lazım gəlir. Əks təqdirdə, ilk hesab sorulacaq düşərgə elə müxalifətin özü ola bilər...**

YENİ MÜSAVAT
N 207 (5916) 19 avqust 2014



# Xristofor Kolumb və Azərbaycan müxalifəti - "TORPAQ!"

Hüseynbala SƏLİMOV

**Siyasətdən yazmaq sözün əsl mənasında əzaba, məşəqqətə çevrilib. Bəli, əvvəllər düşünürdün ki, repressiya maşını nə qədər cəsarətli olsa da filankəslərə əl uzada bilməz. Amma görürsən ki, yox, bunlar üçün heç bir fərqi yoxdur, məqam seçib istənilən adamı qaralaya bilərlər.**

Amma yadıma F.Kafkanın bir hekayəsi düşür. İşgəncə maşını haqqında bir hekayə. Onun sonuncu qurbanı elə bu maşını ixtira edən adam olur...

Bununla uzaqgörənlik etmək istəmirəm. Amma hər şeyin bir sonu var. Bir vaxt V.Lenin deyirdi ki, çürüyən kapitalizm sosialist inqilabının ərəfəsidir. Bu sözləri bir qədər modifikasiya edərək demək olar ki, çürüyən diktatura da böyük siyasi dəyişikliklərin ərəfəsidir...

Azərbaycandakı diktaturanın çürüməkdə olması, perspektivsizliyi elə də böyük sirr deyil. Ola bilsin, beş il, ya da on il çəkəcək. Amma bunun ardınca olduqca böyük dəyişikliklər baş verəcək...

Burada X. Kolumb haqqında məşhur film yadıma düşür. Artıq gəmidə Kolumbu edam etməyə hazırlaşırdılar. Elə bu vaxt dor ağacına dırmaşmış bir dənizçi "Torpaq!" -deyə qışqırmağa başlayır və Kolumb xilas olur...

Bir qədər böyük səslənsə də, biz də neçə illərdir bir dəryada torpaq axtarırıq. O, isə görünmür. Ona görə də getdikcə bizə inanmayanların, bizdən inciyənlərin və ayrılanların sayı artır. Ona görə ki, torpaq görünmür. Amma bu müvəqqətidir - Kolumbun xəritələri, hesablamaları kimi bizim də bu vaxta qədər oxuduğumuz bütün kitablar deyir ki, torpaq mütləq olacaq, biz sahilə çıxacağıq...

İndi isə sadəcə dözmək lazımdır. Başqa bir film də var. Nuhun əhvalatı haqda.

Nuhun gəmisi də dəryada bir xeyli dolanır. İş o yerə çatır ki, oğlanları da ondan üz döndərir, ona qarşı çıxırlar...

Bütün bunları niyə görə deyirəm? Bilirsiniz, indi az saylı müxalifətçilərin ən çox gileyləndiyi məsələ nədir? Onlar deyir ki, bizi qəhrəman kimi qəbul etmir, saygı göstərmirlər, öz işləridir. Heç olmasa, üz çevirməsinlər...

Amma mən isə deyirəm ki, bu da təbiidir, bir qədər əvvəl Nuhdan, Kolumbdan danışdım axı! Biz indi məhz bu mərhələdəyik. Əvvəlki optimizm və fəallıq daha yoxdur. İndi böyük məyusluq var. İndi biz qınanırıq. Amma o vaxt ki, torpaq görünəcək, o vaxt hər şey dəyişəcək...

Demirəm ki, indi bütün bunlara dözmək asandır. Yox, asan deyil, olduqca çətindir. Biz insanlardan qəhrəman kimi qarşılanmağı umduğumuz halda əks proses baş verir, insanlar ən yaxşı halda bizə anlaşılmaz adam, lap rusların dediyi kimi, "çudak" kimi baxırlar. Bu, ən yaxşı halda olur. Böyük əksəriyyət isə sadəcə bizdən üz döndərir, ilk fürsətdəcə bizi cəzalandırmağa, edama göndərməyə hazırdılar. Ona görə ki, "torpaq" görünmür...

Nəsə bu gün yadıma çox şey düşür. Musa peyğəmbər haqqında da çox maraqlı film var. İnsanlar uzun müddət səhranı dolaşır. Orada da bezənlər, Musaya asi olanlar tapılır, çünki yenə də axtarılan torpaq tapılmır...

Deyəcəksiniz ki, bir bunlara baxın, özlərini Nuhla, Musa ilə, Kolumbla müqayisə edirlər! Amma nə etmək olar? Özümüzü "Şəhgülüm, Şüngülüm və Məngülüm"dəki canavarla müqayisə edəsi deyilik ki!

Əslində özümüzü onlara tay tutmuruq. Allah böyük insanları ona görə xəlq edir ki, kiçik adamlar onlardan ibrət götürsünlər...

Böyük insanlar, onların yaşadıqları çətinliklər, çəkdikləri əzablar kiçik adamlara təsəlli və ümid üçün lazımdır. Yoxsa bütün bunların heç bir mənası olmazdı... Həyat tamam mənasızlaşardı...

Düzdür, ekzistensialistlər həyata və yaşananlara məna vermək istəmirlər. Amma Sizifi bir daha onlar yaratmadılarmı, bir daha ona məna vermədilərmi? Bu, mənim bir az əvvəldə dediklərimlə çox da uyuşmur, çünki mən mütləq "torpaq olacaq!" deyirəm. Ona görə ki, ekzistensializmə böyük saygım olsa da, mən ekzistensialist deyiləm...

Bəlkə də, ola bilsin ki, o torpağı çox gözləməli olacağıq. Buna da hazır olmaq lazımdır. Məsələn, Musa yəhudiləri axıra qədər apara, İsrail torpaqlarına çıxara bilmədi. Belə də olur. Amma o torpaq tapıldı. Ola bilsin, son nəticədə bizim qazancımız lap sadə olacaq: deyəcəklər ki, filankəslər bunu deyirdi...

Əvvəldə dedim ki, bizi indi anlamayanlar, üz döndərənlər çoxdur. Deyirlər ki, bunlar da siyasətçidir? Heç belə də siyasətçi olar?

**Amma biz özümüzü siyasətçi sanmamışıq, sanmırıq da. Haqq işi uğrunda nəsə etməyə çalışmışıq. Məgər bu da cinayətdir?..**

# İsgəndər Həmidovdan girov kəlbəcərlilərlə bağlı sərt açıqlama

**İyulun əvvəllərində Kəlbəcər rayonu ərazisində işğalçı ermənilər tərəfindən əsir götürülən kəlbəcərlilər Dilqəm Əsgərovun, Şahbaz Quliyevin azad olunmasının, qətlə yetirilən Həsən Həsənovun cəsədinin geri alınmasının gecikməsi keçmiş daxili işlər naziri İsgəndər Həmidovun kəskin narazılığına səbəb olub.**

## Sabiq nazir hakimiyyəti tənqid etdi; "200 nəfər fiziki imkanları yüksək olan şəxs versinlər və arxadan kömək gəlsin, Kəlbəcəri azad edim..."

Bu barədə fikirlərini "Yeni Müsavat"la bölüşən İsgəndər Həmidov bildirdi ki, Həsən Həsənovun cəsədinin, Dilqəm Əsgərovun və Şahbaz Quliyevin geri alınması dövlətimiz üçün qurur məsələsidir: "Bunu fəhləsindən ölkə başçısına qədər Azərbaycan vətəndaşları bilməlidir. Təəssüf ki, vaxt uzandıqca sanki Dilqəmgilin məsələsi arxa plana keçirilir. Buna qətiyyən yol vermək olmaz. Məsələ gündəmdən düşməməlidir. Bu yaxınlarda atəşkəs pozulması elə bil ki, süni müharibə görüntüsü yaratmaq, gündəmi dəyişmək niyyəti güdürdü".

**İ.Həmidov hesab edir ki, Tovuz zonasında ələ keçən bir xəstə erməninin öldürülməsi dövlətin mövqeyinə, Dilqəm Əsgərovun, Şahbaz Quliyevin azad olunmasına vurulan zərbə olub:** "Belə təəssürat yaranır ki, birilləri bunu qəsdən etdilər. Dilqəmgilin işini bu hərəkətlə ağırlaşdırdılar. Azərbaycanda korrupsiyaya, tayfabazlığa qurşanmış bir məmur dəstəsi var. Bu dəstə daha da varlanmaq üçün bütün milli maraqları, dövlət maraqlarını satmağa hazırdır. Bir neçə nəfər Azərbaycan vətəndaşının əsirlikdə qalması, məhv olması bu dəstə üçün heç bir əhəmiyyət kəsb etmir. Onlar Dilqəm kimi, Şahbaz kimi, Həsən kimi oğullarımıza əslində nifrət edirlər".

**Sabiq nazir azərbaycanlı əsirlərin geri alınması yolunu da təklif etdi:** "Azərbaycanda milyardlara yiyələnmiş məmurlar var. Əgər həqiqətən də əsirləri və Həsən Həsənovun cəsədini geri almaq istəyirlərsə, pul ayırıb Dağıstanda, Gürcüstanda çeçenlərin, avarların vasitəsilə 10-15 ermənini sərhəddimizdən bəri keçirməyə və onları sərhəd pozucusu kimi tutmağa nail olsunlar. Sonra həmin ermənilər Diqəmgilin azad olunması üçün alver predmeti olsun. Belə bir əməliyyatı reallaşdırmaq çətin deyil. Təəssüflər olsun ki, bunu da eləmirlər. Əksinə, sanki əsirlikdə olan qardaşlarımızı unutdurmaq, onların məsələsini ictimaiyyətin diqqətindən kənarlaşdırmaq prosesi həyata keçirirlər. Dilqəmgil yenicə əsir götürülən gündə cəmiyyətdə ciddi bir hərəkətlənmə müşahidə edilirdi. Hakimiyyət gördü ki, cəmiyyətdə oyanma başlayır,



İsgəndər Həmidov

cəmiyyət tərpənir. Ona görə də dərhal təşəbbüsü ələ aldı və cəmiyyətə "hökumət əsirlərin azad olunması üçün bütün lazımi tədbirləri görür" bəyanatlarını sırıdılar ki, hamı sakitləşsin və arxayınlaşsın. İnsanlarda da belə bir rəy yarandı ki, hökumət məşğuldursa azad edəcək. Nə vaxt azad edəcək, azad edəndə artıq gec olmayacaq ki? Sual budur. Üstündən bu qədər vaxt keçdikdən sonra onları elə vəziyyətdə geri verə bilərlər ki, o adamlar nəinki cəmiyyətə, heç ailələrinə də yaramazlar. Azərbaycan hökuməti bunu gözləyir?!"

**İ.Həmidov bəyan etdi ki, Azərbaycan mənasız sülh danışıqlarını dayandırmalı və hərbi əməliyyatlara başlamalıdır:** "Qarabağda real müharibəyə başlasaydıq, çoxdan qələbə qazanmışdıq. Sadəcə olaraq hakimiyyət müharibə etmək istəmir. Ona görə ki, həm xaricdən "müharibə olmaz" xəbərdarlığı alırlar, həm də müharibə bunların rahat yaşayışını poza bilər. Müharibə bəyanatlarının da hamısı publikaya hesablanmış bəyanatlardır. Artıq Azərbaycan cəmiyyətində də, Ermənistanda da eminlik yaranmaqdadır ki, belə bəyanatlar elə bəyanat olaraq da qalacaq. Azərbaycan hakimiyyətinin təmsilçiləri tez-tez deyirlər ki, İrəvanı da geri almağa qadirik. İrəvanı sonraya saxlayaq, gəlin görək Qarabağın bir dənə kəndini azad etmisinizmi, edə bilirsinizmi, ümumiyyətlə, azad etmək istəyirsinizmi?! Azərbaycan iqtidarı son vaxtlar dəfələrlə bəyan edib ki, Minsk Qrupunun vasitəçiliyi ilə aparılan sülh danışıqlarının heç bir müsbət nəticəsi yoxdur. Həm bunu etiraf edir, həm də nəticəsiz danışıqları davam etdirirlər".

Keçmiş nazirin qənaətincə, Minsk Qrupunun vasitəçiliyindən imtina olunmalı, sülh danışıqları adı qoyulan tragikomik prosesə son qoyulmalı, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmək üçün hərbi əməliyyatlara başladığını elan etməlidir: "Bu hüququ Azərbaycana beynəlxalq konvensiyalar, özünün Konstitusiyası verir. Mən yenə bəyan edirəm ki, Kəlbəcərdə diversiya qrupu və partizan hərəkatı vasitəsilə cəmi 200 nəfərlə istədiyimizə nail olmaq mümkündür. Hətta oradan Laçına keçmək olar. 200 nəfər fiziki imkanları yüksək olan şəxs versinlər və arxadan kömək gəlsin, mən Kəlbəcəri azad edim. Bunu tam səmimiyyətlə deyirəm. Təəssüf ki, bu hökumətin müharibə eləmək fikri yoxdur. Ona görə də mən hesab edirəm ki, Qarabağın azad olunması bu hakimiyyətin dövründə çətin məsələdir".

❑ Etibar SEYİDAĞA

# Əhməd Oruc AXCP funksionerinin ittihamlarına sərt cavab verdi

## "Bunların Azərbaycanın maraqlarına zidd hər hansı bir quruma qoşulmalarını demək təhqirdirmi?"

**Müsavat Partiyasının başqanı İsa Qəmbər avqustun 14-də "Azadlıq" radiosunda "İşdən sonra" verilişinin qonağı olub. Veriliş getdiyi müddətdə canlı efirə qoşulan AXCP Rəyasət Heyətinin üzvü Seymur Həzinin bəzi partiya rəhbərləri haqqında səsləndirdiyi fikirlər ciddi narazılıq doğurub. O, Ümid sədri, millət vəkili İqbal Ağazadə və Azadlıq Partiyasının sədri Əhməd Orucun ünvanına sərt ittihamlar səsləndirib.**

AXCP üzvünün narazılıq yaradan əsas fikirləri bunlardır: "İsa bəy qeyd etdi ki, müavini Gülağa Aslanlı və Divan üzvü Tural Abbaslı son həbslərlə bağlı yaradılan Müdafiə Komitəsində iştirak ediblər. Bəs o zaman ikinci Müdafiə Komitəsini yaratmağa nə ehtiyac var idi? İqbal Ağazadə və Əhməd Oruc 2013-cü ildə bizləri təhqir edirdilər. İndi onlarla bir masada oturmaq doğru deyil. AXCP olaraq, yalnız mövqeyi prinsipial olan qüvvələrlə birlikdəyik".

**Əhməd Oruc musavat.com-a açıqlamasında barəsində səsləndirilən ittihamlara sərt cavab verdi:** "Seymur Həzi bildirib ki, guya mən onları 2013-də təhqir etmişəm. Milli Şura məsələsini nəzərdə tutur. Amma mən heç kəsi təhqir etməmişəm. Sadəcə, Milli Şuranı Azərbaycanın maraqlarına zidd olan qurum adlandırmışam. Bu qurumu Rusiyanın projesi ilə yaradıldığını bildirmişəm. Dediklərim doğru çıxdı. Göründüyü kimi, Rusiya Azərbaycandan külli-miqdarda təzminat aldı. Bunu dünyada bilməyən kimsə yoxdur. Mən dünənə qədər Rusiyanı tənqid edənlərin Milli Şura, "Milyarderlər İttifaqı"nda yer almalarını doğru saymadım. Daim fikirlərimin üstündə qaldım. Gördünüz ki, Milli Şurada Rusiya istədiyinə nail olandan sonra geri çəkildi. Əgər indi də belə bir proje yaransa, yenə əleyhinə olacam. Bunlar təhqir deyil. Sözləri varsa, gəlsinlər, açıq şəkildə desinlər. Onlar dediklərimlə bağlı ağılları kəsən heç nə tapa bilmirlər. Mənimlə bağlı nəsə gündəmə gələndə, dərhal "bizi təhqir etdi" deyirlər. Mən kimi təhqir etmişəm? Bunların Azərbaycanın maraqlarına zidd hər hansı bir quruma qoşulmalarını, Rüstəm müəllimin 5-10 qəpiyinin arxasınca qaçmaları haqqında fikir səsləndirmək təhqirdirmi? Sadəcə öz fikirlərimi dedim və bunu əsaslandırmağa çalışmışam. Buna da heç bir arqument gətirə bilməyiblər".



Əhməd Oruc

**Ə.Oruc bir il əvvəl səsləndirdiyi fikirlərə indi cavab verilməsinin gülünc doğurduğunu da qeyd etdi:** "Bunlar fikirlərimə bir ildən sonra bu cür cavab verirlər. Kimisə tənqid etsəm belə, bu o demək deyil ki, bizim müdafiə etdiyimiz insanlarla bağlı tədbirə qatılmamalıdırlar. Bunlar kiminsə müdafiə məsələlərini öz inhisarlarına alıblar. Sağlam düşüncələri, məntiqi təfəkkürləri olmayan, başını itirmiş insanların yanaşmasıdır. Anormal, məntiqə sığmayan çıxışlar etdiklərinə görə, müxalifət üçün cəmiyyətdə mənfi fikir formalaşıb. Xalq yenə hərəkat illərindən gəlmiş insanları, partiyaları vahid qüvvə kimi görürlər. Bunların içərisində kiminsə tənqidə dözməyən, sağlam olmayan fikir söyləməsi bütövlükdə düşərgəyə ziyandır. Nə iş görürlərsə, görsünlər. Görmürlərsə, bizim yığışıb, hansısa bir hüquq müdafiəçisinin hakimiyyətin repressiyalarına məruz qalmasını pisləyiriksə, onlar niyə narahat olurlar? Onların hansısa bir iş görmələrinə qarşı deyilik. Təəssüf edirəm ki, ağıllı adamların düşüncələrinə zidd olan mövqelərə keçiblər".

❑ Cavanşir ABBASLI

**Heç əlimə qələm almaq istəmirdim... Lakin "Yeni Müsavat" qəzetinə son müsahibəmdən sonra şəxsim barədə yazdıqlarınız bir daha sizlərə elmdən, siyasətdən nələrisə xatırlatmağın vacib olduğu qənaətini yaratdı. Çünki sizlər də vətən övladısınız, maariflənməyə də ən çox ehtiyacı olanlardansınız - xanımlı, kişili bunu son müsahibəmə münasibətdə göstərdiniz. Müsahibəyə reaksiya barədə lap sonda... İndi isə...**



**İqbal AĞAZADƏ,**
**Millət vəkili**

# Siz marginalsınız...

### Təqlidçilər və marginallaşmışlar

Sosial anlamda marginallaşma daha çox mədəniyyətlərdə özünü göstərər. Mədəniyyətlər isə az qala hər gün dəyişir, yeniləşir. Dəyişilməyənlər özünə qapanır, toplumun içərisində öz varlıqlarını pis də olsa köhnələri yaşatmaqla saxlayırlar. Sizlər də öz varlığınızı marginallaşdırmaqla qoruya bilirsiniz, eynən zəncilər Amerikanın şimal bölgələrində özlərini ağdərililərdən ayırdığı kimi, türklər Avropada özlərini dönərxanalar, geyim və yemək mədəniyyəti ilə qorumağa çalışdıqları kimi, uzaq ekvator meşələrində yaşayanlar qədim adətlərinə söykənərək mədəniyyətə açılım etmədikləri kimi. Siyasi proseslərin bütün dönəmlərində qışqırmaq, eyni şüarlar söyləmək, həmişə düşmən axtarmaq, toplum mədəniyyətinə inteqrasiya etmədən qrup mədəniyyətinin içində marginallaşmaq - bu sizin yaşam tərzinizə çevrilib, sadəcə adın dəyişdirib müasir terminologiyalara uyğunlaşdırmaq cəhdi var içinizdə. Ən pis hərəkətinizi belə demokratikliyin adına yazmaq istəyi isə sadəcə avantüradan başqa bir şey deyil.

Nə qədər qışqırmaq, nə qədər eyni şüarları söyləmək, başınızda dayananları belə eyni şüarla böyütmək olar?!

Bax, bu qrup mədəniyyətinizin toplum mədəniyyətindən üstün tutularaq mühafizəsi və sonda marginallaşmadır.

Öz dəyərlərinizə fanatik bağlılıq dialoqu rədd edər, marginallaşmaya yol açar, ictimai barışa xidmət edən xətt tuta bilməz, nəticədə kiçilər. İnanmırsınız? Bu neçə ildə nə qədər kiçildiyinizi və bir qrup olaraq kənarda yaşadığınızı fərq etmirsinizmi? Siz siyasi düşərgədə də yalnızlaşmaq yolunu tutmusunuz, heç kimsə ilə sona qədər ola bilmirsiniz, qrup mədəniyyətinin mühafizəkarlığı sizi tətikləyir. Yalnızlıq isə marginallaşmanın ilk şərtidir. Bu qrup refleksi sizi inkarçı edir. Siz siyasətdə belə hər kəsi inkar edirsiniz, şərləyirsiniz, hədyan deyirsiniz, hətta söyüş söyürsünüz, təhqir edirsiniz. Qorxursunuz sanki sizin qrup mədəniyyətini əlinizdən alacaqlar deyə... Eynən qədim dövrlərdə qatarın gəlişinə qarşı çıxanlar kimi. Onlar da xoş məram göstərirdilər - faytonçular ac qalacaq deyə. Siz həm də təqlidçisiniz.

Uşaq babasını, atasını, anasını, təqlid etdiyi kimi siz də hakimiyyəti təqlid edirsiniz. Çünki insan güclü olana heyran olur, ona həsəd aparır, onu təqlid edir. Hakimiyyətin gücü ədalətsizlikdə olduğu kimi siz də ancaq ədalətsizliyi təqlid edə bilirsiniz. Bu gün insanları tutmaq, haqqını əlindən almaq imkanınız məhduddur. Yoxsa daha pis olarsınız. Gücünüz yetən qədər edə bilərsiniz - ancaq sizin olan qəzet səhifəsində söymək, azad olan sosial şəbəkədə təhqir etmək. Daha böyük imkanlar sizi daha zalım edə bilər. Deməyin ki, siz 1992-1993-cü illərdə hakimiyyətdə olaraq söylədiyim kimi olmamısınız.

Cəmiyyət marginallaşan və təqlidçi qrupa qarşı mübarizə aparmayacaqsa onun böyümək şansları və toplumu özünə oxşatmaq imkanları var. Marginallaşma radikalizmi artırır.

### Radikallar və fanatlar...

Radikalizm keçmişdəki hər şeyi dəyişmək kimi bir fəaliyyətə deyilir. Təbii, bunun pozitiv tərəfi də var. Lakin siz pozitivi qəbul etməyənlərsiniz. Bir cəmiyyətdə problemlər varsa və o problemlərin çözülməsi üçün məsul olan tərəflər dialoqa gəlmirsə savaş çıxır. Bu gün sizlər və iqtidar dialoqa gəlməyən tərəflərsiniz. Hətta tərəflərdən biri dialoqa gəlmirsə qarşı tərəf ictimai məsuliyyət və maraq məqsədilə sona qədər barışçı olmalıdır ki, cəmiyyətdə iç savaş çıxmasın. Yox hər iki tərəf iddiasından əl çəkmirsə, demək radikallığa bir də fanatizm xəstəliyi qarışıb. Hər ikisi cəmiyyət üçün qorxuludur. Fanatizm kor-koranəlik, itaət, köləlikdir. Onun radikal dəyişikliyə gətirib çıxara biləcək mübarizəsi də növbəti köləlik vəd edir - ağaların dəyişəcəyi köləlik. Siz bunumu arzu edirsiniz?!

Çıxışlarınızda müqəddəs dinimizə istinad edirsiniz. Dinimizdə də bu məzhəb ayrıntılarının radikallıq və fanatizmdən doğduğunun fərqində deyilsinizmi?

Əməvilər Hz Peyğəmbərin nəvələrini din adına şəhid etdilər, İslam aləminin ən böyük iç savaşları həmin dönəmdə yaşandı. Radikalizm islamda yerini tapdı, amma şiəlik də ortaya çıxdı. Əməvilərin radikalizmi İran bölgəsində şiə məzhəbini doğurdu. Əməvi radikalizmi, Hz. Əli məhəbbətinə qarşı Hz. Ömər düşmənliyi yaratdı. Siz hansı məhəbbətə hansı düşmənliyi yaratmaq istəyirsiniz?

Adınız eyni olsa da məzhəb və sevgiləriniz, amal və istəkləriniz, sədaqət və mübarizəniz heç, həm də heç yaxın gəlmir.

Amma yaratdığınız radikalizm və fanatizm Azərbaycana mütləq və mütləq ziyan vuracaq - onun üçün 60 il gözləməyə də ehtiyac yoxdur.

Radikal və fanatik insanlar öz fikirlərinə güvənmədikləri üçün dialoqdan qorxarlar - eynən sizin kimi, mövcud iqtidar kimi. Sizin qorxu fobiyanız var, siyasətdə alternativlik fobiyası. Pardon, müxalifətdə alternativlik kimi. Siz heç iqtidar olmaq istəmirsiniz ki... Əsas istəyiniz müxalifətin lideri olmaqdır. Əks təqdirdə, nədən barışdırıcı hər kəslə bir sırada dayanan, hamıya, sevgi ilə qucaq açan biri olmayasınız ki?!

Müxalifətdə alternativinizin yaranacağı fobiyası sizi hər şeydən və hər kəsdən qorxudur. Qorxduğunuz üçün də dağıtmağa, hər kəsi şərləyib sıradan çıxarmağa meyllisiniz. İşinizi bu istiqamətdə qurursunuz. Yeri gəlmişkən, cəmiyyətimizin də qorxu fobiyası var - siyasətdən qorxur. O qorxunu götürmək üçün də müalicəyə ehtiyacı var. Psixoloq fobiyası olan bir adamın qorxusunu götürmək üçün nələrdən istifadə edirsə, cəmiyyətlə də eyni cür davranmaq lazımdır. Siyasətdən qorxan cəmiyyətin dərmanı dialoq, barış, sülh danışıqlarıdır. Daha qorxunun üstünə qorxu gətirmək deyil.

Siz cəmiyyətlə də özünüzün halınızda davranırsınız. Fobiyalı adamlar hər kəsdən hürkər. İmkan verin, cəmiyyəti müalicə edək.

Dünya iki böyük savaşı gördü və beləcə, savaşın nə qədər pis olduğunu anlayıb, müharibəni öz içərilərindən daha mədəni səviyyəsi aşağı olan coğrafiyalara ötürdü. İndi siz deyin, XXI yüz ildə bunları görə-görə başqaları ilə də yox, özümüz-özümüzə savaş çıxarmalıyıqmı?

Radikallıq və fanatiklik mədəniyyəti sivil insanın daşıdığı dəyər deyil. Radikalların hirs və nifrət duyacaq bir düşmənə ehtiyacları var. Nə yazıq ki, hirs və nifrətinizin sərf olunacağı ünvan iqtidar ola bilməyəndə sağa-sola saldırırsınız. Çünki düşmən olmadan ayaqda qala bilmirsiniz.

### Satanistlər...

Şeytanın vəzifəsi insanı Allahdan uzaqlaşdırmaqdır. Şeytan fəlsəfəsinə görə qələbə barışdan üstündür. Satanistlər xoşbəxtliyi barışda deyil, qələbədə, mübarizədə axtarırlar. Köhnələr dağıdılmalı, yalnız onların istədikləri qurulmalı, heç kimin dediyi yox, yalnız onların dediyi olmalıdır.

Satanist hərəkətlər əsasən toplumda xaos yaradan, mədəniyyəti, dialoqu, barışı rədd edən ideologiyadır. Satanistlər şeytana tapınmanın yolu kimi pişik qurban verməyi seçirlər. Qara və qırmızı rəngi sevirlər. Ritorikanız qırmızı, içiniz, ruhunuz isə qaradır. Qurban verdikləriniz isə heyf ki, insandır. Bir ətrafınıza baxın. Qurban verdiklərinizdən neçəsi qalıb yanınızda?!

Bir də satanistlər saygısızlığı, utanmazlığı, hörmətsizliyi təşviq edirlər. Necə də sizin ritorikaya bənzəyir.

Satanizmlə mücadilə edilməlidir. Başqasının düşüncə və fikirlərinə hörmət etməyin ancaq özünü görən və ideallaşdıranlar cəmiyyətə zərər verir.

### Sosial şizofreniklər və sosial damğaçılar...

Şizofreniya xalq arasında dəlilik kimi bilinən bir xəstəlikdir. Bu xəstəliyin əsas əlamətləri xəstəliyin reallıqdan uzaqlaşaraq gerçəklərlə bağlarının qopmasıdır. Şizofreniklər günəşin onlar üçün doğduğunu - eynən müxalifətçiliyin sizin adınızla bağlı olduğu kimi, yağışın onun üçün yağdığını - eynən sizdən başqa dürüst müxalifət olmadığını düşünənlərdir.

Elə düşünürlər ki, onları həmişə təhdid edirlər, məsələn, sizin kimi illərdir sanki hamı sizə qarşı döyüşür, sanki onları həmişə kimlərsə izləyir - eynən sizin kimi, qərargahınız, maşınınız, əməkdaşlarınız, üzvləriniz və s.

Şizofreniklər özlərinə bir dünya qururlar və o dünya içərisində qəhrəman, mübariz, hətta əzabkeş, bəzən xoşbəxt kimi yaşayarlar - eynən sizin kimi, sizdən əzabkeşi, sizdən qəhrəmanı, sizdən xoşbəxti yoxdur bu dünyada.

Xəyalla gerçək arasındakı sərhədləri beyin kimyasal hərflərlə yazar. Beyin kimyası pozulan bir insanın beyni zərərli protein yaradar, bu da beynin funksiyasını pozar. Nəticədə beyin qarışar reallıqları görə bilməz, gerçəkləri duya bilməz.

Bu xəstəliyin cəmiyyət acısından baxanda da bəzi özəllikləri var. Bir cəmiyyəti cəmiyyət halında gələcəyə aparan üç nəsnə var; tarixi keçmişi, kimliyi, idealları. Bu üç məsələdə cəmiyyətdə birlik varsa o cəmiyyət qazanacaq. Cəmiyyətin bu 3 məsələdə birliyi onun gələcəyini şəkilləndirən əsas şərtdir. Sizlər və iqtidar bu 3 şərt uğrunda bir araya gəlməməyimiz üçün hər cür fəaliyyətə rəvac verirsiniz. (İqtidar haqda çox demişəm və yazmışam. Bu sizin üçündür deyə onlara aid hissələri yazmıram) Keçmişimiz haqda siz də iqtidar qədər qərəzli, kimliyimiz barədə mübahisəli, ideallarımızı ayaqlar altına atacaq qədər məzmunsuz mübarizə sərgiləyirsiniz. Bu da sosial şizofreniya deməkdir. Çünki sonuc cəmiyyəti dağıdır.

Sizlər həm də sosial damğaçısınız. Sosial damğaçılar tarixin müxtəlif dönəmlərində müxtəlif ölkələrdə olub, bu gün də var. İrqi ayrı-seçkilikdən tutmuş, milli ayrı-seçkiliyə qədər hər şeydə sosial damğalanma elementləri olub.

Sosial damğalanma böyük mənalarda işlənib. Məsələn millətlərə, dini qruplara qarşı. Bundan danışmaq istəmirəm. Lakin sosial damğalanmanın daha kiçik, ölkələr daxilində qruplara və ya ayrı-ayrı fərdlərə qarşı tətbiq edilmə formaları da olub. Məsələn, keçmiş SSRİ-nin ilk illərində "kulak", "qolçomaq" kimi sosial damğalamalar, daha sonra "vətən xaini" sosial damğası daha aktual oldu. Stalinin ölümündən sonra "kult" sosial damğası ortaya çıxdı.

Xalq hərəkatının ilk illərində isə hərəkatda kimin kimdən xoşu gəlmədi ona "KQB" damğası vurdu. "MTN" agenti, "saxta müxalifət", "cib müxalifəti", "psevdomüxalifət" bunlar da son illərin sosial damğalarıdır. Və yazıqlar olsun ki, Azərbaycanda bu damğa vurulmayan bir müxalifətçi belə yoxdur. Sadəcə tarixlər fərqlidir. Hər tarixin sosial damğa vurulan öz "qəhrəmanı" var - kiminə az, kiminə çox. Sosial damğanı isə iqtidardan çox müxalifət bir-birinə yapışdırır. Müxalifətdə yerini möhkəmləndirmək üçün.

Cinayət törədilərkən polis orqanları cinayət yerindən qaçan cinayətkarların fotorobotunu, hadisənin şahidlərinin sözlərinə uyğun cızırlar. Görəsən mənim bu yazımdan fotorobot hazırlansaydı kimin şəklini görərdik?

****

Son müsahibəmdə ad çəkmədən bir doğrunu söyləmişdim. Prinsipim sadə idi. Dürüst insan hər zaman doğru bilgi verməlidir. Ad çəkməməmin səbəbi vicdan, daxili dürüstlük məsələsi idi. Yenə də ad çəkmirəm, sadəcə prinsipə söykənərək dürüstcəsinə hər kəsin gözünə baxıb deyirəm - bu olay olub və bunu əksəriyyət bilir. Dedim ki, bunu bir də kimsə etməsin, təkrarlamasın. Təəssüf ki, bəziləri bunu edənləri yox, deyənləri qınadı. Ad çəkmədiyim halda isim verdilər. Mollanın evinə oğru girir, hər şeyi aparır. Qonşular mollanı sorğu-sual edir: - qapı bağlı idimi, pəncərəni örtmüşdünmü və s. Molla deyir, yox. Hamı mollanı günahkar bilir. Molla məzlumcasına adamların üzünə baxır. Heçmi o oğrunun günahı yoxdur?!

***P.S.** Fitini tanımaq da yaxşı şeydir.*

**Redaksiyadan:** Bu yazıda özünü hədəfdə bilən hər kəsin cavab haqqını tanıyırıq.

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**

YENİ MÜSAVAT
N 207 (5916) 19 avqust 2014



# Maraqsız Münhauzen

Zamin HACI
zaminhaci@gmail.com

**Bizdə gopçuluq artıq milli sənətkarlıq nümunəsinə çevrilir. Bir qohumun 4-cü sinifdə oxuyan uşağı var, təzəlikcə soruşuram ki, yay tətilində hansı kitabı oxuyub, dedi "Baron Münhauzenin macəraları"nı. Dedi heç xoşuma gəlmədi, maraqsız idi. Əlbəttə. Sənin valideynlərinin, müəllimlərinin elədiyi gopların, danışdıqları yalanların yanında Münhauzen maraqsız olacaq.**

İctimai sektor məhv edilib, QHT-lər dustaq, medianın da başı kəsik. Orta məktəblər və universitetlər sovet dəlləkxanasını xatırladır - saçı düzəltməyin ancaq bir üsuluna, partiya və dövlətin icazə verdiyi üsula icazə verilir. Ya da ən yaxşı halda səni keçəl eləyib buraxacaqlar. Özün oxuduqların da yadından çıxacaq.

Çox hörmətli saytlardan biri yazmışdı: guya 19-cu əsrdə London və Parisdə camaat kerosin lampası yandıran vaxt Gədəbəy kəndliləri elektrik işığında bərq vururmuş. Əlbəttə. Dünya antropologiyasında hələ də ciddi qəbul edilməyən azıxantropun isə 300 min il yaşı vardır. Gəncədə 2557 il qabaq tort bişiriblər, təndirlərin qalıqları hələ durur. Edison da Güney Azərbaycanda doğulmuş türk olmuşdur. Öz əlimizdə deyilmi? İstəsək tarixi ayrı cür yazarıq.

Siz elə bilirsiniz mən zarafat edirəm, ancaq bunların hamısı olubdur. Tarixçi dostlarımızdan biri danışmışdı ki, bir dəfə azərbaycanlı alimi Nyu Yorka elmi konfransa dəvət edibmişlər, kişinin oğlu orda dini vəziyyətimiz haqda qırıldatmalı imiş. Tolerantlıqdan, şeyxin ravvin və keşişlə dostluğundan, Hacı Qamətlə Hacı Madərdən-filandan danışandan sonra alimimiz bərk qızışıb, vəcdə gəlib, bir az da salondakı namərd yankiləri yuxudan oyatmaq üçün deyib: "Sizin xəbəriniz olsun, bizim Azərbaycanda miladdan öncəyə aid xristian abidələri vardır". Bundan sonra həmin alimi sketç oxumaq üçün Las Veqas şəhərinə dəvət ediblər.

Cahil, savadsız, gözübağlı toplumu fırlatmaq çox asandır. Misir Mərdanovu bu səbəbdən 14 il təhsil naziri vəzifəsində saxladılar. Misir müəllim də sağ olsun, villasının və nəvə-nəticələri üçün topladıqlarının haqqını tam verdi. Ölkədə elə bir nəsil yetişib ki, onu uçan ələmdən tutmuş uçan boşqaba, icra hakiminin mistik gücündən ordumuzdakı sehrli toppuza qədər min cür fırıldağa inandırmaq asandır. Təbii, arada axur fasiləsi verib Röya Ayxanı, Nadir Toliki oxutdurmaq şərti ilə.

Məsələn, bu saat camaatın çoxu bilirsiniz nə fikirləşir? Sən demə, bir-iki rayonumuz işğaldan azad edilib, ancaq bunu hələlik camaatdan gizlədirlər! İnanmazsınız, ancaq belədir! Neçə nəfər bunu mənə deyibdir. Ta niyə gizlədirlər, haçana qədər gizlədəcəklər, bunu bilən yoxdur. Elə mənə sualı da bu istiqamətdə verirdilər ki, bəlkə sən bilərsən, oxumuş adamsan, kor "açkisi" taxırsan, hökumət 2 rayonu aldığını bizə niyə demir?

Mənim belə situasiyalarda Elçibəyin metoduna əl atmaqdan başqa çarəm qalmır. Deyirəm hər şeyin zamana ehtiyacı vardır. Yəni, gedin qarnınızı qaşıyın. Bu hikmətləri siz anlamazsınız. "Onun sirrini mənə də açmadılar" - kitabınızda da belə yazılıb, ta nə istəyirsiniz?

İyulun 11-də Gürcüstan polisi analoqu olmayan çəkidə - 3 ton heroin tutmuşdu, bunun Azərbaycan sərhədindən keçdiyi açıqlanmışdı. Üstündən 1 ay keçdi, yapistlər bu mövzuda "mıqq" da eləmədilər. Deyərdin milçək uçub, Borçalıya keçib. Yalnız avqustun 14-də Narkotiklərin Qanunsuz Dövriyyəsi ilə Mübarizə Dövlət Komissiyasından belə gülünc məlumat verildi: "Gürcüstanda külli miqdarda narkotik maddənin saxlanılması və Azərbaycan Respublikası ərazisindən tranzit olaraq keçməsi barədə ilkin məlumat üzrə aidiyyəti orqanlar tərəfindən aparılan araşdırmanın nəticələri müzakirə edilib. Araşdırma davam etdirilir. Prezident bu məsələyə gündəlik nəzarət edir". Vəssalam. Bu kitabı da beləcə bağladılar.

**Görəsən alınan rayonları kimin villasında gizlədirlər?**

# "Media Hüququ İnstitutu donorlarını itirib"

## Rəşid Hacılı: "MHİ haqqında həm daxildə, həm də ölkə xaricində gözdənsalma kampaniyası aparıldı"

**Media Hüququ İnstitutunun (MHİ) rəhbəri, hüquq müdafiəçisi Rəşid Hacılı MHİ-nin bağlanma təhlükəsi, quruma qarşı aparılan kampaniya, həmkarlarının həbsi ilə bağlı musavat.com-un suallarını cavablandırıb.**

***- MHİ ətrafında ötən həftə mediaya çıxmış qalmaqallı xəbərlər nədən qaynaqlanır?***

- Ötən həftənin əvvəlində mətbuatda 97 nəfərlik siyasi məhbus siyahısını bir qrup təşkilatların dəstəklədiyi bildirilən məlumatda MHİ-nin adı yanlış olaraq imzalayanlar sırasında göstərilmişdi. MHİ bu siyahıya imza atmadığını bəyan etdikdən sonra bizə hücumlar başladı. Bəziləri bizə deyirdi ki, hüquq müdafiəçiləri Rəsul Cəfərovun, onun da ardınca İntiqam Əliyevin həbs edilməsindən sonra biz razı olub-olmamamızdan asılı olmayaraq gərək bu sənədi imzalayaydıq, belə bəyanat verməyəydik . Xədicə İsmayıl isə daha irəli gedərək bizi az qala xəyanətkarlıqda ittiham etməyə başladı. O, təcili olaraq MHİ haqqında həm daxildə, həm də ölkə xaricində gözdənsalma kampaniyası apardı. Bu kampaniya bu gün də davam etməkdədir. MHİ-nin onsuz da sıxışdırıldığı bir dönəmdə bu ağır zərbə oldu. Vətəndaş cəmiyyətinin tənqidçi kəsimi üçün ciddi sarsıntıların yaşandığı indiki dönəmdə onun ətrafa inamsızlıq və şübhə püskürən bu addımları bəziləri tərəfindən dəstəkləndi təəssüf ki. Bunu anlayışla qarşılasam da, tam yanlış hesab edirəm.

***- MHİ siyasi məhbus məsələsiylə məşğul olmuşdumu, hansısa belə sənəd imzalamışdımı?***

- MHİ müdafiə etdiyi jurnalistlərin, bloqqerlərin işlərində, QHT rəhbərlərinin, NİDA-çı gənclərin işlərində siyasi motivlərin olduğunu, yəni onlara verilən ittihamların həmin şəxslərin ifadə, toplaşma, birləşmə və başqa siyasi hüquqlardan istifadəsi ilə bağlı olduğunu həm məhkəmə şikayətlərində, həm də bəyanatlarında, hesabatlarında hər zaman qabardıb. Amma ümumi siyahıların tərtibində iştirak etməyib və imzalamayıb. Çünki bu bizim işimiz deyildi, biz həmin işlərlə tanış deyildik.

Kimlərin siyasi məhbus sayılıb-sayılmaması barədə qərar vermək, siyahı hazırlamaq zəruri peşəkarlıq və metodologiya, siyasi motivli olduğu güman edilən çoxsaylı işlərin araşdırılmasını və qiymətləndirilməsini və zəruri sübutların toplanmasını tələb edir. Bəzi işlərdə siyasi motiv aşkar sezilir. Bəziləri isə ətraflı əsaslandırma tələb edir. Belə işi bu sahədə məşğul olan 2-3 təşkilat apara bilər. Başqaları isə bildiyi işlərlə bağlı yardım edə bilər.

Rəsul bəyin hazırladığı siyahı ilə bağlı onunla söhbətlərimiz dəfələrlə olmuşdu. Rəsul bəy əmin idi ki, ədalətlilik baxımından bu siyahı siyasi olmasını güman etməyə azacıq əsas olan şəxsləri də əhatə etməlidir. Mən isə geniş, şübhə doğuran şəxslərin daxil edildiyi siyahını tənqid edirdim. İsrar edirdim ki, şübhə doğuran işlərin qatıldığı siyahıları AŞPA kimi qurumda iş aparmaq üçün effektiv saymıram. AŞPA hüquq qurumu yox, siyasi qurumdur. Orada siyasi məhbus məsələsinin əleyhinə olan şəxslərin həmin siyahıdan şübhəli görünən 10-15 adamın üzərinə kölgə salan ciddi arqumentlər irəli sürməsi yetər ki, bütün siyahı üzərinə kölgə düşsün. Amnesty İnternationalın



Rəşid Hacılı

bu sahədə peşəkarlığına hər yerdə inanırlar. Onların siyahısında təxminən 19-20 şəxs var idi o zaman. Bu siyahıya siyasi motivli olduğuna əmin olduğumuz bir neçə başqa şəxsləri də salmağı və bunun üzərində durmağı tövsiyyə edirdim. Yeri gəlmişkən, indi AŞPA-nın siyasi məhbus problemindən mümkün qədər özünü kənara çəkməyə çalışması, ən azı bu məsələyə baxılmasını uzatması aydın görünür. AŞ Baş Katibinin son həbslərdən sonra verdiyi bəyanat bunu deməyə əsas verir. Hələ iyun ayında görüşümüz zaman T. Yagland siyasi məhbus məsələsinin ölkədaxili dialoq vasitəsilə həllinə üstünlük verdiyini açıq deyirdi. AŞPA-nın üzvü olan neçə-neçə ölkədə (Türkiyə, Rusiya, Gürcüstan, hətta Ukrayna və s.) siyasi məhbus məsələsi ciddi problem kimi durur. İndi Avropa Şurasının daha qorxulu və ağrılı problemləri var. Bu Rusiya problemidir. Belə şəraitdə Avropa Şurasının hökumətlərin yaxın əməkdaşlığı olmadan siyasi məhbus kimi həssas məsələni həll edə bilməsi yaxın zamanlar üçün çətin görünür, təəssüf. Siyasi məhbus məsələsi ilə bağlı siyahıların və kampaniyaların əhəmiyyətini kiçiltmək istəmirəm. Zənnimcə indiki məqamda ölkədaxili dialoq yoluyla bu problemlərin həllinə köklənmək lazım gələcək. Düşünürəm ki, bunun baş tutması və yaxşı nəticələr verməsi təkcə siyasi məhbus məsələsinin həlli baxımından yox, ölkənin siyasi yöndən güclənməsi və yaxın zamanlarda üzləşə biləcəyimiz kənar təhdidlərdən daha yaxşı qoruna bilməyimiz baxımından çox faydalı ola bilərdi. Ölkənin belə çətin siyasi və hüquqi problemlərin üstündən uğurla aşmaq gücünü göstərmiş olardı.

***- Bir çox jurnalistlər və hüquq müdafiəçiləri MHİ-nin əməkdaşı E. Sadıqovun "Azərbaycan Respublikası Prezidenti İlham Əliyevi dəstəkləmişəm" deməsindən sonra həm onu və MHİ-ni kəskin tənqid atəşinə tutublar...***

- MHİ siyasi qurum deyil, siyasi fəaliyyətlə məşğul olmur. Təşkilatda əməkdaşlıq edənlər fərqli siyasi qüvvələri dəstəkləmələrindən, bunu açıq və ya gizli ifadə etmələrindən asılı olmayaraq MHİ-də bir işlə, media azadlığı sahəsində problemlərlə, media və jurnalistlərə hüquqi yardımlar etməklə, onları üzləşdikləri hüquqi çətinliklərdə müdafiə etməklə məşğul olublar. Elçin Sadıqov peşəsini sevən, müdafiə etdiyi şəxslərin mənafelərini onların siyasi baxışlarından, düşüncələrindən və yazdıqlarından asılı olmayaraq bütün enerji və bacarığını həsr etməklə müdafiə edən bir vəkil olub. Onlarla tənqidçi jurnalistlərin işlərini aparıb, Avropa Məhkəməsinədək. Məsələn, hakimiyyətin əsas tənqidçilərindən olan Qənimət Zahidin vəkilidir və Elçin Sadıqovun şikayəti əsasında Avropa Məhkəməsi onun hüquqlarının pozulmasını tanıyıb. Belə misallar çoxdur. İndi onun belə bəyanatı işlərinin üzərinə nədən kölgə salmalıdır ki? Üstəlik, həm də MHİ-nin də.

Müdafiə etdiyimiz şəxslərin əksəriyyəti hökuməti tənqid edən şəxslər olsa da onlar anlamalıdırlar ki, MHİ siyasi qurum deyil, ondan siyasi loyallıq tələb etmək düzgün deyil. Elə media, eləcə də vətəndaş qurumları tanıyıram ki, orada fərqli siyasi düşüncələri olan şəxslər birlikdə çalışırlar. Belə təşkilatlar üçün bu normal haldır, hətta onların üstünlüyüdür.

***- Amma bir qrup şəxslər bunu əsas gətirərək E.Sadıqovun və MHİ-nin xidmətlərindən imtina etdiklərini bəyan ediblər?***

- İmtina təşəbbüsünü Xədicə İsmayıl başlayıb. Siyasi məhbuslar siyahısını imzalamadığımızı deyən kimi bizə bildirmədən dərhal onun işlərini birgə apardığımız partnyorlarımıza yazıb və bildirib ki, MHİ-dən və məndən imtina edir. Uzun zamandır biz onu və digər jurnalistləri çətin hüquqi durumlarda müdafiə etməyə çalışmışıq. İstintaqlarda, məhkəmələrdə onlarla birgə olmuşuq. Ölkə daxilində edə bilmədiyimizi Avropa Məhkəməsinə çıxarmışıq. Məhz MHİ-nin köməyilə həm Xədicə İsmayılın, həm də başqalarının işlərini Avropanın ən tanınmış hüquq şirkətləriylə, vəkilləriylə birlikdə yüksək keyfiyyətlə hazırlamışıq və aparmışıq. Amma hər kəsin hüququdur ki, istədiyi vəkili seçsin, prosesin istənilən mərhələsində vəkilindən imtina etsin və s. Hər kəsin seçiminə hörmətlə yanaşırıq.

***- Donorlarla MHİ arasında əməkdaşlıqda problemlər olduğu barədə xəbərlər nə dərəcədə doğrudur?***

- GHT-lərə təzyiqin ağır nəticələrini MHİ də yaşamaqdadır. MHİ-nin də bank hesabları bağlıdır. Bizim partnyor olduğumuz beynəlxalq və yerli QHT-lərdə ciddi yoxlamalar gedir, bəziləri barədə cinayət işləri var, həbsə atılanlar var. MHİ-nin əvvəllər işlədiyi donorlar da artıq Azərbaycanda işləyə bilməyəcəklər. Səbəbləri hər kəsə bəllidir. MHİ yeni müqavilələr bağlamaq və işlərini davam etdirmək imkanından məhrum olub. MHİ ətrafında bəzi şəxslərin apardığı zərərli gözdənsalma kampaniyası da onun nüfuzuna ciddi zərər vurub və donorlarla işləmək imkanına ciddi təsir edib.

İndi MHİ-nin işində ciddi problemlər yaranıb. MHİ öz donorlarını itirib və strateji planlarına uyğun fəaliyyətləri, yəni tənqidçi jurnalistlərin və ifadə azadlığından istifadəyə görə hüquqi problemlərlə üzləşən şəxslərin müdafiəsinə maliyyə ayıra biləcək donorlar tanımır. MHİ yalnız qrantlarla maliyyələşdirildiyindən və bu mənbələrdən məhrum olduğundan artıq ofisi saxlamaq və vəkillərin xidmətini ödəmək imkanından məhrumdur. Onun bu sahədəki sonrakı fəaliyyəti mümkünsüzdür.

❑ Röya RƏFİYEVA

**Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutunun qapadılmasından sonra qurumun rəhbəri Emin Hüseynov faktiki olaraq yoxa çıxıb. Bir müddət yerli mediada E.Hüseynovun ABŞ-ın Azərbaycandakı səfirliyində gizlənməsi ilə bağlı xəbər yayılsa da, sonradan səfirlik bəyanat yayaraq RATİ rəhbərinin gizlədilməsi xəbərini təkzib etdi.**

# Bakıda amerikalıların ikinci "Arqo" əməliyyatı - Qaçırılan kimdir?

## NATO-nun Bakı İnstitutunun rəhbəri nəyə işarə edirdi; Emin Hüseynov barədə 10 il sonra film çəkiləcəkmi?; Amerika kəşfiyyatının ən uğurlu proseslərindən birinin hekayəti...

Emin Hüseynovun ailə üzvləri və RATİ-nin əməkdaşları da onun harada olmasından xəbərsizdir. Baş Prokurorluğun mətbuat xidməti Emin Hüseynovla bağlı hər hansı məlumata malik deyil. RATİ rəhbərinin yerinin mübhəm olması mediada onunla bağlı müxtəlif versiyaların gündəmə gəlməsinə səbəb olub. Onlardan biri də Emin Hüseynovun ABŞ səfirliyinin diplomatik nişanlı avtomobilində ölkədən çıxarılmasıdır. İddialara görə, QHT rəhbərinin həbsindən xəbərdar olan səfirlik onu xidməti avtomobildə ölkə sərhədlərindən çıxararaq, Gürcüstana aparıb. Oradan isə Hüseynov Osloya göndərilib. Ancaq bütün bunlar hələlik versiyadır və ortada hər hansı rəsmi məlumat yoxdur.

Ancaq bu günlərdə NATO-nun Bakı İnstitutunun prezidenti Fərrux Məmmədov maraqlı status paylaşıb. Ad çəkməsə də, statusunda İslam inqilabından sonra Tehranda ABŞ səfirliyinin əməkdaşlarının girov götürülməsi əməliyyatı zamanı gizlənmiş bir neçə amerikalının xilas olunmasından bəhs edən "Arqo" əməliyyatını xatırladıb. Sitat: "Dəyərli dostlar. Yəqin ki, "Arqo" filminə baxmısınız. İran İslam İnqilabından sonra Amerika diplomatlarının İrandan necə çıxarılmaları əks olunub həmin filmdə. Bu hadisələr reallıqda baş verib və daha sonra film kimi çəkilib. Bu demək olar ki, CİA-nın (Mərkəzi Kəşfiyyat İdarəsi) ən uğurlu əməliyyatlarından biridir. Hətta film Oskar mükafatı alıb. 10 ildən sonra Azərbaycanla bağlı belə bir film çəkilsə, heç də təəccüblənməyərəm".

Qeyd edək ki, F.Məmmədovun məlumatlı şəxs olması və statusun məhz E.Hüseynovun ABŞ səfirliyində gizlədilməsi iddiaları ilə eyni zamana təsadüf etməsi marağımızı cəlb etdi. Doğrudur, F.Məmmədov statusunda konkret olaraq E.Hüseynovu nəzərdə tutmadığını qeyd etsə də, bunu versiyanı tam olaraq istisna da etmədi. Yalnız onu bildirdi ki, Bakıda bu cür əməliyyatlar olub və bir neçə adam qaçırılıb.

Bəs "Arqo" əməliyyatı nə deməkdir? Yeri gəlmişkən, qeyd edək ki, "Arqo əməliyyatı" adlı film bir neçə il əvvəl çəkilib və Oskar mükafatı alıb. Filmin rejissoru tanınmış Hollivud aktyoru Ben Aflek olub. Ancaq film eyni zamanda İran və ABŞ münasibətlərində gərginliyə səbəb olub. İran hökuməti real hadisələr əsasında çəkildiyi iddia olunan filmdə xeyli təhriflərin olduğunu bəyan edərək cavab olaraq "Baş Qərargah" adlı film çəkəcəyini bəyan edib.

"Arqo" filminə gəldikdə, hər nə qədər mübahisəli görünsə də, indi məlum olur ki, baş verənlərin bir qismi həqiqətdir. Bunu isə filmdə haqqında bəhs olunan səfirlikdən qaçan və daha sonra İrandan gizli bir əməliyyatla qaçırılan 6 nəfər amerikalıdan ikisi - ər-arvad Mark və Core Lijeklər BBC-yə danışıblar. Filmin ssenarisi isə qısaca olaraq belədir: 1979-cu il noyabrın 4-də İranda İslam inqilabından bir neçə ay sonra (Şah əvvəlcə Misirə qaçmışdı, sonradan Amerikaya getdi - K. R.) Şahın Amerikaya qaçması və onun burda müalicə almasına etiraz edən iranlı tələbələr Tehrandakı ABŞ səfirliyinə hücum edir. Səfirlik ələ keçir və 66 nəfər personal girov götürülür. Girovlar 444 gün İranda saxlanıldıqdan sonra azad edilir. Onlardan yalnız 14 nəfər bir qədər tez buraxılır. ABŞ ordusunun girovları azad etmək üçün başlatdığı əməliyyat isə uğursuzluğa düçar olur, qum fırtınası nəticəsində desant helikopterlərindən biri və bir təyyarə qəzaya uğrayır.




Noyabrın 4-də iranlı tələbələr 13 komandosun qoruduğu səfirliyə hücum edib diplomatları girov götürəndə 6 nəfər diplomat qaçaraq xilas ola bilir. 6 nəfər səfirlik əməkdaşı, Lijek ailəsi də daxil olmaqla, Kanada səfirinin və İngiltərə səfirinin evlərində gizlənirlər. Filmdə 6 nəfər birgə olsa da, Lijeklər onların ikiyə bölünərək gizləndiyini qeyd edir.

6 amerikalı Kanada səfirliyinin əməkdaşı Con Şerdounun evində qalsalar da, filmdə olduğu kimi daim gizlənməyiblər və həyətə çıxıb gəzişə biliblər. Ancaq Con Lijek bildirib ki, "Arqo" filmində də olduğu kimi, onları həqiqətən də Amerika istehsalı olan bir elmi-fantastik filmin çəkilməsi görüntüsü altında qaçırıldıqlarını təsdiqləyib. Ancaq əslində filmdə göstərildiyi kimi elmi-fantastik filmin çəkiliş qrupu kimi qeydiyyata alınan saxta çəkiliş heyəti Tehran küçələrini gəzib dolaşa bilməyib.

6 səfirlik əməkdaşını Tehrandan qaçırmaq üçün CİA-da qərargah qurulur və hazırlanmış plana əsasən "Arqo" adlı elmi-fantastik filmin çəkilməsi işləri başlayır. Çəkiliş planına əsasən, filmin bəzi hissələri də İran ərazisində lentə alınmalı imiş. Bu əməliyyatın İrandakı işlərini özbək əsilli müsəlman Nəzər təşkil edir. Əməliyyat 11 gün davam edir və "Hollivud"da qurulan saxta "Altıncı studio" "Arqo" filmini çəkmək üçün saxta hazırlıqlara başlayır. Los Anceles şəhərlərində dərc olunan kino jurnallarda "Arqo" filminin çəkilişlərinin başlaması ilə bağlı elanlar verilir. Daha sonra CİA agentləri kino çəkilişləri adı ilə Tehrana gedərək 6 səfirlik əməkdaşını Tehran Hava Limanı vasitəsilə İrandan çıxarır və Amerikaya aparırlar.

**Əlbəttə, filmdə baş verənlərin neçə faizinin həqiqət olduğunu yəqin ki, heç zaman bilməyəcəyik. Ancaq bununla belə, mütəxəssislərə görə, qatılan dramatizm elementlərinə baxmayaraq həqiqətən "Arqo" əməliyyatı CİA-nın tarixində ən uğurlu əməliyyatlardan biri hesab olunur. Ən mühümü də odur ki, məhz bu əməliyyat nəticəsində həqiqətən də ABŞ-ın 6 diplomatı Tehrandan çıxarılıb.**

**❑ K.RÖVŞƏNOĞLU**

# Almaniya kəşfiyyatı 5 ildir Türkiyə iqtidarını niyə dinləyirmiş...

## Hökumət buna görə Türkiyə iqtidarından üzr istəməyə hazırlaşır; **Ərəstun Oruclu:** "Hər bir dövlətin öz maraqları var, hətta strateji müttəfiqlər olsa belə"

**Dünyanın nəhəng dövlətləri arasında telefon danışıqlarını dinləmə qalmaqalları bitmək bilmir. Bir qədər əvvəl ABŞ Milli Təhlükəsizlik Agentliyinin 35 dünya liderinin telefon danışıqlarını dinləməsi haqda xəbərlər yayılmışdı. Britaniyanın "Guardian" qəzeti bu məlumatı MKİ-nin keçmiş əməkdaşı Edvard Snoudenin təqdim etdiyi sənədlərə əsasən yazıb.**

Eyni zamanda bu günlərdə məlum olub ki, Hillari Klinton ABŞ dövlət katibi olarkən, Almaniyanın xüsusi xidmətləri onun hökumət təyyarəsində telefon danışığını dinləyiblər. O da məlum olub ki, ABŞ-ın hazırkı dövlət katibi Con Kerrinin də telefon danışıqları almanlar tərəfindən lentə alınıb. Bundan başqa, Almaniya hökumətinin 2009-cu ildə kəşfiyyat qurumu BND-yə Türkiyədə kəşfiyyat fəaliyyəti, dinləmələr həyata keçirmək üçün təlimat və səlahiyyət verdiyi üzə çıxıb.

"Der Spiegel" jurnalına açıqlama verən Almaniya hökumətinin rəsmiləri gələn həftənin əvvəlində Türkiyə hökuməti ilə təmas qurulacağını və Almaniya hökumətinin bu olayla bağlı Türkiyədən üzr istəyəcəyini bildiriblər. Ancaq istənilən halda bu məlumatlar dünyanın müttəfiq olan iri ölkələrinin arasında etimad limitinin sıfır vəziyyətində olduğunu, böyük dövlətlərin biri-birini dinlətdirdiyini, daxili məlumatlarını ələ keçirməyə səy göstərdiyini nümayiş etdirir. Almaniya, ABŞ və Türkiyə NATO-da strateji müttəfiq, bir blokun üzvləri olduqları halda hətta bu ölkələrin belə dinlənilməsi təhlükəsizlik və kəşfiyyat sahəsində "içəridə" ciddi mübarizənin getdiyini göstərir.

"Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Ərəstun Oruclu hətta müttəfiq ölkələrin biri birini izləməsini, dinləməsini kəşfiyyat praktikasında normal hal hesab edir. Ancaq ekspert bu xəbərlərdə "siyasi yükün" olmasını da istisna etmir: "Nə qədər qanunsuz fəaliyyət olsa da, əslində normal bir praktikadır. Hər bir dövlətin öz maraqları var, hətta strateji müttəfiqlər olsa belə. Bu baxımdan bu praktikanın həyata keçirilməsində qeyri-adi nəsə görmürəm. Mümkündür ki, hansısa məsələləri dəqiqləşdirmək, lazımi məlumatları əldə etmək üçün bu yola əl atılır. Eyni zamanda istisna da eləmirəm ki, bu məlumatların böyük bir hissəsi bir çox hallarda şişirdilir. Çünki Almaniya, ABŞ və bu kimi nəhəng, texnologiyaları inkişaf etmiş ölkələrin rəhbərlərini dinləmək bu dərəcədə asan bir iş olsun. Bir çox hallarda bu cür məlumatlar sensasiya, yaxud da siyasi mesaj xarakteri daşıyır. Ancaq birmənalı istisna etmək də olmaz".



Ərəstun Oruclu

**Konkret olaraq alman kəşfiyyatının Türkiyə rəsmilərini dinləməsinə gəlincə, Ə.Oruclu bu məlumatı inandırıcı sayır. Onun fikrincə, Almaniya hakimiyyəti üçün Türkiyə hökumətinin xüsusən də Almaniyadakı türk icması ilə siyasəti maraq doğurur:** "Almaniya xarici kəşfiyyatı BND-nin Türkiyə hökumət rəhbərlərini dinləməsi ilə bağlı sızdırılmış məlumatda deyilir ki, Türkiyə hökumətinin Almaniyadakı Türk icmasının siyasi fəaliyyətinin öyrənilməsi üçün bu həyata keçirilib. Bu ağlabatan görünür və yaxud da bunu kimsə bu cür ağlabatan düşünüb. Çünki bildiyimiz kimi Almaniyadakı türk icması siyasiləşmiş icmadır, baxmayaraq ki, Almaniyadakı türklərin bir çoxu artıq bu ölkədə doğulub böyümüş insanlardan ibarətdir. Ancaq onlar Türkiyə ilə bu və ya digər şəkildə bağlılıqlarını qoruyub saxlayırlar. Müəyyən proseslərdə iştirak edirlər. Təsadüfi deyil ki, prezident seçkilərindən öncə Ərdoğan məhz Almaniyaya səfər elədi. Bundan başqa Türkiyədən siyasi baxışlarına görə qaçan xeyli sayda insan hazırda Almaniyada məskunlaşıb. Türkiyə xüsusi xidmət orqanları bu insanları təqib edirlər. Bu mənada Almaniyada kəşfiyyatının bu prosesi nəzarətdə saxlamaq üçün Ankarada dinləmələr apardığını düşünmək olar".

**ABŞ və Almaniya arasındakı qarşılıqlı dinləmə iddialarına gəlincə, Ə.Oruclu deyir ki, indi artıq tərəflər "dinləmə iddialarına görə bərabər hesabdadırlar". Politoloqa görə, dinləmə iddialarının siyasi-diplomatik böhrana çevrilməsi yalnız bir halda mümkündür ki, tərəflərdən birinə qalmaqal yaratmaq lazım olsun:** "Amerika və Almaniyada qarşılıqlı dinləmə iddiaları ortaya çıxdı və bir növ əvəz-əvəz oldular. Dinləmə iddialarının qalmaqala çevrilməsi mümkündür. Bu cür hadisələr adətən siyasi qalmaqalların yaranması üçün bəhanə kimi istifadə oluna bilir. Əslində isə fakt olaraq hər kəs bilir ki, elektron poçtu, telefon şəbəkələrini, yazışmaları dinləmək, ələ keçirmək mümkündür. İndiki şəraitdə bu az qala siyasətin ayrılmaz bir elementinə çevrilib. Qalmaqal yaratmaq lazım olanda bu cür faktlara istinad edirlər. Sovet dönəmində ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin bir əməkdaşı SSRİ-yə qaçmışdı. Həmin şəxs hərbi dəniz donanmasında çalışmışdı. Həmin şəxs etiraflarında bildirişdi ki, Aralıq dənizində olan Amerika hərbi gəmisindəki kəşfiyyat-rabitə texnologiyalarının vasitəsilə İsraildə kəşfiyyat aparır, dinləmələr həyata keçirib. Həmin şəxsin dediyinə görə, hətta o öz rəhbərliyinə bu barədə sual verib ki, axı İsrail bizim müttəfiqimizdir, onları niyə dinləyirik. Ona cavab veriblər ki, müttəfiqlik öz yerində, milli maraqlar öz yerində. Yəni artıq bu cür kəşfiyyat fəaliyyətləri bir növ normal atributa çevrilib. Ona görə də güman etmirəm ki, kimsə bunu ciddi qəbul edib qalmaqal yaratsın, ancaq təbii ki, qalmaqal yaratmaq istəyəndə bu kimi "səbəblərdən" istifadə edirlər".

**❑ KƏNAN**

YENİ MÜSAVAT
N 207 (5916) 19 avqust 2014

**Artıq iki gündür ki, internetdə Azərbaycan Respublikası Prezidenti yanında Gənclər fondunun maliyyə dəstəyi ilə "Addım" GİM ictimai birliyi "Müasir təbliğat" (filmlər) layihəsi çərçivəsində 741 saylı hərbi birləşmənin komandiri Məhərrəm Seyidovun şücaətli həyat yolu və döyüş qəhrəmanlığına həsr olunmuş "Amasiyadan olan unudulmuş qəhrəman" adlı sənədli film yayılır. İki gün ərzində izlənmə rekorduna çatan film 20 il sonra təsadüf nəticəsində üzə çıxan videokadrlar əsasında çəkilib.**





# 102 erməni öldürən amasiyalı unudulmuş qəhrəman

## Komandir Məhərrəm Seyidovun həyatı barədə ibrətamiz faktlar





**Filmin əsas məqsədi erməni işğalçılarına qarşı mübarizədə şəhid olmuş Məhərrəm Seyidovun qəhrəmanlıqları kontekstində dünya ictimaiyyətinə Qarabağ münaqişəsi barədə həqiqətləri çatdırmaqdan ibarətdir. Çəkilişlər zamanı İTV və ANS-in youtube sosial şəbəkəsində yerləşən videokadrlarından, həmçinin fotoreportyorların karabakh-doc.azerall.info saytında yerləşən materiallarından da istifadə olunub.**

M.Seyidovu tanımayanlar üçün qısa məlumat. 1966-cı ilin 1 mayında Ermənistanın Amasya rayonunun Əzizbəy kəndində anadan olub. Seyidovlar ailəsinin ilk uşağıdır. Kiçik yaşlarından sambo və cüdo ilə məşğul olub. Daha sonra idman üzrə dərəcə alıb, Donetskdə Ali Hərbi Siyasi Məktəbdə təhsil alıb, Sovet dövründə ozamankı Sovet İttifaqının müxtəlif bölgələrində qulluq edib. 1987-ci ildə Ukraynada hərbçilər arasında cüdo üzrə qalib seçilib. 1 yanvar 1988-ci ildə məşhur "Sport" qəzetində də onun barəsində geniş məqalə yazılıb. Məqalədə diqqət çəkən bir cümlə: "Hazırda Seyidovun imkanlarına tay olan idmançı yoxdur".

Qəhrəmanımızın bundan sonrakı həyat yolu da öz ilginc detalları ilə diqqət çəkir. Sözügedən zaman o, Rusiya ordusunun kadrlı zabiti olub. Dağlıq Qarabağda hərbi əməliyyatlar başlanan kimi Rusiyanın Müdafiə Nazirliyinə istefa ilə bağlı müraciət edib. Ondan dərhal sonra Azərbaycana yollanıb və Milli Ordunun sıralarına qoşulub. Rusiyada bütün əmlakını, evini qoyub ölkəyə qayıdan M.Seyidovun tez-tez təkrar etməyi sevdiyi bir fikir varmış: "Məhz belə günlərdə Azərbaycana mənim kimi kadrlı zabitlər lazımdır". Azərbaycan bayrağını Şuşada qaldırmaq onun ən böyük arzusu olub. M.Seyidov əmin idi... o gün mütləq gələcək...

**Filmdə M.Seyidovun əsgəri olmuş Məhərrəm Süleymanov da öz xatirələrini bölüşür.** Mərhum komandiri haqqında dediyi bu kəlmələr isə yaddaşa ilişib qalır: "O bizim təkcə komandirimiz yox, həm də qardaşımız idi. Beyləqan, Ağcabədi və Xocalı istiqamətlərdə döyüşlərdə iştirak edib. Əgər mən bu gün sağamsa, ancaq onun sayəsindədir. O, bizim yanımızda olanda heç nədən qorxmur, ancaq irəliyə doğru gedirdik".

Maraqlıdır ki, M.Seyidovu 1994-cü ildə Tərtərdə çəkilən videolar sayəsində aşkar etmək və daha sonra onun qəhrəmanlıqlarını ictimaiyyətə tanıtmaq mümkün olub.

**M.Seyidovun döyüş yoldaşı Ağaəli Əmrahovun dediklərindən:** "Gözəl idarəetməsi var idi. Qısa müddət ərzində şəxsi heyətin hörmətini qazanmağı bacarmışdı. Əsgərlərlə yaxşı davranmağı bacardığı üçün onlar da ona qardaş kimi yanaşırdılar".

O, hər zaman döyüşlərdə şəxsən iştirak edir, yaxşı döyüş texnikasına malik idi. Hər zaman əsgərləri ilə çiyin-çiyinə vuruşduğu üçün əsgərlərin də qələbəyə inamı çoxalırdı.

**Ona hər zaman deyilirdi ki, komandir şəxsən döyüşlərdə iştirak etməməlidir. Amma onun cavabı belə idi:** "Əgər mən orda olmasam, əsgərlər qələbə üçün inamla döyüşməyəcək".

Tez-tez ermənilər ratsiya ilə ona xəbərdarlıq edirdilər. Deyirdilər ki, Məhərrəmi şəxsən tanıyırlar, onun harda doğulması barədə məlumatlıdırlar və onun başına böyük pul mükafatı qoyublar. Məhərrəm özü isə bu xəbərdarlıqlara həmişə yumorla yanaşırdı. Cavabı isə düşündürücü idi: "Əgər ermənilər mənə bu qədər nifrət edirlərsə deməli, onlara ciddi problem yaratmağı bacarmışam".

**Döyüş dostlarından olan Namiq Cəlilovun sözlərinə görə, M.Seyidov əslən Qərbi Azərbaycandan olduğu üçün erməni dilini də bilir və ermənilərə elə onların öz dilində, ratsiya ilə layiqli cavab verirmiş.**

Oxucuların nəzərinə çatdıraq ki, M.Seyidovun qardaşı Həsən Seyidov da onunla eyni vaxtda, amma 10 kilometr aralıda Məhərrəm qardaşının hərbçi olmasını istəyib. Buna görə də illər öncə qardaşını hərbi məktəbdə oxuması üçün Rusiyaya aparıb.

**Qardaşı Həsən Seyidovun dediklərindən:** "Məndən hər zaman soruşurlar ki, Məhərrəm sənin üçün kimdir? Mən də deyirəm ki, o mənim üçün həm qardaş, həm ata, həm də döyüş yoldaşı, vətənpərvər olub. O, məni hərbçi kimi görmək istəyirdi. Müharibə başlayan kimi mən də Rusiyada təhsilimi yarımçıq qoyub Azərbaycana orduya gəldim".

**M.Seyidovun Murad və Səməd adlı iki övladı olub. Ataları döyüşə gedəndə Səmədin 5, Muradın isə 2 yaşı olub. Məhz adını çəkdiyimiz videokadrların sayəsində Murad aradan 20 il keçəndən sonra atasını görə bilib. Murad deyir ki, həmin günə qədər atasını görməsə də, kadrları izləyəndən sonra özünə verdiyi sual belə olub: "Mən niyə bu günə qədər bu kadrları görməmişəm?"**

Ən böyük arzusu atasını görmək olub: "O kadrları izləyəndə onun necə danışdığını, necə göründüyünü hiss etdim. Mən onu 2 yaşında görmüşəm. Hər zaman düşünmüşəm ki, mənim heç vaxt atam olmayıb. Qardaşım da, özüm də atamdan keçən bəzi cəhətləri kəşf etdik. Videoya baxdığım gecə mən sevindiyimdən yatmamışam. Videonu 5 fevralda gördük. 6 fevralda isə mənim ad günüm idi. Bu, mənim ad günümə ən dəyərli hədiyyə idi. Qabağıma lap qızıl da töksəydilər, mənim üçün heç bir əhəmiyyəti olmazdı. Çünki mən atamı görmüşdüm".

**Digər oğlu Səməd Seyidov isə film boyu atasının şəkillərini nümayiş etdirir. Deyir ki, o, bütün şəkillərdə pozitiv olub, gülüb. 21 yaşlı Murad İB Gənclər Məclisinin spikeri olub. Gənclər Məclisinin tədbirlərindən birində çıxış edən Murad orada atasından danışır:** "Mən atamı 1994-cü ildə itirmişəm. Həmişə fəxr etmişəm ki, atam şəhiddir".

Elə həmin tədbirdə onları bu günlərə çatdıran anasına, M.Seyidovun arxasında dayanan, onu güclü edən qadına təşəkkür edir. Çıxışın sonunda oğlunun yanına gələn ana onunla qucaqlaşır. Amma film boyu bu fədakar qadının hər hansı çıxışı yoxdur, sadəcə ailəvi çəkilən fotolarda görmək mümkündür.

**Və qəhrəman komandir üçün yolun sonu... Əsgərləri, döyüş yoldaşları bu günü xatırlayır, onun son sözlərini unutmur...**

Qardaşı H.Seyidov: "Mən bir şeyi unuda bilmirəm. Biz axırıncı dəfə sağollaşanda o, mənə dedi ki, Həsən, mən səninlə fəxr edirəm. Əgər sən ölsən, mən ağlamayacağam. Əksinə, fəxr edərəm. Amma səndən də xahişim var ki, mən də ölsəm, sən ağlama. Fəxr elə ki, qardaşın bu torpaq uğrunda şəhid olub".

M.Seyidovun döyüş yoldaşı Namiq Cəlilov isə deyir ki, onun ölümü barədə 1994-cü il mayın 1-də, axşam saatlarında xəbər tutublar: "Dərhal da onun meyitinin tapılması üçün axtarış qrupu təşkil edildi. Mayın 3-də onun qanaxma nəticəsində dünyasını dəyişməsini əsgərlərdən biri aşkar etdi. İki gün sonra Şəhidlər Xiyabanında dəfn edildi".

Və yadda qalan sitatlardan biri... M.Seyidovun digər qardaşına onun ölüm xəbərini əsgərləri məhz belə verib: "Bizim atamız ölüb..."

1999-cu ilin mayında Sahil qəsəbəsində onun adına olan küçədə büstü də ucaldılıb.

**Film M.Seyidovun əsgərlərinə dediyi və videokadrlarda da öz əksini tapan o unikal sitatla yekunlaşır: "Ermənilərin heç vaxt öz torpağı olmayıb. Ona görə də Azərbaycan torpağından həmişə bir parça oğurlamaq istəyiblər".**

❑ **Hazırladı: Sevinc TELMANQIZI**

# Sərhəd kəndlərində sakitlikdir

**Cəbhə xəttində iyulun 31-də başlayan və bir neçə gün davam edən atışmadan artıq 18 gün ötür. Həmin günlərdə 15-dən çox əsgərimiz şəhid oldu, vətəndaşlarımız ciddi narahatlıq yaşadılar.**



Bəs cəbhədə hazırkı durum necədir? Sərhəd kəndlərindən məlumat verən yerli sakinlər son günlərdə atəşkəsin pozulmadığını, həyatın öz axarına düşdüyünü deyirlər.

Sabiq komandir, Əlibəyli kənd sakini Etibar Əmiraslanov kənddəki son durumla bağlı bunları dedi:

"Tamam sakitlikdir. Elə bil qurbağa gölünə daş atmısan. Sanki 10 gün qabakı atışma heç olmayıb".

Buradaca nəzərinizə çatdıraq ki, Əlibəyli kəndi Tovuzun düşmən postu ilə üzbəüz mövqedə yerləşir. Lakin buna rəğmən Əlibəylinin sərhəd kəndi status yoxdur, yerli sakinlərdən qaz, su, işıq pulu alınır.

Ağdam rayonun Səfərli qəsəbəsi sakini Sevindik Məmmədov da son 3-4 gün ərzində heç bir atışmanın olmadığını bildirdi.

**Bölgə müxbirimiz Hikmət Carçılı Orhun da Qazaxın Quşçu Ayrım, Məzəm, Bala Cəfərli kimi sərhəd kəndlərində sakitlik olduğunu, son günlərdə atəşkəsin pozulmadığını bildirdi.**

❑ **Fəridə ABDIYEVA**

# Nüfuzlu şirkət dörd hərflik sözün güdazına getdi

**Paytaxtda fəaliyyət göstərən iri dükanlardan "Coca-Cola" firmasının içkiləri yığışdırılır. Bu barədə musavat.com-a paytaxt sakinləri məlumat veriblər. Bildirilir ki, "Coca-Cola", "Fanta" və sair içkilər kütləvi şəkildə satışdan çıxarılıb: "Bir neçə marketdə axtardım, tapmadım. Alıcılar sadəcə bildirirlər ki, artıq dükanda bu məhsullar satılmır. Ancaq səbəb göstərmirlər".**




# "Coca-Cola"nın nidası qoyuldu!




## Azərbaycanda Amerikanın məşhur firmasının içkilərinin satışı qadağan edilir; Bakıdakı iri marketlərin vitrinlərindən "Coca-Cola", "Fanta", "Sprite" yığışdırılır, onların əvəzinə "Pepsi" məhsulları satılır; prosesin arxasında "NİDA"nın olduğu deyilir

"Coca-Cola" firmasının məhsullarının əsasən iri marketlərdə - "Grand", "Neptun" kimi ticarət obyektlərində satışına qadağa qoyulduğu deyilir.

Əməkdaşımız paytaxtdakı iri marketlərdən bir neçəsinə baş çəkib və vəziyyətlə maraqlanıb. Əməkdaşımız "Grand" marketlər şəbəkəsinə aid mağazaların vitrinində "Coca-Cola"-nın bir dənə də içkisini tapa bilməyib. Satıcılarla söhbətləşən əməkdaşımız bunun dəqiq səbəbini öyrənə bilməyib. Satıcılar bildiriblər ki, həmin içkilərin satışdan çıxarılması iki gün əvvəldən başlanıb. Həmin içkilərin yerinə isə vitrinlərə "Pepsi" içkiləri düzülüb.

"Bizim Market" mağazalar şəbəkəsində isə "Coca-Cola"-lar satışdan çıxarılmasa da, satıcı deyib ki, bu günə planlaşdırılır. Artıq həmin vitrinə "Pepsi" içkisi düzüləcəyini deyən satıcının sözlərinə görə, bu qərarın səbəbini bilmirlər. "Neptun" mağazalar şəbəkəsində də oxşar vəziyyətdir.

Qeyd edək ki, bir müddət əvvəl bir neçə ölkədə "Coca-Cola"-dan imtina barədə çağırışlar səslənmişdi. İsrailin Fələstində törətdiyi qətliamlara və bombardmanlara ən sərt etiraz edən ölkələrdən biri olan Türkiyədə keçirilən çeşidli etiraz aksiyalarından biri də məhz İsrail məhsullarının boykotu ilə bağlı idi. Nəticədə Türkiyədə bir çox marketlər İsrailə məxsus malları, o cümlədən "Coca-Cola" firmasının içkilərini satmaqdan imtina etmişdilər.

Türkiyədə sıravi vətəndaşlar da "Coca-Cola", "Fanta", "Sprite" içkilərini açıq şəkildə boykot edib kampaniyanın şərtlərinə görə, firma öz məhsullarının üstünə insan adları, həmçinin müraciət formaları yazır. Bu kampaniya bir neçə aydır ki, davam edir. Kampaniya müştərilərdə maraq və rəğbət oyatmaq üçün aparılan xüsusi bir PR-dır. Amma bu "piar" "Coca-Cola" üçün xiyarı əyri bitirdi. Belə ki, kampaniyanın ən şiddətli dönəmində üstündə "NİDA" sözü yazılmış "Coca-Cola" içkisinin satışa çıxarıldığı haqda mətbuatda xəbər yayıldı. İlk vaxtlar bunun bir zarafat olduğu deyilsə də sonralar. Hətta boykot kampaniyası bələdiyyələr səviyyəsinə qaldırılıb. Azərbaycanda isə indiyədək "Coca-Cola"-nı açıq boykota rast gəlinməsə də, sosial şəbəkələrdə bu məhsulları boykot çağırışı edilib.

Ancaq bildirilir ki, "Coca-Cola"-nın məhsullarının iri marketlər şəbəkəsindən çıxarılmasının bu kampaniya ilə heç bir əlaqəsi yoxdur. Redaksiyanı bilgiləndirən mənbə iddia edir ki, "Coca-Cola" ilə bağlı baş verənlər siyasi sanksiyadır.

Bu sanksiyanın mahiyyətinə keçməzdən öncə bir xatırlatmaya ehtiyac var.

Bir müddət əvvəl "Coca-Cola" şirkəti Azərbaycanda fəaliyyətə başlamasının 20 illiyi ilə bağlı PR kampaniyası başladıb. Həmin dan məsələ ciddiləşdi. "NİDA"lı "Coca-Cola" məhsullarının gerçək olduğu bilindi. Bu sözhbətlər ortaya çıxan vaxtlar Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin mətbuat xidmətinin rəhbəri Fazil Talıblı "Yeni Müsavat"a açıqlama verdi. O, "Coca-Cola" qabları üstündə adların yazılması ilə bağlı araşdırma apardıqlarını bildirmişdi. F.Talıblı N!DA Vətəndaş Hərəkatının qablar üzərində yazılmasına da münasibət bildirmişdi: "Bu haqda məlumatı mətbuatdan, sosial şəbəkələrdən əldə etmişik.

Ümumiyyətlə bu məsələləri öz səlahiyyətimiz çərçivəsində araşdırmışıq. Qüvvədə olan qanunvericiliyin tələblərinin hansı səviyyədə pozulması ilə bağlı da bəzi araşdırmalarımız olub".

F.Talıblı "Yeni Müsavat"a onu da bildirmişdi ki, şirkət öz məhsullarının üzərində "NİDA" sözünün yazılmasını təkzib edib.

Amma necə deyərlər, ox yaydan çıxmışdı. Həmin vaxt bəzi media quruluşları Amerikaya bağlı "Coca-Cola" firmasının Azərbaycanda rəngli inqilabları təbliğ etdiyi haqda ortaya iddia atmışdı. Məlumata görə isə, şirkət istehsal etdiyi məhsulun üzərinə "NİDA" yazmaq qərarını hərəkat üzvləri tərəfindən edilən təklifdən sonra verib.

**"NİDA" Vətəndaş Hərəkatının İdarə Heyətinin üzvü Turqut Qəmbər** isə musavat.com-a açıqlamasında bildirdi ki, içkinin qabının üzərində "NİDA" sözünün yazılması təşkilatın təklifi və qərarı deyildi: "Bilmirəm, bu şirkətdə mexanizm necədir və hansısa sözü hansı şərtlərlə içkinin qabına yazırlar. Ancaq bizim təşkilatda bununla bağlı hər hansı müzakirə və qərar olmayıb. Bəlkə də bu, kiminsə şəxsi təşəbbüsü olub, amma mən bundan xəbərsizəm".

İyun ayında şirkətin məhsullarının üzərinə "NİDA" sözünü yazması geniş müzakirələrə səbəb olandan sonra şirkət açıqlama verərək baş verənləri təkzib edib. Mətbuata açıqlamasında şirkət bildirib ki, "Coca-Cola" siyasətə heç vaxt qatılmayıb və onlarda bu adda məhsul istehsal edilməyib.

Bundan sonra isə bildirilirdi ki, ölkədə fəaliyyət göstərən bir neçə böyük marketlər şəbəkəsi "Coca-Cola" ilə əməkdaşlığa son qoyub və şirkətə məxsus məhsulları satmaqdan imtina edib. Şirkət isə həmin marketlər şəbəkələri ilə danışıqlara başlamaq məcburiyyətində qalıb. Məlumata görə, danışıqlar üçün şirkətin mərkəzi ofisinin nümayəndəsi də Azərbaycana gəlib.

"Coca-Cola" Azərbaijan" isə baş verənləri "qara piar" adlandıraraq vəziyyətdən çıxmağa çalışıb və bildirilib ki, bu cür xəbərlərin şirkətə rəqib olan digər istehsalçılar tərəfindən həyata keçirildiyi ehtimal edilir.

Hazırda isə görünən odur ki, şirkətin rəsmilərinin ölkədə apardıqları danışıqlar uğursuz olub və sanksiya ilə üzləşiblər.

**Mövzunu diqqətdə saxlayacağıq.**

**❑ Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

# "Sovetski"də söküntü işləri sürətlənib

## Murtuza Muxtarov və Çingiz Mustafayev ünvanında onlarla ev uçurulub, kvadratı 1500 manatla razılaşmayanlar çoxdur, Abid Şərifov isə qiymət dəyişməyəcək dedi; müğənni Eyyub Yaqubovdan da açıqlama gəldi





**Bakının "Sovetski" məhəlləsində iki küçədə köçhaköç və sökhaksök başlanıb. Məlumata görə, Murtuza Muxtarov və Çingiz Mustafayev küçələrində onlarla ev boşaldılıb, mülk sahibləri mənzilin kvadratına 1500 manatdan təzminat alaraq evlərini tərk etməkdədirlər.**

Xəbərdə deyilir ki, qarşıdakı günlərdə bu iki ünvanda yerləşən evlərin bir çoxu söküləcək. Hazırda hansı ev sahibi çıxıbsa həmin mənzillər uçurulub. Bu məlumatı yerindəcə araşdırıb, "Sovetski" camaatından son vəziyyəti öyrənə bildik.

Məlum oldu ki, bu iki küçədəki söküntülər vətəndaşlar evlərini tərk edən kimi həyata keçirilib. M.Muxtarov və Ç.Mustafayev ünvanlarında tək-tük də olsa evlər uçurulub. Bu o adamlardır ki, mənzilin kvadratına 1500 manat kompensasiya ilə razılaşıblar.

Amma çoxluq hələ ki, hökumətin bu təklifi ilə barışmayıb. Bununla belə, sözügedən küçələrdə söküntünün miqyası getdikcə genişlənəcək. Küçə boyunca məhəllə adamları arasında bu məsələ ətrafında danışıqlar gedir. Görünən odur ki, insanlar köçüb getmək fikrindədirlər.

Onların sözlərinə görə, aşağı kvadratlı mənzil sahiblərinə güzəşt vəd edilsə də, elə bir nəticəsi olmadı. Məhəllədə keçirilən mitinqlərdəki tələblər yerinə yetirilmədi, baş nazirin müavini Abid Şərifovun verdiyi vədlər quru söz olaraq qaldı.

"Birlik olmadı. Camaatı aldatdılar. Hamıya vəd verdilər. Əvvəldən bilinirdi ki, yalan danışırlar, vaxt aparırlar. İndi də yaxşı variant tapıblar. Sovetskini başdan-başa sökmürlər. Qorxurlar ki, camaat ayağa qalxar. Ona görə də hissə-hissə, küçə-küçə sökürlər.

Ayda 20-30 ailə burden getsə, ilə gör nə qədər edir. Martdan bu yana camaata quru vədlər verdilər, axırda belə sakitlik yarandı. Bir qəpik də pul artırmadılar"-deyə M.Əliyev küçəsinin sakini Kamil Nərimanov deyir.

K.Nərimanovun qonşusu Fikrət Qasimov da söhbətə qoşularaq deyir ki, növbə ilə söküntü işləri davam edəcək. Həmsöhbətimiz sökülən evləri göstərərək danışır ki, bu hələ bütün camaatın razılaşması anlamına gəlməz:

"Kimisi fikirləşir xeyri yoxdur, pulumu alım çıxım. Amma camaatın əksəriyyəti gözləyir ki, görək hökumət nə qərar verəcək. Hələ Maliyyə Nazirliyi, Nazirlər Kabineti və Yasamal rayon icra hakimiyyəti kompensasiya məsələsinə yenidən baxır.

Əhali də təşkilat komitəsi adından təkliflər verib. Abid Şərifov da efirə çıxıb söz verdi ki, bir adamın razılığı olmadan heç bir ev sökülə bilməz. Yəni, zorakılıq edilməyəcək. Camaat da bundan sonra arxayınlaşıb oturdu.

Əvvəl bir həyəcan varıydı. Camaat elə bildi ki, bir ayın içində bütün məhəlləni sökəcəklər, çıxıb mitinq elədilər. Gördülər Abid müəllim deyir heç kəs evindən çıxarılmayacaq, hamı sakitləşdi. Bir yandan da səsini çıxaranı tuturdular. Qəzetlər də yazır ki, niyə Sovetski sakitləşdi?! Əşi nə edək çıxaq qışqıraq düzələcək? Onsuzda istədiklərini edirlər".

"Bakının "Sovetski" məhəlləsində evlərini müəyyən edilmiş şərtlərlə satmağa razılaşan 1600-dən çox əmlak sahibinin bank hesabına vəsait köçürülüb. Daşınmaz əmlak obyektlərində inventarlaşma işlərinin aparılması bir ay-ay yarıma başa çatacaq".

Bunu avqustun 18-də APA ttp://apa.az/-ya açıqlamasında baş nazirin müavini Abid Şərifov söyləyib.

A.Şərifov deyib ki, "Sovetski" məhəlləsində sahəsi kiçik olan evlərlə bağlı məsələyə də inventarlaşma başa çatandan sonra baxılacaq: "Biz sahəsi kiçik olan evlərə toxunmuruq. İnventarlaşma prosesi başa çatandan sonra sahəsi kiçik olan evlərlə bağlı təklif hazırlanacaq. Eyni zamanda evinin sahəsindən asılı olmayaraq, köçmək istəməyənlərin evlərinə də toxunulmur. Kim istəyir, qalıb yaşaya bilər".

Köçürülmə işləri yalnız könüllülük əsasında, hər kvadratmetr sahəyə 1500 manat verilməsi ilə apardığını xatırladan A. Şərifov qiymət məsələsinə yenidən baxılmayacağını da vurğulayıb.

Əməkdar artist Eyyub Yaqubov da "Sovetski" adlanan əraziyə qoşulmuş mahnı oxuyub.

Müğənni-bəstəkar Elçin İmanovla birlikdə həmin nəğməyə video-çarx hazırlayan E.Yaqubov yeni ifasından bəhs edib:

"Sovetski"nin təmtəraqla sökülməsi ərəfəsində bu mahnını Allah Elçin qardaşımıza ilham etdi. Doğrudan da, bəstədə deyildiyi kimi, bu "Sovetski" "vid-fasonu" olsa da, "yevropeyski" ürəklərdə yaşayacaq. Eşq olsun, bütün köhnə "Sovetski" adamlarına".

**❑ E.SALAMOĞLU**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 207 (5916) 19 avqust 2014

**Bir neçə gün əvvəl Bakıda bir ailənin iki üzvünün intiharına görə ailə başçısı həbs edilib. Hüquq-mühafizə orqanlarından musavat.com-a verilən xəbərə görə, Yasamal rayonunda ana və qızın intiharı ilə bağlı istintaq davam etdirilir. Bu istintaqın nəticəsi olaraq ailənin başçısı Asəf Fərzəliyev həbs edilib. Qeyd edək ki, hadisə baş verən gün Asəf Fərzəliyev Yasamal rayonu 29-cu polis bölməsində və Yasamal Rayon Prokurorluğunda dindirilə də, sərbəst buraxılmışdı.**





# Bakıda ana və qızın intiharında ailə başçısı suçlanlır

## Yaxınları da iki nəfərin ölümündə Asəf Fərzəliyevi ittiham edir, həmçinin qohumlarının da bu işdə əli olması istisna deyil

Daha sonra isə o, yenidən saxlanılıb. Onun arvadının və qızının ölümündə təqsirli bilinməsi istisna deyil.

Qeyd edək ki, bir neçə gün əvvəl Yeni Yasamal 2, ev 10 ünvanında 1968-ci il təvəllüdlü Kifayət Vəli qızı Abbasova və onun qızı, 1997-ci il təvəllüdlü Yeganə Asəf qızı Fərzəliyeva yaşadıqları binanın 9-cu mərtəbəsindən özlərini ataraq intihar ediblər. Onların intihar etməsinin səbəbləri hələlik məlum deyil. Polisdən bildirilib ki, iki üzvü intihar edən ailənin bir neçə gün əvvəl 14 yaşlı qızları itkin düşüb.

Rəsmi qurumlarla məlumatı dəqiqləşdirmək istəsək də, qeyri-müəyyənlik yarandı. Belə ki, KİV-də geniş müzakirələrə səbəb olan xəbərə Bakı Şəhər Prokurorluğu münasibət bildirib. Lent.az-ın xəbərinə görə, Bakı şəhər prokurorunun ictimaiyyətlə əlaqələr üzrə köməkçisi Günel Əkbərova bildirib ki, bir neçə gün əvvəl baş vermiş olaya görə, Asəf Fərzəliyevin həbs edilməsi xəbəri həqiqəti əks etdirmir: “Həmin fakta görə Yasamal Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə iş başlanılıb və iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir. Cinayət işi ilə əlaqədar intihar etmiş Kifayət Abbasovanın həyat yoldaşı və Aytac Fərzəliyevanın atası olan Asəf Fərzəliyevin həbs edilməsi xəbəri isə həqiqəti əks etdirmir”. O həmçinin qeyd edib ki, faktla bağlı hələ ki heç kəs həbs edilməyib.

Respublika Prokurorluğundan isə musavat.com-a bildirildi ki, Bakı Şəhər Prokurorluğunun yaydığı məlumat həmçinin onların mövqeyini əks etdirir: “Bu məlumatlar eyni mənbədən verilir və idarə olunur”. Yasamal Rayon Polis İdarəsindən isə bildirildi ki, atanın həbs edilməsi barədə onlarda heç bir məlumat yoxdur: “Biz bundan xəbərsizik, yaxşısı budur DİN-in mətbuat xidmətinə müraciət edin”. 29-cu polis bölməsindən isə bildirilib ki, ata Asəf Fərzəliyev bir neçə gün əvvəl şübhəli şəxs qismində saxlanılıb: “Ata saxlanılıb və hazırda iş bizdən alınıb”. DİN-dən isə gün ərzində suala cavab almaq mümkün olmadı.

İntihar edən ailənin, qızın yaxınları, həmçinin evdən qaçan kiçik qızı tanıyanlar isə musavat.com-un əməkdaşı ilə söhbət zamanı bildiriblər ki, faciə yaşanan ailədə illərdir ki, faciəvi durum yaşanırmış. “Ailədə illərdir ki, gərgin mühit vardı. Ata, əmilər həmin qızlara zülm edirdilər. Problemi oğlanın anası da gərginləşdirirdi. Uşaqlar aşağı siniflərdən məktəbdən çıxarılmışdı və ata onların oxumasına icazə vermirdi. Üç il əvvəl ata boşanaraq başqa qadınla evlənmək üçün bir müddət evdən də getmişdi. Sonra qayıtdı və üç otaqlı evdə onlarla yaşamağa başladı. Bundan sonra ananın və qızların həyatı daha da işgəncəli oldu”,- deyə adının çəkilməsini istəməyən ailə yaxınlarından biri bildirir. **Onun sözlərinə görə, ailədə daim mübahisə və münaqişə olması barədə intihar edən qız onlara danışıb:** “Bizə danışırdı dərdini. Evdən qaçan qız da hərdən deyirdi baş verənləri. Ata işləmirdi. Ailə onlara köçkün kimi verilən çörək pulu ilə güclə dolanırdı. Həmçinin evdən qaçan qız yaxınlıqdakı kafedə səhər tezdən gecəyə kimi qab yuyurdu. Həmin pulu da ata onların əlindən alıb içkiyə verirdi. Qızlar deyirdilər ki, ataları hər gün onları və analarını döyür. Hətta əmilər də qızlara qarşı kobud davranırdılar, işgəncə verirdilər. ata boşandığı halda, mənzillərdən birini zəbt edib orada yaşayırdı, həm də həmin ailənin, qızlara dövlət tərəfindən verilən müavinətin hesabına yaşayırdı”. Ailəni tanıyanlar bildirirlər ki, evdən qaçan qız hərdən onlara hər şeydən bezdiyini və evdən qaçmaq istədiyini deyirdi: “Deyirdi ki, o, evdən getsə, anası və bacısı köməksiz qalacaq. O, bundan qorxur. Çünki bacısı onun kimi diribaş deyildi, Aynur isə (ad şərtidir-red) bacarıqlı qız idi. On üç yaşından həm ailəni dolandırır, həm də anasını və bacısını atasının basqılarından müdafiə etməyə çalışırdı. Deyirdi ki, atası anasını döyərkən iki bacı qabağa keçirdilər ki, analarını atalarından qorusunlar. Nəticədə özləri də döyülürmüşlər”.

**Yaxınlarının bildirdiyinə görə, Aynurun evdən qaçması böyük ehtimalla atanın və digər qohumların davamlı basqıları, təzyiq və təhdidləri ilə bağlıdır:** “Qız atadan bezib evdən qaçıb, ana və o biri bacı da ola bilsin ki, qorxularından özlərini pəncərədən atıblar”. Həmçinin yaxınları ana ilə qızın öldürüldüyünü də istisna etmirlər: “Bunun üçün yaxşı olardı ki, ailənin 17 yaşlı oğlu da dindirilsin. Çünki o, həmin vaxt evdə olub. Həmçinin Bilal (ad şərtidir) həmişə bu davalarda kənardan izləyici olub, hətta atasının hərəkətlərini müdafiə edib. Onun istintaqa çağırılıb dindirilməsi bir çox məsələlərin üstünü aça bilər. Həmçinin Asəfin ona yaxın qardaşı var. Onların əksəriyyəti ailəsinə qarışır və ailədəki qadınlara zülm edirdilər. Həmin kişilərin bu faciədə nə dərəcədə rolu olub, bunu aydınlaşdırmaq lazımdır”.

**Yaxınları son olaraq bildiriblər ki, edən qadının əksər qohumları da baş verən hadisənin intihar olduğuna inanmırlar:** “Onlar əmindirlər ki, bu, evdəki kişilər tərəfindən, konkret olaraq Asəf tərəfindən törədilib, Bilal isə bu olayın ən azı şahididir”. Həmçinin bildirilir ki, bir neçə gündür ailə başçısı həbs edilsə də, bunun mətbuata açıqlanmaması sual doğurur: “Asəfin qardaşları imkanlı adamlardır. Sadəcə qardaşlarının içki düşkünü olması münasibətlərində bir qədər soyuqluq yaradıb. Buna baxmayaraq, onlar qardaşlarının günahsızlığını sübut etmək üçün istintaqla işbirliyinə getməkdə maraqlıdırlar. Yəqin buna görə rəsmi qurumlar hələ ki susur və Asəfin tutulduğunu açıqlamır. Mətbuatın, qəzetlərin vəziyyəti diqqətdə saxlaması durumu bir az qəlizləşdirsə də, qardaşları Asəfin həbsdən buraxılmasına çalışırlar. Onlar həmçinin itkin düşmüş qızı axtarırlar. Çox güman ki, qız tapılsa, vəziyyəti yaxşı olmayacaq. Ondan həm də atanın həbsdən çıxarılması üçün qorxuzaraq fikir alıb istintaqı istədikləri səmtə yönəldəcəklər”.

**Faciəvi şəkildə dağılan ailənin yaxınları mətbuatdan məsələni diqqətdə saxlamağı xahiş edirlər:** “Həm qadın, həm də qızları çox yaxşı, ləyaqətli, dürüst, əzabkeş insanlar idilər. Kişinin ailəsi onların bütün həyatını məhv etdi. İndi heç olmasa, o bir qızın həyatını sönməyə qoymayın, yazıqdır”...

❑ **Röya RƏFİYEVA**

# Cinayətdə adı hallanan “City Hospital”ın rəhbərinin oğlu həbs edilib

## Zərərçəkmişlərin qardaşı istintaqın gedişindən razıdır; Bayram Qorçuyev barışıq təklif edir





**“Yeni Müsavat” qəzetinin 14 avqust 2014-cü il tarixli sayında “City Hospital”ın direktoru Bayram Qorçuyevin oğlu Cavidan Qorçuyevin başçılıq etdiyi idmançılardan ibarət “qoçu” dəstəsinin Azər və Aslan Cəfərov qardaşlarını, eləcə də onların qonşusu Telman Nuriyevi bıçaqlamaları ilə bağlı məlumat vermişdik. Hadisə 6 avqust tarixində baş versə də, cinayətdə adı hallanan şəxslərin heç biri məsuliyyətə cəlb olunmamışdı.**

Qəzetimizdə gedən “City Hospital” rəhbərinə və oğluna qarşı tükürpədici iddialar" başlıqlı yazıdan sonra Cavidan Qorçuyev həbs olunub. Bu barədə musavat.com-a zərərçəkmişlərin qardaşı Samir Cəfərov məlumat verib. O bildirib ki, hazırda istintaq istədikləri şəkildə aparılır: “Yeni Müsavat” rəhbərliyinə bizə kömək etdiklərinə görə, öz dərin təşəkkürümü bildirirəm. Məhz sizin yazından bir gün sonra qardaşlarımın bıçaqlanmasına birbaşa rəhbərlik edən Cavidan Qorçuyev həbs olundu. Müstəntiqin özü bu barədə bizə zəng vurdu. İndi bizdən möhlət istəyiblər ki, digər iştirakçılar da həbs ediləcək. Bayram Qorçuyev tərəf bizimlə anlaşmaq, üzr istəmək üçün danışıqlar aparmaq istəyir. Biz digər iştirakçıların da həbs edilməsini tələb edirik".

**Samir Cəfərov qardaşlarının səhhətinin yaxşılaşdığını da qeyd edib:** “Hər gün qardaşlarımı həkimə aparıram. Günbəgün səhhətləri yaxşılaşır. Barışıq barədə ümumiyyətlə, düşünmürük. Cinayətkarların hamısı tutulmalıdır. Qoy aydınlaşsın ki, nə üçün belə cinayət ediblər. Düzgün hesabatlarını dövlət qarşısında verməlidirlər. Yalnız bundan sonra ola bilsin ki, müəyyən qədər onları bağışlayaq. Amma hələ ki belə bir fikrimiz yoxdur”.

**Xatırladaq ki, hadisə 6 avqust tarixində paytaxtın Xətai rayonunun Nəsrəddin Tusi küçəsində baş vermişdi. Bayram Qorçuyevlə rəhbərlik etdiyi xəstəxanada həkim işləyən Aslan Cəfərov arasında baş verən münaqişə zəminində işə qarışan Cavidan Qorçuyev yaxın idmançı dostları ilə qardaşlarla görüş təyin etmişdi. Görüş zamanı Azər və Aslan Cəfərov qardaşları və onların qonşusu Telman Nuriyev bıçaqlanmışdı.**

❑ **Cavanşir ABBASLI**

**Diyarbəkirdə türk əsgərini şəhid edən PKK terrorçusuna abidə ucaldılması qardaş ölkənin gündəmini qarışdırıb. 1984-cü il avqustun 15-də Eruh və Şemdinli kəndlərinə hücum edərək 1 əsgəri şəhid edən PKK-lı Mahsun Korkmazın heykəli ötən gün böyük təntənə ilə açılıb. Heykəl Diyarbəkirdə "Harun PKK şəhidliyi" kimi tanınan ərazidədir. Heykəlin açılışında Türkiyə Böyük Millət Məclisinin HDP-dən olan üzvü Nursel Aydoğan, DBP həmsədrləri Emine Ayna, Kamuran Yüksek də qatılıb.**

# Türkiyədə PKK terrorçusuna qoyulan heykəl söküləcək

## Diyarbəkirdə türk əsgərini şəhid edən PKK terrorçusuna abidə ucaldılması qardaş ölkənin gündəmini qarışdırıb; Devlet Bahçeli: "Terrorçuya heykəl qoyanlar türk millətinə qəbir qazır"; CHP fövqəladə qurultaya hazırlaşır

**30 ildə minlərlə türk əsgərini, minlərlə dinc sakini qətlə yetirən terrorçuya Türkiyə torpaqlarında heykəl ucaldılması ölkə müxalifətinin ciddi təpkilərinə səbəb olub. MHP lideri Dövlət Bahçeli bu haqda yazılı açıqlamasında 10 avqust prezident seçkisində Ərdoğana verilən hər səsin PKK-ya getdiyini deyib:** "Diyarbəkirdə PKK terrorçusunun heykəllinin seçkidən sonra açılması təəccüblü görünməmelidir. Terrorçuya heykəl qoymaqla türk millətinə məzar qazırlar. Ərdoğana verilən səslər PKK-ya getdi, terror yuvası Qəndilin cəsarətini artırdı. Bu heykəlin terrorçulara ümid verdiyi üzəri örtülməyəcək bir gerçəkdir. 10 avqustda Ərdoğan gülərkən İmralı canisi (PKK lideri Abdullah Öcalan nəzərdə tutulur) gülümsəyib, Bərzani həyəcanlanıb, körpələri güllələyənlər sevinclərindən göylərə uçub. Bu alçaq yanaşma, yürk millətinə meydan oxuma əziz şəhidlərimizin sümüklərini sızlatmaqdadır. Türkiyənin milli, mənəvi, tarixi haqlarına çox açıq, çox kirli bir hücumdur".

Devlet Bahçeli bildirib ki, vicdanı olan heç bir vətəndaş bu siyasəti qəbul etməyəcək. Bahçeli bildirib ki, bu məsələdə məsuliyyət baş nazir Rəcəb Tayyib Ərdoğanın üzərinə düşür: "Türkiyəni parçalamaq istəyən bölücü lobbinin demokratiya maskası taxaraq legitimlik qazanması qısa zamanda yaşanacaq fəlakətlərin xəbərçisidir. Dünyanın heç bir qürurlu, milli, mədəni ölkəsində hökumətlər terrorçuları himayə etməz, önə çıxarmaz, qatillərə heykəl ucaldılmaz. Bunları nəzarə alaraq bildirirəm ki, Ərdoğanın "yeni Türkiyə"si iflasın özüdür. Lövhələrdən "Türkiyə Cümhuriyyəti" ifadəsini silən, türklüyə düşmən kəsilən, milliyətçiliyi sökub atmağa çalışan Ərdoğan və onun şər komandası PKK-ya bayram təşkil etməklə türk millətini içərisindən çürütməkdədir. Uduzan Türkiyədir, əzilən, əziyyət görən, etnik kimliyi xaincə dağıdılmaq istəyən əziz türk millətidir. Diyarbəkirdə terrorçi heykəli ucaldanlar şəhid qanlarının hesabını verməsə, Ərdoğan və Öcalan xəyanəti haqq etdiyi təpkini görməsə, milliyətçi-ülkücü hərəkata rahat yuxu haramdır. Unutmayaq ki, bu gün PKK terrorçularının heykəli qoyulursa, sabah vətən bölünəcək, bayraq enəcək, dövlət çökəcək, millətin isə məzarı qazılacaq".

**Müxalifət AKP-dən bu məsələ ilə bağlı açıqlama tələb etsə də iqtidar partiyası israrla susmaqdadır.**

Seçkidən sonra Türkiyə müxalifətinin yenidən şəkillənəcəyi ilə bağlı proqnozlar doğrulmaya başlayıb. Ana müxalifət



Cümhuriyyət Xalq Partiyasından qrup başqan vəkili Müherrem İnce avqustun 18-də başqan vəkilliyindən istefa etdiyini və sentyabrın 5-6-da keçiriləcək fövqəladə qurultayda partiya sədrliyinə namizəd olacağını deyib.

Yada salaq ki, Türkiyənin ana müxalifət partiyasından seçkidən dərhal sonra Kemal Kılıçdaroğluna istefa çağırışları səslənib. Partiya lideri bu haqda açıqlamasında bildirib ki, istefasını tələb edənlər fövqəladə qurultay keçirmək üçün yetərli qədər səs toplayıb partiya rəhbərliyinə təqdim edə bilsələr, fövqəladə qurultay keçirilməsinə hazırdır. Bu açıqlamadan 3 gün sonra partiyanın yetərli sayda üzvünün müraciəti əsasında CHP İdarə Heyəti məsələni müzakirəyə çıxarıb və sentyabrın 5-6-da fövqəladə qurultay çağırılıb.

Müherrem İnce Türkiyənin bugünkü durumu ilə bağlı fikirlərini səsləndirərkən toplumun bilərəkdən qarşı-qarşıya qoyulmasının ciddi fəlakətlərə yol açacağından narahatlığını ifadə edib: "Ölkə zehni olaraq bölünüb. Toplum milli, dini zəmində qarşıdurmaya sürüklənir. İnsanlarımız bir-birinə düşmən kəsilir. Ancaq CHP Türkiyə üçün son dərəcə önəmli bir məqamda prezident seçkisində vətəndaşı seçkiyə gətirərək ölkənin həyatını dəyişəcək qərarlar verməyə razı sala bilmədi. Biz partiyanın başarısızlığı haqqında danışarkən deyilir ki, bu işdə AK-nin əli var. Bəs partiya sədrliyi iqtidarın qarşısına ehtiyac olan namizədlə çıxmadığı üçün AKP-nin maraqlarını qorumadımı?"

**Bu arada bəlli olub ki, CHP başqanlığına iddialılar sırasında partiya sədrindən istefa tələb edən fraksiyanın sədri Emine Ülker Tarhan və Muharrem İncə ilə yanaşı Türkiyə Vəkillər Kollegiyasının sədri Metin Feyzioğlu da var. Metin Feyzioğlu Türkiyə telekanallarından birinə bu haqda danışarkən deyib ki, partiya içərisində başqanlığı ilə bağlı müzakirələri davam etdirir.**

Axşam saatlarında məlumat yayıldı ki, Türkiyənin Diyarbəkir məhkəməsi PKK-nın ilk silahlı hücumunu ehtiva edən və bir əsgəri öldürən Mahsum Korkmaz adlı PKK-çıya qoyulan heykəlin sökülməsinə qərar verib.

Axar.az xəbər verir ki, PKK-nın silahlı mübarizəyə başladığı 15 avqust 1984-cü ilin 30-cu ildönümü münasibəti ilə ucaldılan heykəlin sökülməsi təhlükəsizlik qüvvələrinə tapşırılıb. Hadisə ilə əlaqədər qarşıdurma yaranmaması üçün bölgəyə əlavə silahlı qruplar göndəriləcəyi istisna edilmir.

❑ **Aygün MURADXANLI**

# Dünyanın sonu 2880-ci ilə qaldı?

## Bu günə qədərki qiyamət versiyaları və yalanları...

**ABŞ-dan olan alimlər nəhəng bir asteroidin insanlığın sonu olacağını bildirib. Fərziyyəyə görə, 1 kilometr ölçüsündə olan nəhəng cisim 16 Mart 2880-ci ildə Yerə dəyəcək və nəticədə nəhəng sunamilər meydana gələcək. Bu isə bəşəriyyətin yox olmasına gətirib çıxaracaq. Elmi adının "Asteroid 1950 DA" olduğu bildirilən asteroidin sürətlə ətrafında dönərək Yer kürəsinə yaxınlaşdığı ifadə edilib.**



Yer kürəsi ilə 61 min kilometr sürətlə toqquşması gözlənilən asteroitin dəhşətli partlama gücü meydana gətirəcəyi ehtimal edilir.

Biz isə xatırladaq ki, dünyanın hər il dağılacağı ilə bağlı müxtəlif nəzəriyyələr olur. Hər dəfə bir görücü ya astronom göy üzündə baş verən hadisələrdən dolayı Yer kürəsində dəyişikliklər olacağı və dağılacağı ilə bağlı fərqli-fərqli məlumatlar yayır.

**Kembric astrofiziki, doktor Albert Şervinski «dünyanın sonu haqda yeni nəzəriyyə irəli sürüb».** Onun qənaətincə, 2014-cü ilin yayında Günəş sistemində turşulu bulud yayılacaq. O, əmindir ki, bu dağıntı Yerə doğru hərəkət edəcək və 2014-cü ilin yayında bizim planetlə toqquşacaq. A.Şervinskinin fikrincə, bundan sonra Yer üzündə bütün canlı həlak olacaq.

**Xatırladaq ki, dünyanın axırının gəlməsi barədə yeni-yeni fikirlər söyləməklə bəziləri gündəmdə qalmağa çalışır.** Sonuncu dəfə 2012-ci il dekabrın 21-də Yerdə həyatın başa çatacağı haqda proqnozlar verilmişdi. Həmin proqnozdan bir ildən artıq vaxt keçir. Belə nəzəriyyələr hər il milyonlarla insana psixoloji təsir göstərir.

Bolqar baxıcı Vanqa nənə dünyanın sonunu 3797-ci il olduğunu bildirirdi. İndiyə qədər dünyanın dağılacağı ilə bağlı müxtəlif illərdə fərqli proqnozlar verilib. Bunlardan bəzilərini nəzərdən keçirək:

**Amerika meteoroloqu Albert Portun hesablamalarına görə, 6 planetin paradı, Günəşdə partlayışlar və Yerin yanması nəticəsində dünyanın sonunun yetişməsi tarixi - 1919-cu il 17 dekabr;**

Amerikalı keşiş Çarlz Lonqun vəhyinə əsasən, Yerin yanması və dünyanın axırı - 1945-ci il 21 sentyabr, saat 5.33;

Amerikalı həkim, təmasşünas Çarlz Lauqhedin öncəgörmələrinə əsasən güclü zəlzələlər və daşqınlar nəticəsində dünyanın sonunun yetişməsi tarixi - 1954-ci il 20 dekabr;

"Həqiqi Dünya Amerika Xristian Kilsəsi"nin hesablamalarına əsasən, dünyanın sonu - 1970-ci il 31 dekabr, saat 24.00;

ABŞ dağlarında sığınacaq yaratmış Leland Censen və Çarlz Heynqin bəhai təriqətinə görə nüvə müharibəsi nəticəsində dünyanın sonu - 1980-ci il 29 aprel;

**Amerika öngörücüsü Şeldon Nidlin proqnozlarına görə yadplanetlilərin və mələklərin kütləvi şəkildə gəlməsi ilə Yer üzünün yanıb külə çevrilməsi ilə dünyanın sonu - 1996-cı il 17 dekabr;**

Çili astronomu Karlos Munyen Ferraronun hesablamalarına görə Bernar-1 planetinin Günəş sistemindən keçməsi nəticəsində dünyada həyatın sonu - 1998-2001-ci il;

Bəzi amerikalı astronomların hesablamalarına görə, Yerin və Günəş sisteminin qara dəliyə sovrulması nəticəsində dünyanın sonu - 2001, 11 avqust;

Piter Lorinin yozumuna görə, Nostradamusun senturiyasında dünyanın sonu ilə bağlı tarix. Armageddon (xeyirlə şər arasında son döyüşün olacağı İsraildəki (Fələstindəki) dağ) - 2009-cu il;

**Mayya təqvimi, Dalay Lamanın nəzəriyyələrinə görə dünyanın sonu - 2012-ci il, 21 dekabr.**

❑ **Sevinc TELMANQIZI**

# Qarabağ qaziləri etiraz aksiyası keçirdilər

## İcra Hakimiyyəti sağlamlığını Vətən uğrunda itirənlərə 2 sot torpağı da çox görür...



**Avqustun 18-də Qarabağ qaziləri Suraxanı Rayon İcra Hakimiyyətinin qarşısında aksiya keçiriblər. Aksiyaya səbəb onlara Bahar qəsəbəsinin yanında verilən torpaqdan istifadə etmələrinə icazə verilməməsidir.**

Bu haqda "Yeni Müsavat"a məlumat verən Qarabağ qazisi Loğman Paşayev sonadək mübarizə aparacaqlarını dedi: "Biz Suraxanı-Hövsan yolunun yanındakı Bahar qəsəbəsində torpaq almışdıq. 3,8 hektar olan bu torpağın sənədlərini də hazırlamışdıq. Qarabağ Əlilləri Cəmiyyətinin nizamnaməsinə görə, bu yeri istifadə edə bilmədikdə həmin yeri cəmiyyətin üzvləri arasında bölmək olar. Cəmiyyətimizin sədri də bu torpağı bərabər qaydada üzvlər arasında bölüb. Nədənsə Rayon İcra Hakimiyyəti ilə Bakı Şəhər İcra Hakimiyyətinin arasında böyük bir mübahisə olub. Bunu bizdən gizlədirlər. Ona görə də bizim məsələni bir-birlərinin üstünə atırlar. İkisi də deyir ki, halallıq veririk, nə istəyirsinizsə tikin. Amma əslində icazə vermirlər. Biz də Bakı Şəhər İcra Hakimiyyətinə, Prezident Aparatına müraciət edib etirazımızı bildirmişdik. Bu etirazımızın üstündən 1 il yarım keçməsinə baxmayaraq müsbət bir nəticə əldə edə bilməmişik. 186 nəfər Qarabağ əlili qalıb torpaqsız".

**Loğman Paşayev icra başçısı İlqar Abbasovun aksiya nəticəsində onları nəhayət ki, qəbul etdiyini, ancaq müsbət bir cavab vermədiyini bildirdi:** "İcra başçısı bizi başından etmək üçün dedi ki, gedin Nazirlər Kabinetindən yenidən sənəd alın. Halbuki bizim sənədimiz var. Sənədi yenidən dəyişdirmək bizim üçün mümkün olan bir şey deyil. Sadəcə, olaraq bizim sənədimizdə yazılıb ki, torpaq daimi istifadə edilməlidir. Suraxanı rayonunda çoxlu sayda qeyri-qanuni tikililər var. Onlar rüşvət veriblər deyə, İcra Hakimiyyəti səsini çıxartmır. Biz Qarabağ əlillərinə "rüşvət verin" deyə bilmədikləri üçün beləcə get-gələ salırlar. Mən əlil arabasındayam. Bu vətən üçün sağlamlığımı qoymuşam. Ancaq vətənin torpağından mənə 1 qarış vermirlər. Haqqım olduğu halda iki sot torpaqda mənə nəsə tikməyə icazə vermirlərsə, bu necə ədalətdi?! Biz haqqımızı alanadək mübarizəmizi davam etdirəcəyik".

❑ **Günel MANAFLI**

## Beynəlxalq Təhsil Mərkəzi

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

- *Kiyev Dövlət Texniki Universiteti*
- *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
- *Kremençuk Dövlət Universiteti*
- *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
- *Kiyev Dövlət Dəniz Akademiyası*
- *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
- *Tbilisi Dövlət Tibb Universiteti*
- *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
- *Minsk Dövlət Universiteti*
- *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
- *Qrodno Dövlət Universiteti*
- *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
- *Volqoqrad Dövlət Aqrar Universiteti.*
- *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A Nərimanov m-su**

**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34



**Elan**

**Bakının Türkan qəsəbəsində dənizdən 600-700 metr aralı, sahəsi 20 sot olan bag satılır. Bağın orderi, 82 metr dərinlikdən çıxan şirin suyu, hasar və darvazası, meyvə agacları, 1 otaq və mətbəxdən ibarət kiçik tikilisi var. Qaz və telefon xətti yaxınlıqdan keçir. Qiyməti razılaşma yolu ilə.**

**Əlaqə tel: 070-611-64-15**



## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**





## "Ağac soyqırımı"na görə şok cərimə...

**Bakı Şəhər Yaşıllaşdırma Təsərrüfat Birliyi ağacların kəsilməsi faktı üzrə cərimə edilib. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) mətbuat xidmətindən Trend-ə verilən məlumata görə, nazirliyin Dövlət Ekspertiza İdarəsinə 11 iyul 2014-cü il tarixində "Bakı Abadlıq Xidməti" MMC tərəfindən Nəsimi rayonu, 20 Yanvar küçəsi, 22B və Asəf Məhərrəmov küçəsi, 2/51 ünvanlarında abadlıq işlərinin aparılması məqsədilə ərazidə təhlükə yaradan ağaclara müvafiq rəyin bildirilməsi üçün müraciət edilib.**

Dövlət Ekspertiza İdarəsi tərəfindən həmin ərazidəki iri gövdəli ağacların budanmasına rəy verilib. Lakin 12 avqust 2014-cü il tarixində Ekologiya və Təbii Sərvətlər Nazirliyinə həmin ünvanda ağacların qanunsuz olaraq kəsilməsi barədə şikayət ərizəsi daxil olub. Şikayət nazirliyin əməkdaşları və İDEA kampaniyasının nümayəndəsinin iştirakı ilə yerində araşdırılıb.

Araşdırma zamanı sözügedən ünvanda nazirliyin Dövlət Ekspertiza İdarəsinin rəyinə əməl olunmadan ümumilikdə 5 ədəd ağacın Bakı Şəhər Yaşıllaşdırma Təsərrüfat Birliyi tərəfindən kəsilməsi faktı aşkar olunub. Faktla bağlı Bakı Şəhər Yaşıllaşdırma Təsərrüfat Birliyi İnzibati Xətalar Məcəlləsinin 92.2-ci maddəsinə müvafiq olaraq hüquqi şəxs qismində 40 min manat məbləğində cərimə edilib.

Hazırda ərazidəki digər ağaclar ETSN-in aidiyyəti qurumlarının əməkdaşları tərəfindən nəzarətə götürülüb.

Tətbiq edilmiş cərimənin ödətdirilməsi üçün müvafiq tədbirlər görülür.

Qeyd edək ki, sözügedən "ağac soyqırımı" ilə bağlı məlumatı "Qafqazinfo"ya Bakı şəhər sakini Samirə Əliyeva lentə alaraq göndərmişdi. Yaydığımız bu xəbərdən sonra Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Bakının Nəsimi rayonu ərazisində nadir ağacların kəsilməsinə kəskin reaksiya verdi.

**Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişi ilə Fondun əməkdaşları Nəsimi rayonu 20 Yanvar küçəsində ağacların kəsildiyi ərazidə olublar. Artıq qeyd olunan ünvanda ağacların kəsilməsi prosesi dayandırılıb.Dövlət nümayəndələri də ərazidə olublar. Hadisə ilə bağlı ciddi araşdırmaya başlanılıb.**

## Dairəvi yolda dəhşətli qəza



**Daxili İşlər Nazirliyi (DİN) ötən gecə Bakıda baş verən ağır yol qəzası ilə bağlı məlumat yayıb. APA-nın nazirliyin saytına istinadən verdiyi məlumata görə, avqustun 18-də saat 01:00 radələrində Yasamal rayonu Yeni Dairəvi yolda Tural İbrahimovun və Rusiya Federasiyası vətəndaşı Azər Ələkbərovun idarə etdikləri "Mercedes" markalı avtomobillər toqquşub.**

T.İbrahimovun sərnişinlərindən Sumqayıt şəhər sakini Fatma Dünyamalıyeva hadisə yerində ölüb, özü və digər sərnişinləri - arvadı Alidə, azyaşlı oğlu Namiq, Mehdiabad qəsəbə sakinləri Kəmalə Qasımova və azyaşlı Xədicə Qasımova, habelə A.Ələkbərovun sərnişinləri - Bakı şəhər sakini Aybəniz Ələkbərova, Goranboy rayon sakinləri Nərmin Məmmədova və bacısı Nigar xəstəxanaya yerləşdiriliblər. Tural İbrahimov orada ölüb, Aybəniz Ələkbərovaya, Nərmin Məmmədovaya və bacısı Nigara ilkin tibbi yardım göstərilib.

Faktla bağlı Yasamal Rayon Polis İdarəsi tərəfindən araşdırma aparılır.


**Elan**

**Təcili olaraq, başqa ölkəyə köçməyimiz səbəbinə görə, Qəbələdə 60 sot ərazisi olan, dağın lap ətəyində yerləşən, suyu, işığı, qazı, meyvə verən şabalıd, qoz, fındıq, qızıl əhmədi alması və s. meyvə ağacları olan gözəl bir bağ təcili olaraq, çox münasib qiymətə satılır. Ciddi fikri olmayanlar zəng vurmasınlar.**

**Tel: (050) 371-01-60; (070) 335-90-15**


## Səfərbərlik xidməti məmuru bıçaqlandı



**Ağdamda məcburi köçkünlər üçün salınmış Dördyol qəsəbəsində bıçaqlanma hadisəsi baş verib. APA-nın Qarabağ bürosunun xəbərinə görə, Ağdam rayon sakini, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Ağdam rayon şöbəsinin əməkdaşı Əliyev Füzuli Veyis oğlu 6 bıçaq yarası ilə Ağdam Mərkəzi Rayon Xəstəxanasına çatdırılıb. Cərrahi müdaxilə ilə onun həyatını xilas etmək mümkün olub.**

F.Əliyevin keçmiş qudaları ilə aralarında yaranmış münaqişə nəticəsində bıçaqlandığı bildirilir.

Faktla bağlı Tərtər Rayon Prokurorluğunda araşdırma aparılır.

## Kriminal avtoritet "AF Hotel"-də gənci öldürdü



**Avqustun 16-da Bakıda diskotekada qətllə bitən davanın təfərrüatı bəlli olub. Vesti.az xəbər verir ki, istintaq nəticəsində bəlli olub ki, dava qız üstündə düşüb. Davada öldürülən Böyükağa Əliyev "AF Hotel"-də diskotekada tanımadığı qıza sataşıb.**

Bunu görən qızın sevgilisi Xəyal isə tanışı İbrahimə zəng edib və B.Əliyevi davaya çağırıb.

Xəyalın tanışı, əvvəllər xuliqanlığa görə məhkum olunmuş İbrahimin soyadı istintaqın marağından gizli saxlanılır. Onu da qeyd edək ki, İbrahim kriminal aləmdə avtoritet kimi tanınır. Xəyal da məhz buna görə kömək üçün İbrahimə müraciət edib.

Faktla bağlı cinayət işi açılsa da, qətldə şübhəli bilinən şəxs hələ tutulmayıb.

Qeyd edək ki, İbrahim həbsdən çıxandan sonra Sumqayıtda qohumugildə yaşayır. Heç yerdə işləmir. Onun Binəqədidə gizləndiyi ehtimal edilir (Lent.az).

## Gözdən əlili qatar vurdu

**Kürdəmir sakinini qatar vurub. APA-nın yerli bürosunun məlumatına görə, hadisə Bakı-Qazax dəmiryol xəttinin Kürdəmir rayonundan keçən hissəsində qeydə alınıb. Rayonun Xırdapay kənd sakini, 1962-ci il təvəllüdlü gözdən əlil Ağaməmməd Ağa oğlu Məmmədov dəmiryol xəttindən keçərkən onu qatar vurub.**

Hadisə yerində bir qolunu itirən A.Məmmədov təcili Kürdəmir Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilib.

Xəstəxanadan APA-ya verilən məlumata görə yaralıya ilkin yardım göstərilib , lakin vəziyyəti ağır olduğundan Bakıya göndərilib.

Faktla bağlı araşdırma aparılır.

## Oğuz sakini göldə batıb

**Oğuz rayon sakini göldə batıb. Rayon Polis Şöbəsindən APA-ya verilən məlumata görə, hadisə Oğuzun Xaçmaz kəndində baş verib. Kənd sakini Ağadadaş Mürsəlzadə yaşadığı kəndin ərazisindəki göldə çimərkən boğularaq ölüb. Faktla bağlı araşdırma aparılır.**

## Narkotik alveri edən keçmiş məhkum tutuldu

**Astara rayonunda narkotik alverçisi həbs edilib. Bu barədə Teleqraf.com-a Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Məlumata görə, Astara rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Ərçivan qəsəbə sakini, əvvəllər məhkum olunmuş Bəhruz Əliyev tutulub. Bəhruz Əliyevdən 9,54 qram, evinə baxış zamanı 20,29 qram marixuana və ona məxsus sahədən isə kultivasiya yolu ilə yetişdirdiyi 101 ədəd çətənə kolu aşkar edilərək götürülüb.**

## İstirahət günləri baş verən qəzalarda 8 nəfər ölüb

**İstirahət günləri respublikanın avtomobil yollarında 15 yol-nəqliyyat hadisəsi baş verib. Bu barədə teleqraf.com-a Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Məlumata görə, baş verən yol qəzaları zamanı 8 nəfər ölüb, 26 nəfər yaralanıb.**




YENİ MÜSAVAT
N 207 (5916) 19 avqust 2014

**Azərbaycanda susuzluq fəlakəti yaşanır. Bunu bölgələrdən gələn xəbərlər, əməkdaşlarımızın müşahidə və məlumatları da sübut edir. Bir müddət öncə qəzetimizin əməkdaşı Yardımlı rayonunda olarkən sakinlərin su qıtlığından nə qədər əziyyət çəkdiyinin şəxsən şahidi olub.**

# Azərbaycanda su fəlakəti yaşanır

## BMT-nin susuzluqla bağlı xəbərdarlığı doğrulur; ölkədə vəziyyət çox ciddidir

**Düzdür, rayonun 20-yə yaxın kəndinin su ilə təmin olunması üçün Haçayurd adlanan ərazidə artıq xeyli müddətdir işlər görülür.** Artıq su kəmərinin xeyli hissəsi çəkilib və bir neçə kənd su ilə təmin edilib. Ancaq insanlar suyun qıtlaşması səbəbindən problemin tam həll olunacağına inanmırlar. Gerçəklik budur ki, rayonda çeşmələr quruyub. Yerli icra hakimiyyəti bəzi kəndlərdə artezian quyularını qazdırmaqla fəlakətin miqyasını nisbətən azalda bilsə də, hələ görülməli çox işlər var. Yaşlı sakinlər deyir ki, qışda normadan az qarın yağması, yayın isə quraqlıq şəraitdə keçməsi su mənbələrinin qurumasına gətirib çıxarıb. Odur ki, əksər kəndlilər artezian suyunu pulla almağa vadar olurlar. **Maşını 40-60 manat dəyərində olan suyu almağa isə hər kəsin imkanı çatmır.** Kəndlərin qazlaşdırılması işində fasilə yarandığından meşələrin qırılması da su mənbələrinin qurumasında öz sözünü deyir. Quraqlıq səbəbindən Viləş çayının suyu kəskin şəkildə azalıb, mənbəyini dağlardan götürən bəzi çaylar isə tamamilə quruyub. Belə vəziyyətdə mal-qaranın suvarılmasında baxımından da fəlakətli vəziyyət hökm sürür. Hətta bu səbəbdən sakinlərin bəziləri heyvanlarının susuzluqdan məhv olmaması üçün yaylaqlara üz tutublar. Quraqlıq kənd təsərrüfatına da ciddi ziyan vurub, bostanlar məhv olub.

Bu günlərdə Azərbaycanın şimal-qərb regionuna gedən iqtisadçı ekspert Qubad İbadoğlu da özünün facebook səhifəsində susuzluq fəlakətindən yazıb: "Bu bölgədə hər tərəf - meşələr, dağlar, yamaclar, susuzluqdan yanır. Kəhrizlər quruyub, artezianlarda suyun təzyiqi aşağı düşüb, çaylarda sular azalıb, bir sözlə su çatışmazlığı bu bölgənin əsas probleminə çevrilib. Yerli əhali və mütəxəssislər bunu Oğuz-Qəbələ və Bakı su kəmərinin fəsadı kimi izah edirlər. Əgər belədirsə onda heyif 1 milyard dollarlıq neft puluna..."

**Lerik rayonunun Cəngəmiran kənd sakini Müşfiq Qafarovun** İnfom.az-a bildirdiyinə görə yaşadıqları kənddin içməli və texniki su problemi var: "Artıq 3 ilə yaxındır ki, biz bu çətinliklə üz-üzəyik. Yaşadığımız kənd rayon mərkəzinin 1 km-liyində yerləşir. Mərkəzdə su var, bizdə isə yox. Kənddə 200-dən çox təsərrüfat mövcuddur. Əhali öz tələbatını ödəmək üçün suyu atla, eşşəklə 15 km. uzaqdan yəni, Zavand kəndindən keçən çaydan gətirir". M.Qafarov onu da bildirir ki, bu vaxta qədər kənd əhalisi su ehtiyacını həyətyanı sahələrində qazılan quyulardan ödəyirmiş, lakin bu quyular bulaqlarla birgə, xeyli vaxtdır ki, quruyub. Dəfələrlə rayon rəhbərliyinə edilən müraciətlər isə cavabsız qalıb". **Kənd bələdiyyəsinin sədri Güləddin Şahverənov** da faktı təsdiqləyib. Bildirib ki, havaların quraq keçməsi onları mövcud vəziyyətlə qarşı-qarşıya qoyub və problem təkcə onlarda deyil, Lerikin əksər kəndlərində vəziyyət eynidir". Kənd sakinlərindən aldığımız məlumata görə, vəziyyətdən çıxış yolları var, lakin problemi həll etmək istəyən yoxdur. Belə ki, bəzi imkanlı şəxslər şəxsi həyətyanı sahələrində artezian



quyuları vurdurub, yerin 50-70 metr dərinliyindən su çıxaraq istifadə edirlər. Belə quyuların hər metri 50 manata xüsusi aqreqat maşınlarıyla qazılır. Beləcə bir quyunun qazılıb istifadəyə verilməsi təxminən 4000-5000 manata başa gəlir. Kənd əhalisinin isə buna imkanı çatmır. Üstəlik, yerqazan aqreqat da tapmaq çətindir. Kəndlilər buna görə də problemi öz gücləriylə həll edə bilmirlər. Rayon rəhbərliyi isə məsələnin həllinə biganə yanaşır. Hazırda imkanı olanlar 3 ton yarımlıq su maşınına 30 manat verib suyu pulla alırlar. Olmayanlar da at-eşşəklə bir təhər güzəranlarını keçirirlər. Bir sözlə, Cəngəmiran kəndinin ümidi Allaha qalıb".

Cəbhə bölgəsində yerləşən kəndlərin də içməli su problemi ilə tez-tez üzləşməsi və bu cür məsələlərin 20 ildən çoxdur ki, çözülməməsi son illərin ən aktual problemlərindən birinə çevrilib. **Xalq.az xəbər verir ki, içməli su problemi ilə üzləşən yaşayış massivlərindən biri də Tərtər rayonudur.** Bu rayonun bir çox kəndlərində su mənbələri həddən artıq çirklənib. Belə ki, həmin kəndlərin ərazilərindən keçən çayların yatağı zir-zibillərlə doludur. Bəzi yerlərdə isə qaz və ördəklər çayların içərisində üzür və öz ifrazatlarını çaya axıdırlar. Rayonun Seydimli kənd sakinləri deyirlər ki, onların istifadə etdikləri çaylardan birinin adı Xoruzlu çayı adlanır. Digər çayın adı isə yoxdur. Çünki ondan çaydan daha çox su arxı kimi istifadə edilir. Hər iki çayın suları öz mənbəyini Murovdağın Kəlbəcər istiqamətindən götürür. Yerli sakinlər deyirlər ki, ermənilər həmin çayların mənbələrini tapa bilmədiklərindən onları bağlaya, yaxud zəhərləyə bilmirlər. Ancaq bulaq suyu olmasına baxmayaraq, həmin sular həmişə çirklənir və zibillənir. Onların antisanitariya mənbəyinə çevrilməsi müxtəlif səbəblərlə əlaqələndirilir. Çünki hər iki çaya müxtəlif məişət tullantıları atılır, ev heyvanları sulanır, qazlar və ördəklər həmişə həmin çaylarda üzürlər.

Qeyd edək ki, BMT-nin Minilliyin İnkişaf Hədəfləri hesabatında Azərbaycan da daxil olmaqla region ölkələrini su qıtlığının gözlədiyi barədə xəbərdarlıq edilmişdi. Bildirilirdi ki, hazırda **Qafqazda və Mərkəzi Asiyada** bərpa olunan su resursları azalır və bu da regionu su qıtlığı ilə təhdid edir. Hesabatda xəbərdarlıq edilirsi ki, Cənubi Qafqazda və Mərkəzi Asiyada bərpa olunan su resursları azalmaqdadır. Regionda su sərfiyyatı 50 faiz təşkil edir. Bu isə böhranlı həddə yaxındır. Əgər mövcud su resurslarının 60 faizi həcmində su sərf olunursa o zaman fiziki olaraq su qıtlığı yaranır, insanların həyatı, ətraf mühit üçün təhdid meydana çıxır. Hesabat müəllifləri ehtiyat edirlər ki, region ölkələri əhalinin içməli su ilə təminatının genişləndirilməsi vəzifəsini həll edə bilməyəcəklər. Bundan əlavə region ölkələri quruda və suda təbiəti mühafizə zonalarının yaradılması, təbii resursların qorunması məsələsini həll etmək gücündə deyillər.

**Hələlik bölgə əhalisi həsrətlə yağışların düşməsini gözləməkdədir. Vəziyyətdən çıxış yolu axtarmaq üçün müvafiq qurumların mütəxəssislər göndərərək bölgələrdəki durumu ciddi şəkildə araşdırmasına, heç olmasa yeni artezian quyularının qazılması üçün hərəkətə keçməsinə ehtiyac var. Kəsəsi, qarşıdakı 1-2 ay ərzində əhalini krizisdən çıxartmaq üçün addımlar atılmalıdır.**

❑ **Cavid TURAN**

# Zəhərli qarpızı necə tanıyaq?

## Adil Qeybulla: "Zəhərlənmə zamanı ev şəraitində çoxlu maye qəbul etmək lazımdır"

**Yayın bu isti günlərində bostan bitkilərinə tələbat artıb. Qarpız mövsümi bostan bitkisi olaraq bizim süfrələrin əvəzedilməz giləmeyvəsi sayılır. Yayın "simvol"larından olan qarpızın vətəni Cənubi Afrika hesab olunur. Bu günə kimi də qarpız orda yabanı şəkildə yetişir. Hələ qədim Misirdə insanlar qarpızın bir "mədəniyyət" olduğunu bilib onu yüksək qiymətləndirirdilər.**

Qərbi Avropaya isə qarpız xristian yürüşləri zamanı gətirilib. Rusiyaya gəldikdə, bu məhsul orada yalnız 17-ci əsrdə peyda olub. Azərbaycanda da qarpız kifayət qədər sevilir. Ancaq son günlər qarpız və yemişdən zəhərlənmə hallarının artması, hətta bir müddət əvvəl bir gənc qızın qarpız zəhərlənməsindən həyatını itirməsi insanlarda narahatçılıq yaradıb. Biz də paytaxt sakinlərinin daha çox üz tutduğu bazarlardan birinə Yaşıl bazara baş çəkib həm qarpız satışını müşahidə etdik, həm də satıcılardan zəhərli qarpızı tanımağın yollarını öyrəndik. Bazara ayaq basar-basmaz qarpız satıcılarının "gəl ay müştəri, bal kimi qarpızdan qalmadı", "şipşirin Sabirabad qarpızına gəl" deyərək müştəri səsləməsi ilə qarşılaşdıq. Maşının yük yerinə qarpız yığıb özünə müştəri səsləyən satıcıya yaxınlaşıb öncə qarpızın qiymətini soruşduq. Kilosunun 20 qəpiyə olduğunu deyən satıcı Emin Əzizov qarpızını tərifləməyə başladı: "Bacı, bu Sabirabad qarpızıdır. Özüm yetişdirmişəm, özüm də gətirib satıram. Alsanız peşman olmazsınız".

**Hər gün səhər saat 7-dən axşam 8-9-a kimi qarpız satdığını deyən Emindən zəhərli qarpızı necə tanımağın mümkün olduğunu soruşduq:** "Mən artıq 6-7 ildir ki, bu işlə məşğulam. Müştərilər qarpız alarkən onun saplağına fikir verməlidir. Əgər qarpızın saplağı tünd yaşıl rəngdədirsə, deməli qarpız təzədir. Təzə qarpızı tanımağın başqa bir yolu isə, onu kəsdirməkdir. Əgər bıçaq vuran kimi qarpız bölünürsə, deməli onu almaq olar".

Elə bu vaxt bir alıcı gəlib bir qarpız çəkdirir. Daha sonra isə təzəliyinə əmin olmaq üçün onu kəsməsini xahiş edir. Satıcı qarpızı kəsir. Ancaq qarpız satıcının dediyi kimi bıçaq vuran kimi yarılmır və beləcə alıcı ilə satıcı arasında mübahisə başlayır. Alıcı qarpızın içinin ağ olduğunu desə də, satıcı israrla qarpızın təzə və dadlı olduğunu deyir. Nəhayət ki, satıcı Emin alıcını başqa qarpız verməklə razı salır.

**Növbəti söhbətləşdiyimiz qarpız satıcısı Fikrət Quliyev isə deyir ki, hər dəfə müştərinin istəyinə görə qarpız kəsmək olmaz:** "Elə qarpız olur ki, onun içi tam qırmızı olmur. Bu o demək deyil ki, o qarpız zəhərli və ya köhnədir. İçi ağ qarpızlar qırmızı qarpızdan da dadlı olur. Qarpızın təzə olduğunu ona çırtma vurmaqla da yoxlamaq olar. Çırtma vuranda səs çıxarırsa, deməli, o, səni öldürməyəcək. Keyfiyyətli qarpız bütöv, zədəsiz və quru saplaqlı olmalıdır. Üzərindəki sarı ləkələr imkan daxilində az olmalıdır".

**Qarpız alıcılarına da yaxınlaşıb onların fikrini öyrəndik.** Qarpız almaqda tərəddüd edən Xatirə xanım deyir ki, artıq bir dəfə qarpızdan zəhərlənib: "Bir ay əvvəl qarpızdan allergiya oldum. Həkimə getdim dedi ki, zəhərlənmisən. Qarpız yeməyi çox sevirəm. İndi yenə almaq istəyirəm. Amma qorxuram ki, yenə zəhərlənəm".

**Digər alıcı Səmra Məmmədova deyir ki, hər il qarpız mürəbbəsi bişirir:** "Mənim 45 yaşım var. Bu yaşıma kimi qarpızdan zəhərləndiyimi xatırlamıram. Mən hər yay bunun mürəbbəsini də bişirirəm. Ailəmiz bunu sevir".

Maraqlıdır, qarpız yetişdirilməsində hansı səhvə yol verilir ki, qarpız zəhərli olur.

### Qarpızdan zəhərləndikdə nə etməliyik?

Tibb elmləri doktoru, professor Adil Qeybulla zəhərlənmə zamanı ev şəraitində çoxlu maye qəbul etməyin vacib olduğunu dedi: "Ümumiyyətlə meyvə tərəvəzlərin istifadəsi yaxşı olar ki, hər fəsilə uyğun olsun. Yetişdirilməsi üçün süni şəraitdən, maddələrdən istifadə olunan meyvə, tərəvəzlər təbii ki, orqanizmə təhlükə törədir. Nəzərə almaq lazımdır ki, bunların yetişdirilməsi və zərərli həşəratlardan qorunması üçün müəyyən zərərverici maddələrdən istifadə olunur. Tərkibində çoxlu su toplayan meyvələr, məsələn qarpız, pomidor və digərləri həmin zərərli gübrələri və yaxud da həşəratlar əleyhinə istifadə edilən maddələrin inqridentlərini özündə toplayır və son nəticə olaraq bunlar orqanizmə düşdükdə təsir göstərir. Hesab edirəm ki, vaxtından əvvəl süni surətdə yetişdirilmiş meyvə-tərəvəzin istifadəsi məsləhət deyil. Xüsusilə də qadınlar, uşaqlar və yaşlılar bundan uzaq olmalıdır. Bəzən bu hallarda zəhərlənmə halını müəyyənləşdirmək olmur. Zəhərlənmə baş verdiyi vaxt ilk yardım zərərverici amilin orqanizmə sonrakı təsirinin aradan qaldırılmasıdır. Zəhərlənmə hansı meyvə-tərəvəzdən baş veribsə onun sonrakı qəbulu dayandırılmalıdır. Həmin vaxt ev şəraitində çoxlu maye qəbul etmək lazımdır. Daha sonra dərhal həkim çağırılmalı və ixtisaslaşdırılmış tibbi yardım göstərilməlidir".





❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT

Son səhifə

N 207 (5916) 19 avqust 2014

# Pişikdən inanılmaz addım

Amerikada evinin yataq otağında yatmağa hazırlaşan ailə birdən-birə əsəbiləşən pişiyin hücumuna məruz qalıb. Otaqdan çıxa bilməyən qadın polislərə zəng edərək pişiyin hücumundan qorunmasını istəyib. Kaliforniya ştatında yaşayan ana və qızın köməyinə gələn polislər çətinliklə də olsa pişiyi sakitləşdirə biliblər. Cuppy adlı pişik yataq otağında hücum etdiyi ana və qızın əl-ayağını yaralayıb. Evin və pişiyin sahibi olan qadın onu illərdir bəslədiyini, ilk dəfə belə bir hadisə ilə üzləşdiyini deyib.

Ötən il də Amerikada yaşayan Lux adlı pişik onu saxlayan ailənin üzvlərinə hücum edərək yeni doğulmuş körpəni ağır yaralamışdı.





## Yumurtanın xeyri və ziyanı...

Toyuq yumurtası daim çox xeyirli qida məhsulu sayılıb. Lakin müasir dövrün insanları xolesterinin ziyanı haqda fikirləşdiyindən yumurtanın ziyanlı tərəflərinin daha çox olduğunu düşünməyə başlayıblar. Bununla da, yumurtanın gündəlik istifadəsinin ziyanlı olduğu fikri irəli sürülür. Bu düşüncələri nəzərə alıb, yumurtanın xeyri və ziyanını tərəziyə qoyub, hansı variantın daha həqiqi olduğunu anlamağa çalışaq. Mənfi arqumentlərdən birincisi yumurta sarısının tərkibində olan xolesterindir. Məhz buna görə sağlam həyat sürən insanların çoxu yumurtadan imtina edib. Yalnız bir çox alimlərin iddiasına görə, gündə 1 yumurta yemək normaldır və bu miqdarda olan xolesterin orqanizmə ziyanlı sayılmır.

Yumurta müxtəlif xeyirli komponentlərlə də zəngindir: zülal, vitamin, minerallar və antioksidantlar. 1 yumurta gündəlik zülal normasının 12%-14% təşkil edir və tərkibinə həmçinin amin turşuları da aiddir. Vitaminlərə gəldikdə isə, A, D, E, B3, B12, fol turşusu və xolin aiddir. Tərkibində həmçinin yod, sink, kalsium, maqnezium, dəmir və fosfor kimi mineral və mikroelementlər də var. Toyuq yumurtasının tərkibində həmçinin selen antioksidantı da var. Bundan belə bəlli olur ki, yumurta yeməklə biz, ürək-damar sistemi xəstəlikləri və qadınlarda döş xərçənginin yaranma təhlükəsini azaltmış oluruq. Toyuq yumurtasında olan maddələr həmçinin saçların qorunması, dərinin qidalandırılması, kəpək və qırışlarla mübarizə aparılması, diş və sümük toxumasının bərkidilməsinə xeyirdir. Bundan əlavə isə görmə qabiliyyətinə yaxşı təsir göstərir.

# Ürək üçün "Ağıllı geyim" yaradıldı

İspaniyanın "Nuubo" şirkəti İspaniyada və Avropanın digər şəhərlərində geyimə tətbiq edilmiş ürək fəaliyyətinə nəzarət sisteminin satışına başlayıb. Milli.az-ın ictnews-a istinadən verdiyi məlumata əsasən, şirkətin əsas məhsulu ürək fəaliyyətinin monitorinqi üçün "nECG" platformasıdır. Platforma üç elementdən ibarətdir: "nECG Shirt". EKQ siqnallarını oxuyan "BlendFix" toxuma malları elektrodları ilə təchiz edilmiş "nECG" futbolkası; "nECG Minder". "nECG Shirt" köməyi ilə məlumatı qeydiyyata alan simsiz qəbuledici. "nECG Suite". "nECG Minder" tərəfindən ötürülmüş məlumatları emal edən təhlil və vizualizasiya proqramı, həmçinin hesabatları generasiya edir və geniş təhlil aparır. Şirkət öz platformasını tibb aləti kimi təqdim etmək niyyətində deyil, onun məqsədi özünənəzarət üçün məlumatın əldə edilməsi vasitəsi yaratmaqdır.





## Kral su yerinə şərab içirmiş

Ötən il Leicester-də bir maşın dayanacağında aparılan qazıntı işləri zamanı İngiltərənin əfsanəvi kralı III Riçardın cəsədinin qalıqları tapılmışdı. Cəsəd üzərində aparılan araşdırmalar nəticəsində məlum olub ki, Riçard onurğa əyriliyi xəstəliyindən əziyyət çəkirmiş. Üstəlik kral qeyri-adi həyat tərzi ilə də hər kəsdən fərqlənirmiş. Belə ki, Riçard 1483-cü ildə taxta çıxdıqdan sonra hər gün təxminən 3 litr şərab içir və ekzotik quşların əti ilə qidalanırmış. Kralın sümükləri və dişləri üzərində araşdırma aparan həkimlər onun çox zəngin bir yemək menyüsü ilə qidalandığını, tez-tez qu quşu və durna əti yediyini deyiblər. İngiltərədə su qaynaqları təmiz olmadığı zamanlarda insanlar su yerinə pivə içirmiş. Həmin dövrlərdə Riçard da su yerinə şərab içərək susuzluğunu yatırırmış.



## Qoroskop

(19 avqust)

Səbuhi Rəhimli


QOÇ - Olduqca müəmmalı gündür. Ətrafınızda cərəyan edən proseslərdən baş çıxara bilməyəcəksiniz. Bu səbəbdən də hər hansı addımı atmazdan qabaq ehtiyat tədbirlərinizi artırmalısınız.


BUĞA - Böyük dəyişikliklər astanasındasınız. Ulduzlar sürpriz dolu məqamlar yaşayacağınıza imkan verəcək. Amma belə anlarda kiməsə yalan satmaq, hiyləgərlik etmək yolverilməzdir.


ƏKİZLƏR - Neçə gündən bəri başladığınız işgüzar fəaliyyətinizi bu təqvimdə də davam etdirməlisiniz. İşlə bağlı qarşınızı kəsən bütün maneələri dəf etməyə çalışın. Kənar təsirlərə aludə olmayın.


XƏRÇƏNG - Aktiv gündür. Nəzərdə tutduğunuz planların əksəriyyətini reallaşdıra biləcəksiniz. Tərəddüd etdiyiniz məsələlərdə mütləq məsləhət alın. Nahar ərəfəsindən sonra sevindirici hadisələr gözlənilir.


ŞİR - Maliyyə məsələləri ilə bağlı əlverişli gün olsa da, çox güman ki, mübahisəsiz keçinməyəcəksiniz. Ədalətli qərarlara hörmətlə yanaşın. Nahardan sonra səfərə çıxmağa dəyər.


QIZ - Həddindən ziyadə uğurlu gündür. Ovqatınız xoş, maddi durumunuz isə qənaətbəxş olacaq. Odur ki, bu istiqamətdə aktivliyinizi artırmalısınız. Ailə problemlərinə biganə yanaşmayın.


TƏRƏZİ - Şəxsi büdcənizdə irəliləyişə nail olmaq üçün gözəl şanslarınız var. Uzun müddət ala bilmədiyiniz borclarınızı və ya haqqınızı almaqda ulduzlar sizə kömək göstərəcək. Axşamı evdə keçirin.


ƏQRƏB - Göy qübbəsinin qənaətlərinə görə, yavaş-yavaş həyatın nəbzini tutmağa başlamısınız. Daxili sarsıntılarınız da sengiməkdədir. Gününüzü daha maraqlı etmək üçün qonaq getməyə çalışın.


OXATAN - Maraqlı hadisələrlə rastlaşacağınız gözlənilir. Hətta könülaçan əhatədə də iştirak edə bilərsiniz. Yeni iş üslubuna keçmək barədə tərəfdaşlarınızla bir daha götür-qoy edin.


OĞLAQ - Müəyyən məziyyətlərinə görə uğurlu gün hesab etmək olar. Ailə-sevgi münasibətlərindən tutmuş iş prinsipinə qədər rastlaşdığınız olaylar yalnız xeyirli olacaq. Özünüzü bədbinləşdirməyin.


SUTÖKƏN - Ümumi əhvalınız qənaətbəxş olsa da, iş yerində çətinliyiniz gözlənilir. Bu səbəbdən üzərinizə düşən vəzifələrin məsuliyyətini hiss etməlisiniz. Axşam uzaq yola çıxmağa dəyər.


BALIQLAR - Son vaxtlar özünüzə qapılmağınız heç də ulduzların xoşuna gəlmir. Çünki bu kimi hallar insanın ümidini qırır. Nahardan sonra qonaq gedin ki, fikriniz dağılsın. Pul da gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 38 milyon dollara "Ferrari"




ABŞ-da təşkil olunan hərracda nadir idman avtomobili rekord qiymətə alıcı tapıb. Bu, indiyə qədər, üstəlik qəzaya uğramış bir avtomobil üçün ödənən ən yüksək məbləğ olub. Həyəcanlı hərrac, ABŞ-ın Kaliforniya ştatında təşkil edilib. Adı açıqlanmayan alıcı, hərracda telefon vasitəsilə iştirak edərək İtaliya istehsalı olan avtomobilə vergiləri də daxil olmaqla, 38 milyon dollar ödəyib. Bu məbləğ keçən il İngiltərədə satılan avtomobil üçün ödənilən 30 milyon dollarlıq rekordu qırıb. Dünyadakı 39 nadir minik vasitəsindən biri olan həmin avtomobildən xizək sürmə üzrə olimpia çempionu Fransalı Henri Oreille də istifadə edib. Oreille 1962-ci ildə bu avtomobillə qəzaya düşərək dünyasını dəyişib.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.700

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.